AZƏRBAYCAN RESPUBLİKASI

*Əlyazması hüququnda*

# İNGİLİS DİLİNDƏ QAYIDIŞ ƏVƏZLİKLƏRİNİN PRAQMATİKASI

İxtisas: 5708.01 – German dilləri

Elm sahəsi: filologiya

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş

## DİSSERTASİYA


İddiaçı: _________ **Elmira Abdulla qızı Hüseynova**

Elmi rəhbər: ___________ **filologiya elmləri doktoru, prof. M.Y. Qazıyeva**


**Naxçıvan – 2021**

## MÜNDƏRİCAT

**GİRİŞ** ........ 3

I FƏSİL. Linqvistik praqmatikanın qısa təsviri ........ 10

1.1. Fəlsəfi praqmatikadan linqvstik praqmatikaya keçid ........ 10

1.2. Əvəzliklər praqmatik vasitə kimi ........ 29

II FƏSİL. Qayıdış əvəzliklərinin kontekstual işlənmə xüsusiyyətləri ........ 47

2.1.Kontekst modelləri nəzəriyyəsi ........ 47

2.2.Müxtəlif sosial situasiyalarda işlənən qayıdış əvəzlikləri ........ 72

2.3.Müxtəlif kommunikativ situasiyalar ........ 86

2.4.Qayıdış əvəzliklərinin praqmatik təhlili ........ 104

**NƏTİCƏ** ........ 121

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI** ........ 125

# GİRİŞ

**Tədqiqat işinin aktuallığı və işlənmə dərəcəsi.** İngilis dili artıq beynəlxalq dil statusu almış, dünya millətləri və dövlətləri arasında ortaq ünsiyyət vasitəsinə çevrilmişdir. İngilis dili ABŞ, Avstraliya, Böyük Britaniya, CAR, Yeni Zelandiya, İrlandiya və Sinqapur kimi bir çox inkişaf etmiş ölkələrin dövlət dilidir. Hal hazırda 400 milyona qədər insanın ana dilidir və bir milyard dörd yüz milyon insan isə ikinci dil olaraq istifadə edir. Həmçinin BMT də daxil olmaqla əksər beynəlxalq təşkilatların əsas rəsmi dillərindən biridir. Bu dil Okeaniyadan Avropaya, Afrikadan Amerikaya qədər dünyanın hər tərəfində əsas ünsiyyət vasitəsidir. İngilis dili dünyəvi miqyasda diplomatiya, kommersiya, dənizçilik, elm-texnologiya və kütləvi informasiya dili kimi istifadə edilməkdədir.

İnternetdə yerləşdirilən məlumatların əksəriyyəti (50%) ingilis dilindədir. Beləliklə ingilis dilini bilmək başqa yolla əldə edə bilməyəcəyiniz qədər çox məlumat əldə etməyə imkan verir. Qısacası, insanlar üçün həm peşəkar, həm də şəxsi həyat daxil olmaqla ingilis dili öyrənmək üçün bir çox səbəb var.

İngilis dilinin belə geniş yayılması onu bir çox ölkədə tədqiqat mövzusuna çevirmiş, onun müxtəlif sahələri tədqiq olunmuş və edilməyə də davam edilir. Azərbaycanda da yerli mütəxəssislər tərəfindən çoxlu araşdırma nəticələri dəyərli qaynaq kimi qəbul edilə bilər. Bizim tədqiqat mövzusu olaraq seçdiyimiz sahə isə qayıdış əvəzlikləridir. Amma tədqiqat sahəmizə dilçiliyin yeni yaranmış bir sahəsi olan praqmatikanı da birləşdirəcəyik. Çünki hər hansı bir dildə ünsiyyət zamanı fikirlərimizi ifadə etmək üçün müəyyən qrammatik quruluşlardan və ən əsası mənadan istifadə edilir.

İngilis dilini öyrənərkən, semantik və praqmatik məna arasındakı fərqləri anlama linqvistik qabiliyyətimizi artırmaq üçün dəyərli bir vasitə ola bilər. Hər ikisi sözlərin mənaları ilə bağlı sahələr olsa da, onların istifadəsi olduqca fərqlidir.

Semantika bir dildə sözlərin mənasını və cümlə daxili mənanı ifadə edir. O cümlənin mənasını kontekst olmadan təhlil edir, dil və onun referenti arasındakı əlaqəni aydınlaşdırır. Praqmatika da eyni sahəni araşdırır, aradakı tək fərq isə bunu

verilən kontekst daxilində edir. Eyni zamamda o dil formasını və onun referentini həmin formada istifadə olunan situasiya ilə əlaqələndirir.

Əvəzliklər praqmatikanın tədqiqində xüsusi yer tuturlar, çünki onlar kontekstdən asılı olaraq müxtəlif məna çalarlarına malik olurlar. İngilis dilində əvəzliyin on bir növü vardır və hamısını eyni dərəcədə tədqiq etmək mümkün deyil. Bunun üçün tədqiqat sahəmizi əsasən qayıdış əvəzliklərinə həsr edirik, amma digər əvəzliklərin də ümumi təhlilini də veririk.

Əvəzliyin digər növləri kimi qayıdış əvəzlikləri də şəxs, kəmiyyət və cins kateqoriyasına malikdir.

Qeyri-müəyyən şəxs əvəzliyinin sonuna **–self** hissəciyi artırmaqla düzələn **oneself** əvəzliyi heç bir kateqoriyaya malik deyil, yəni şəxsə, kəmiyyətə və cinsə görə dəyişmir.

Qayıdış əvəzlikləri sintaktik funksiyasına görə predikativ, zərflik və təyin ola bilir.

*I was by myself at home.(predikativ)*

*I can stay by myself. (zərflik)*

*I gave a book of myself to my friend. (təyin)*

Qayıdış əvəzliklərinin digər bir funksiyası isə cümlənin təsir gücünü artırmaqdır, bu zaman onlar ədat funksiyasında çıxış edir.

*I myself decided not to go there.*

*I went there myself.*

Qayıdış əvəzlikləri ancaq ismi əvəzlik kimi işlənir. Bu qrupa daxil olan əvəzliklər cümlədə əsasən vasitəsiz tamamlıq rolunda çıxış edir, Qayıdış əvəzliklərindən əvvəl sözönü işlənə bilir. Bu halda qayıdış əvəzlikləri səzönlü tamamlıq funksiyasında çıxış edir,

1. *He poured himself a cup of tea.*
   *She carried the bag herself.*
2. *The girl herself confessed that she was guilty.*
   *The author included the letter itself to the article .*

Yuxarıda verilən nümunələrdə 1-ci forma ilə 2-ci forma arasında kəskin

fərqləri görə bilərik. 1-ci verilən nümunələrdə qayıdış əvəzlikləri təsirli fellərin tamamlığı mövqeyindən çıxış edir, 2-ci nümunələrdə isə ismi birləşmələrə əlavə edilib. Buradan da göründüyü kimi 2-ci formada cümlənin mənasını dəyişmədən qayıdış əvəzliklərini çıxmaq olar, amma 1-ci formada qrammatikanı pozmadan bunu etmək mümkün deyil. Həmçinin mənalarında da fərq vardır. 1-ci formada verilən nümunələrdə iki iştirakçı vardır.

İngilis dilini yeni öyrənənlər yanlış və müvəffəqiyyətsiz ünsiyyətdən qaçınmaq üçün cümlənin praqmatik mənasını başa düşməyi öyrənməlidirlər. Çünki ünsiyyət zamanı danışan tərəflər anlaşılmazlıqların qarşısını almaq üçün bir çox praqmatik elementləri bilmək tələb olunur.

T.Hofman praqmatik səriştəni "*şüurlu şəkildə dili təhlil etmək bacarığı*" kimi qəbul edir [40, s. 201]. Praqmatik bacarıq ünsiyyətin meydana gəldiyi sosial və mədəni şəraitə uyğun və doğru olan sözləri dərk etmək və istifadə etmək qabiliyyətini ifadə edir. Biz burada qayıdış əvəzlikləri üzərində dayanıb onların düzgün şəkildə seçilməsi və istifadə edilməsi məsələlərini aydınlaşdıracağıq.

Qayıdış əvəzlikləri və praqmatikanın gündəlik nitqimizdə, ingilis dilinin tədrisində və öyrənilməsində intensiv şəkildə qarşımıza çıxması mövzunun aktuallığını göstərir, bu sahə üzrə araşdırmaların az olması isə onun yeniliyini təsdiq edir.

**Tədqiqat mövzusunun məqsədi və vəzifələri.** İkinci dildə danışarkən praqmatik amillərin refleksivlərin (qayıdış əvəzlikləri) şərhedilməsinə necə təsir etdiyini araşdıran çox az sayda tədqiqat aparılmışdır. Ona görə də tədqiqat mövzusunun məqsədi olaraq kontekst kimi praqmatik amillərin qayıdış əvəzlikləri üçün antesedentlərin seçilməsinə təsirinin araşdırılması müəyyənləşdirilmişdir.

Müəyyən olunmuş məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- Fəlsəfi praqmatikanın meydana gəlməsi, fəlsəfi praqmatikadan linqvstik praqmatikaya keçid və hər ikisinin tədqiqat sahələrinin öyrənilməsi;
- Əvəzliklərin praqmatikadakı rolunun araşdırılması;
- Praqmatikanın əsasını təşkil edən kontekst və kontekst modelləri

nəzəriyyəsinin öyrənilməsi;

- Müxtəlif kommunikativ situasiyalar və onların praqmatikada əhəmiyyətinin öyrənilməsi;
- Qayıdış əvəzliklərinin müxtəlif sosial situasiyalarda istifadə edilməsinin araşdırılması;
- Qayıdış əvəzliklərinin praqmatik yöndən təhlil edilməsi.

**Tədqiqat işinin obyekti və predmeti.** Dissertasiya işinin tədqiqat obyekti qayıdış əvəzlikləridir. Qayıdış əvəzlikləri şəkilçi vasitəsi ilə, yəni *-**self, -selves*** morfemini birinci və ikinci şəxs tək və cəm yiyəlik əvəzliklərinin, üçüncü şəxs tək və cəm obyekt hal şəxs əvəzliklərinin sonuna artırmaqla düzəldilir, məsələn: *myself, yourself, ourselves, yourselves, himself, herself, itself, themselves*. Bunlar Azərbaycan dilinə aşağıdakı kimi tərcümə edilirlər: *myself-özüm, yourself-özün,ourselves-özümüz, yourselves-özünüz, himself-özü(kişi cinsi), herself-özü (qadın cinsi), itself –özü (cansız), themselves –özləri.*

Tədqiqat işinin predmeti isə əvəzliklərin praqmatik təhlilidir. Praqmatika kontekstdən asılı olaraq dəyişən mənanı öyrənir.

**Tədqiqat metodları və mənbələri.** Tədqiqat işində aşağıdakı metodlardan istifadə edilmişdir: kontekstual təhlil, diskursiv təhlil, müşahidə və korpus data metodu.

Korpus data metodunda müəyyən yazılı və ya şifahi mətnlər götürülür və onlar üzərində araşdırma aparılır. Korpus data metodu digərlərindən fərqli olaraq kəmiyyət xarakterlidir və onun seçilmə səbəbi şəxs və qayıdış əvəzliklərinin bir-birini əvəzləmə intensivliyini öyrənməkdir.

Material olaraq internetdən, xüsusilə də yutub səhifəsindən ingilis dilində olan müxtəlif məzmunlu video lentlər götürülüb, gündəlik nitqdə istifadə olunan qayıdış əvəzlikləri təhlil edilmişdir. Çünki praqmatika şifahi ünsiyyət zamanı ortaya çıxan mənanı araşdırır və buna görə də nümunə olaraq müxtəlif kontekstlərdə icra olunan nitqlərdən istifadə etməliyik, mümkün olan yerlərdə bədii ədəbiyyat nümunələrindən də istifadə edilmişdir. Bədii ədəbiyyat olaraq C.Ostinin "*Sense and sensibility*" (1811) və "*Pride and prejudice*" (1813) əsərlərinə müraciət edilmişdir.

Həmçinin mövzu üzrə çap olunmuş məqalələr, yazılmış kitab və dissertasiyalardan qaynaq olaraq istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi**. Dissertasiyanın elmi yeniliyi qayıdış əvəzliklərinin ifadə etdiyi mənanın semantik deyil, praqmatik nöqteyi-nəzərdən təhlil edilməsi, məna dəyişikliklərində kontekstin rolunun araşdırılması, kontekstin dəyişməsi ilə mənanın dəyişməsinin sistemli şəkildə praktik formada araşdırılmasıdır. Praqmatika dilçiliyin yeni bir sahəsi olduğu üçün tam ətraflı tədqiq edilməmiş və Azərbaycanda da bu sahə üzrə edilən araşdırmaların sayı məhduddur. Qayıdış əvəzliklərinin praqmatik yöndən araşdırılması isə Azərbaycanda ilkin təşəbbüslərdən hesab edilə bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Praqmatika insanların sosial situasiyalarda dildən istifadə və şərh etmə yollarını araşdırır. Praqmatika insanların nə dediklərinə diqqət yetirmir, lakin fikrin necə deyildiyini və digərləri tərəfindən necə şərh edildiyini araşdırır. Əvəzliklərin praqmatik təhlili deyəndə isə onların referenti olaraq kimin və yaxud nəyin nəzərdə tutulmasının araşdırılması başa düşülür. Fərqli cümlələrdə işlənən eyni əvəzlik müxtəlif referentləri ifadə etmək bacarığına malikdir. Əvəzliklər arasında qayıdış əvəzliyinin seçilməsi isə bu sahə üzrə araşdırmaların məhdud olması ilə əlaqədardır. Qayıdış əvəzlikləri sintaktik, semantik və praqmatik xüsusiyyətlərə malikdir. Həmçinin qayıdış əvəzlikləri minimum səviyyədə birgə indeksləşdirilmiş, təyinedici ismi ifadələr ilə idarə oluna bilər.

İngilis dili kimi sintetik dillərdə əvəzliklərin necə bölündüyünü göstərmək üçün söhbət eyhamlarının neo-Qrays praqmatik nəzəriyyəsindən istifadə etmək daha məqsədyönlü olar. Bunun üçün problemli refleksivlərin istifadə olunduğu cümlələr praqmatik yanaşma ilə yenidən nəzərdən keçirilməlidir.

Tədqiqatın praktik əhəmiyyəti ondan ibarətdir ki, araşdırma nəticələri praqmatika, kontekst və diskursla əlaqəli dərslərdə, seminarlarda qaynaq olaraq istifadə edilə bilər.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Fəlsəfi praqmatizm sözlərin vasitə olduğunu dərk etməyə başlayan düşüncə məktəbidir. Məna və həqiqət axtarışında olması və P.Qraysın təbii və qeyri-təbii

məna anlayışlarını ortaya çıxarması onu linqvstik praqmatika adlanan yeni bir istiqamətə yönəltdi. Linqvstik praqmatika sözlərin mənası olaraq onların birbaşa ifadə etdikləri mənanı deyil, əksinə insanların dolayı yolla təsvir etmək istədikləri mənanı əsas götürür. Linqvstik praqmatika dilçiliyin bir sahəsi olduğuna görə qismən empirik ölçülərə malikdir.

2. Semantika cümlələrin leksik mənalarından və birləşmə şəklindən asılı olaraq həqiqət şərtlərinin cümlələrlə sistemli şəkildə əlaqələndirilməsini öyrənir. Bunun əksinə olaraq, praqmatika danışanın və dinləyicinin psixoloji vəziyyətinin və digər kontekstual xüsusiyyətlərin semantik mənaya necə təsir etdiyini tədqiq edir.

3. Əvəzliklərin mətn daxilində mövcudluğu mətnin yarandığı sosial situasiyada nominal varlıq kimi nəzərdə tutulur. Bir tərəfdən, onlar tam leksik nominallarla eyni xüsusiyyətləri ifadə edə bilirlər, digər tərəfdən, müqayisə edilə bilən təsviri məzmuna sahib deyillər. Buna görə də əvəzliyin şərhi diskursda nominal elementlərin müəyyən edilməsindən asılıdır.

4. Kontekst modelləri dil istifadəçilərinin diskurslarını mövcud sosial və kommunikativ situasiyaya necə uyğunlaşdırdığını izah edib uyğunluq anlayışını müəyyənləşdirir. Buna görə də kontekst modelləri praqmatik nəzəriyyənin əsasını təşkil edir və praqmatik modellər də adlana bilərlər.

5. Qayıdış əvəzlikləri fərqli işlənmə yerlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar: ixtiyari qayıdışlar, gözlənilməyən şəxs əvəzlikləri, ayrılmayan qayıdış feilləri, intensivlər, zərflik kimi işlənən qayıdış əvəzlikləri, sərbəst self formaları.

6. Quruluş (məkan, zaman), Şərait, İştirakçı və Hərəkət kimi model sxemlərin kateqoriyaları kommunikativ situasiya və ya kontekst quruluşlarının əqli əvəzedicisini müəyyən edir.

7. Anaforanın praqmatik nəzəriyyəsinin tədqiqat sahəsinə dil istifadəçilərinin refleksiv və digər əvəzlikləri anaforik ifadələrlə istifadə və şərh etmək üçün nələr etməli olduqları daxildir və bu nəzəriyyə ciddi şəkildə insanların sahib olduğu dil biliklərinə qarşı praktik məlumatların rolunu müəyyən edir. İngilis dilində qayıdış anaforalarını təhlil etmək üçün ən yaxşı vasitə neo-Qrays praqmatik nəzəriyyəsidir.

**Aprobasiyası və tətbiqi**. Dissertasiyanın mövzusu Dünya dilləri üzrə Elmi şuranın 20 noyabr 2020-ci il tarixli iclasında "İngilis dilində qayıdış əvəzliklərinin praqmatikası" adı ilə qeydə alınmış və 25 fevral 2021-ci ildə Naxçıvan Dövlət Universitetinin Elmi şurasında təsdiq olunmuşdur.

Dissertasiyanın əsas müddəaları elmi konfranslarda məruzə edilmiş, Azərbaycanda və xaricdə nəşr edilən məcmuələrdə çap olunmuşdur. Dissertasiya işi ilə əlaqədar xaricdə iki məqalə və bir konfrans materialı daxil olmaqla ümumilikdə 13 məqaləsi dərc olunub.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Tədqiqat işi Naxçıvan Dövlət Universitetinin "Roman-german dilləri" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat, ixtisar və işarələr siyahılarından ibarətdir. Giriş 7 səhifə, 1-ci fəsil 36 səhifə, 2-ci fəsil 73 səhifə, nəticə 4 səhifə, ədəbiyyat siyahısı isə 9 səhifə, ixtisar və işarələr isə 1 səhifədir. Dissertasiya işi ümumilikdə 133 səhifə, 219 751 işarədən ibarətdir.

# I FƏSİL. LİNQVİSTİK PRAQMATİKANIN QISA TƏSVİRİ

## 1.1.Fəlsəfi praqmatikadan linqvstik praqmatikaya keçid

Amerikan ideologiyasının fəlsəfəyə fərqli bir töhfəsi olan praqmatizm cərəyanı 20-ci əsrin əvvəlində ortaya çıxmağa başlamış, sonra tənəzzül etmiş, amma əsrin sonlarında yenidən diqqət çəkməyə başlamışdır. Praqmatika dilçiliyin yeni yaranan bir sahəsi olsa da, tarixi çox qədimə gedib çıxır. Pragmaticu*s* latın sözü olub qədim Yunanistan və Romada işlənmiş və o vaxt "praktik olmaq" mənasını verirmiş.

Praqmatika ilkin mərhələdə fəlsəfədən törəsə də, sonra dilçiliyin bir sahəsi olaraq formalaşmağa başlamış və inkişaf etmişdir. Ona görə hələ də ikisi arasındakı hüdud tam müəyyən edilməmiş və bir-biri ilə qarşılıqlı əlaqədədirlər. Əslində fəlsəfi və linqvstik praqmatikanın sərhədlərini müəyyənləşdirməyi çətinləşdirən əsas amillərdən biri onun səhv başa düşülməsidir.

Qeyd etdiyimiz kimi praqmatizm ilkin olaraq fəlsəfi bir cərəyan olaraq formalaşmağa başlamış və Ç.Pirs tərəfindən elmə gətirilmiş, U.Ceyms və daha iki alim C.Due, G.H.Mid sayəsində məşhurlaşmışdır [86, 88, 73]. Fəlsəfi cərəyan olaraq praqmatikanın mahiyyətini belə ifadə edə bilərik, "*o inamlar, müddəalar, nəzəriyyələr, düşüncələr doğru hesab olunub və nəticədə diqqət mərkəzinə alınmalıdır ki, insan üçün əməli müstəvidə faydalı, xeyirli, təsirli, işlək olsun. Əgər belə deyilsə, onda o inam, müddəa, nəzəriyyə, düşüncə yalnış hesab olunaraq kənara atılmalıdır*".

Sonra praqmatizm 1878-ci ildə Ç.Pirs tərəfindən aşağıdakı kimi izah edilmişdir: "*Biz praktik dayağı olan hərəkətləri nəzərdən keçirəndə, anlayışımızın sahib olduğu təsir ilə fikirləşirik. Onda bizim bu təsir anlayışımız məqsəd anlayışımızın bütövüdür.*" [86, s. 15]

Daha sonra bu sahə üzrə dəyərli fikirlər irəli sürən şəxs U.Ceyms olmuş, onun "Praqmatizm" adlı kitabında 1898-ci ildən bəri bu fənn üzrə verdiyi mühazirələr toplanmışdır. Bu kitabın nəşrindən sonra praqmatizmə qarşı böyük maraq oyanmış, həmçinin də fəlsəfənin nə məna ifadə etdiyi ilə bağlı çoxlu mübahisələr də

yaratmışdır. Əslində əksər tənqidçilər U.Ceymsi praqmatizmin nümayəndəsi hesab etsə də, Ç.Pirs iddia edirdi ki, U.Ceyms onu səhv izah etmişdir. Həmin iddiaya görə, U.Ceyms konseptin mənası olaraq ehtimal olunanı deyil, əsl mənanı əsas götürmüşdür [86].

Elə yarandığı ilkin dövrlərdən praqmatika üzrə mövzular mübahisəli idi. G.Simel, E.Durkaym və M.Horxaymır kimi bir sıra avropalı tənqidçilər praqmatizmi amerikan mentalitetinin bir nümunəsi olaraq qəbul edirdilər [103, 21, 41]. Onlara görə, amerikan mentaliteti həqiqətləri məqsədəuyğun şəkildə dəyişdirir. Buna görə də o dövrdə fəlsəfəni praqmatika sözünün gündəlik mənası ilə qərəzli şəkildə qarışdırırdılar. Məhz buna görə Ç.Pirs İ.Kanta istinad edərək öz yazılarında "praqmatik" sözünü "praktik" sözündən ayırmağa xüsusilə diqqət edirdi [86, 54].

Digər tərəfdən U.Ceyms fərdi insanları müşahidə etməyi sevirdi. O, düşünürdü ki, insanlar üçün fikirlərin meyarını praktik hadisələr göstərir. U.Ceyms bu fikri praqmatizmdə bu şəkildə irəli sürürdü: "*Fəlsəfənin bütöv funksiyası sənin və mənim üçün nə fərq yaradacağı məsələsinə yönəlməlidir,o tapmalıdır ki, bizim həyatımızda hansı dünyəvi düstur düzgündür*" [50, s. 233]. Fəlsəfə U.Ceyms tərəfindən praktik həyatın bir qolu kimi qəbul edilirdi, amma Ç.Pirs üçün praqmatizm məntiqin normativ konsepsiyası daxilində fikirlərin aydın və düzgünlüyünə nail olmaq üçün bir metod idi. Ç.Pirsin fikrinə görə məntiqi məna həyatın müəyyən anlarında rast gəlinən bir şey deyil, həqiqət ictimaiyyətin formalaşdırdığı rəydir [87].

Hələ 1868-ci ildə Ç.Pirs 29 yaşında olanda çap etdirdiyi yazılarda praqmatizm haqqında artıq ilkin fikirlər irəli sürmüşdü. "Dörd bacarıqsızlığın müəyyən nəticələri" və "Kartezianizmin dörd inkarı" adlı yazılarında o, müasir fəlsəfənin kartezian təməllərini dağıtdı [86]. R.Dekartın elmi biliyin mərkəzinə yerləşdirmək cəhdinə qarşı [16], Ç.Pirs iddia edirdi ki, bizim intuisiya və ya daxili mühakimə gücümüz yoxdur. O, bu terminləri məntiqi mənada işlədirdi və deyirdi ki, qavrama işarələri şərh etməklə yaranan nəticədir, həmçinin elmi həqiqətlər şübhəsiz möhkəm təməllərdən törəmirlər. Ç.Pirs səhv çıxa biləcək bilik üçün qeyri-müəyyən gələcəyi sorğulamağı təklif edirdi.

Ç.Pirsin praqmatikası onun semiotik konsepsiyaları daxilində başa

düşülməlidir. Çünki Ç.Pirs digər praqmatistlərdən fərqli olaraq nəzəriyyəni praktikadan kənar tuturdu. Amma bu böyük alimin fikirlərinə görə elm cəmiyyət və ya fərdi şəxslərin həyatlarını yönləndirəcək qədər zəruri deyil. Onun fikrincə praktik qərarlar inama və daxili hisslərə əsaslanmalıdır. Bu da U.Ceymsin fikirlərindən tamamilə fərqli idi. Eyni zamanda o, bildirirdi ki, nəzəri həyat yanlış rəylərə əsaslana bilər və suallarla dolu bir cəmiyyətdə hər zaman bunu düzəltmək üçün imkanlar vardır.

Onların fikirlərinə nəzər saldıqda görürük ki, "Düşünülən" sözü Ç.Pirs və U.Ceyms praqmatikaları arasındakı əsas fərqdir [87, 49]. Ç.Pirs deyirdi ki, U.Ceyms praqmatik sözünün fəlsəfi mənada gündəlik işlənən praktik sözündən fərqli olduğunu başa düşməmişdir. Bu gün pratiki mənada işə yarayan bir şey, sabah lazımsız ola bilər, çünki düşünülən nəticə hələ həyata keçməmişdir. "Dur" (Stop) işarəsinin praqmatik mənası odur ki, o, ümumiyyətlə, nəticəni müəyyən edir, sadəcə maşınların durmasını göstərmir. Həmçinin duran maşınlar düşünülən nəticədir. Bu səbəbə görə Ç.Pirs öz praqmatik izahını U.Ceyms və başqalarının izahlarından fərqləndirirdi. O, öz orjinal versiyasını praqmatizm adlandırır və əlavə olaraq qeyd edirdi ki, "*oğrulardan qorumaq üçün kifayət qədər çirkindir*"[86, s. 10].

Daha sonralar bu sahə üzrə araşdırmalar dərinləşdi. Ç.Moris tərəfindən "*İşarələr nəzəriyyəsinin əsasları"* əsərində semiotikanın və şifahi ünsiyyətin praqmatik şərhi verildi. Ç.Morisin fikrinə görə, praqmatika danışanın ötürdüyü işarələrin əlaqələrini öyrənir [81, s. 89].

P.Qrays isə mənanın iki növünü fərqləndirməklə praqmatikaya öz töhfəsini vermişdir: təbii məna və qeyri-təbii məna. O, təklif edirdi ki, praqmatika mənanın daha praktik sahəsini, yəni söhbət zamanı ortaya çıxan mənanı öyrənməlidir [30, s. 45]. P.Qraysın fikirləri və irəli sürdüyü prinsiplər daha sonra praqmatikanın təməl daşlarına çevrilmiş və onun əsasını təşkil etmişdir.

1970-ci illərdə fəlsəfi bir cərəyan kimi yaranan praqmatika artıq dilçiliyin sahələrindən biridir və o, insanların müəyyən bir situasiyada komunikativ və ya nitq aktını necə yaratdıqlarını və dərk etdiklərini öyrənir. Hər bir şifahi ünsiyyət kommunikativ aktda iki məqsəd və ya mənanı bir-birlərindən fərqləndirir. Bunlardan

biri informativ məqsəd və ya cümlə mənası, digəri isə kommunikativ məqsəd və ya danışanın başa düşdüyü məna. Kommunikativ aktı həyata keçirmək və ya başa düşmək praqmatik qabiliyyətə aid edilir. Praqmatik qabiliyyət dedikdə ünsiyyət quran insanların sosial statusu, mədəni biliyi, açıq və ya gizli görünən dilçilik savadı nəzərdə tutulur.

Praqmatikanın öyrəndiyi dil aspektlərinə aşağıdakılar daxildir:

Əvəzlik: bir şeyə işarə edən məna.

Fərziyyə: cümlənin ifadə etdiyi məntiqi məna.

İcraedicilər: danışarkən icra olunan hərəkətlər.

Məna: fikrin gizli və ya dolayı mənası.

Artıq praqmatika mənanın kontekstdən asılı aspektlərini öyrənən elmə deyilir. Mənanın kontekstdən asılı olan aspektlərinə deyiksis, nitq aktları, fərziyyə, istinadetmə və informasiya strukturu daxildir.

Fəlsəfə özü mənanın müxtəlif konsepsiyalarını müəyyən edib. Bunlar indi praqmatikanın da tədqiqat sahələrinə daxil edilmişdir. Praqmatizm cərəyanı digər fəlsəfi cərəyanlar kimi təkcə nəzəriyyə müstəvisinə ilişib qalmır, əksinə, bütün güc-qüvvəsi ilə nəzəriyyənin tətbiqi tərəflərini üzə çıxarmağa çalışır. Praqmatika nəzəriyyəyə nəzəriyyə olduğunu üçün deyil, əməli tətbiqlərinə görə qiymət verib, onu doğru və ya yalnış olaraq xarakterizə edir. Çünki praqmatikanın məqsədlərindən biri də insanların kommunikativ fəaliyyətidir. Məna nə olursa olsun, praqmatika onun mövcudluğunu ehtimal edir və izahlarından hər hansı birini şərtsiz və dəqiq qəbul edir. Mənanı müəyyən etmək semantikanın da sahəsinə daxildir, sadəcə yanaşma tərzləri və müstəviləri fərqlidir.

Dilin istifadəsinə yanaşma tərzinə görə praqmatikanın müxtəlif bölmələri vardır. Bunlardan ikisi geniş tədqiq edilmiş, biri isə yeni yaranmışdır: linqvo-fəlsəfi praqmatika (Anqlo-Amerikan praqmatika), qarşılıqlı sosial-mədəni təsir praqmatikası və mədəniyyətlərarası praqmatika.

Linqvo-fəlsəfi praqmatika dilin istifadəsi zamanı ortaya çıxan linqvstik hadisələri əsas götürərək danışanın nitqindəki mənanı araşdırır. Qarşılıqlı sosial-mədəni təsir praqmatikası ünsiyyət zamanı ortaya çıxan sosial və mədəni fərqləri öz

tədqiqat sahəsinə daxil etmişdir. Fəlsəfə meyilli praqmatika və müxtəlif mədəniyyətlər arasında ünsiyyət üzrə aparılan tədqiqatlar arasındakı əlaqə mədəniyyətlərarası praqmatikanın inkişafına şərait yaratmışdır. Onun tədqiqat sahəsinə dünya üzərində istifadə edilən dillər, həmçinin ünsiyyətin funksiyası və rolları daxildir. Mədəniyyətlərarası praqmatika mədəniyyətlərarası əlaqənin xarakteristikasına xüsusi fikir verir və bu iki ənənəvi yanaşmanı birləşdirərək vahid izah sistemi yaratmağa çalışır.

Linqvo-fəlsəfi praqmatika**.** Linqvo-fəlsəfi praqmatika dilşünaslıq tədqiqatlarının bir sahəsi kimi praqmatika ilk dəfə Ç.Moris və R.Karnap tərəfindən 1930-cu illərdə irəli sürülmüşdür [80, 9,]. Daha sonra praqmatika məntiqi formadan kənar mənanın kontekstdən asılı aspektlərini öyrənməyə başlamışdır.

Praqmatikanın inkişafında atılmış ən əlamətdar addım 1967-ci ildə Ç.Pirsin U.Ceymsin mühazirələrini üzə çıxarması olmuşdu. Praqmatikanın inkişafında dönüm nöqtəsi isə P.Qraysın verdiyi prinsip izahı və danışığın əlaqəli dörd düsturudur [50, 28].

Əslində real mənada praqmatikanın əsasını təşkil edən prinsiplərin tarixi qədim dövrün natiqlərinə qədər gedib çıxır. 4-cü əsrin natiqləri A.Donatus və M.Servius P.Qraysın məşhur "nə deyilir" və "nə nəzərdə tutulur" fikirləri arasındakı fərqləri təmsil edirdilər. Qraysın söhbət prinsipləri ilkin olaraq həmin natiqlər tərəfindən tətbiq olunmuşdur. H.Dionisin "On the Arragement of The Words*"* əsərində təbii prinsip olaraq qeyd edilir ki, "*söz sırasında zamanda erkən baş vermiş hadisələr sonra baş vermiş hadisələrdən əvvəl qeyd olunur*" [46]. P.Qrays da "İntizamlı Ol" prinsipi ilə "They got married and had a child" (Onlar ailə qurdu və uşaqları oldu*),* "They had a child and got married" (Onların uşaqları oldu və ailə qurdular*)* cümlələrinə istinad edərək yaranan fikir fərqlərini izah etməyə çalışmışdır. M.Kvintilianın qaydası olaraq qeyd olunan "*nə kontekstin tələb etdiyindən çox danış, nə də az*" fikri də P.Qraysın kəmiyyət prinsipi ilə əlaqəlidir [90]. Həmin prinsipə əsasən P.Qrays qeyd edir ki, "*nə tələb ediləndən çox məlumat ver, nə də az*" [28, s. 50].

Qrays modelində danışanın demədiyi, amma fərqli situasiya olsaydı,

səsləndirəcəyi ehtimal edilən fikirlər də göstərilir. Baxmayaraq ki, P.Qraysın üzə çıxardığı U.Ceymsin mühazirələri göstərir ki, bu fikir artıq bir əsr əvvəl deyilmişdi. Onun əsas fikirlərini C.S.Milin U.Hamiltonun ***some*** əvəzliyini məntiqi cəhətdən ***some only, some but not all*** sözləri ilə eyniləşdirməyinə qarşı olaraq yazdığı qeydlərində də görmək mümkündür [50, 77, 104].

C.S.Milin qeyd etdiyi fikirlər öz dövrünün nümayəndələri tərəfindən dəfələrlə səsləndirilmişdir. O belə söyləmişdir: "*Biz bütöv bir sinifdən bəhs ediriksə,* ***all*** *sözündən istifadə etməliyik, əgər* ***some*** *əvəzliyindən istifadə etsək, buradan o məna çıxır ki, biz bötöv sinfi deyil, onun xüsusi bir hissəsini nəzərdə tuturuq*" [77, s. 219].Onun qeyd etdiyi prinsipə görə danışanın daha zəif təsir bağışlayan ***some*** əvəzliyini deyil, əvəzləmək mümkün olan yerlərdə ondan daha güclü təsir yaradan ***all*** əvəzliyindən istifadə etməli və dinləyən bundan müvafiq nəticə çıxarmalıdır.

Məsələn, O, bir azını bilir və ya O, hamısını bilmir.

C.S.Mil yaratdığı bu prinsip P.F.Strouson tərəfindən "Linqvstik davranışın ümumi qaydası" adı altında daha da təkmilləşdirilmişdir. O, P.Qraysa istinadən demişdir: "*Daha böyük iddia irəli sürmək mümkündürsə, onun azı ilə kifayətlənməməliyik*" [105, s.100]. P.Qraysın töhfəsi ünsiyyət zamanı ortaya çıxan mənanın təsirini əsaslandırmasıdır. C.S.Milin irəli sürdüyü fikirlər isə prinsiplərin istifadə olunması və danışanın ifadə etdiyi mənanın şərhi çərçivəsində həmsöhbətlərin qarşılıqlı məqsədinə əsaslanır. Sonrakı əsəri bu şərhin genişləndirilməsinə yönəlmiş və orada leksik əlaqələr, məna dəyişiklikləri, "nə deyilir" fikrinin xüsusiyyətləri və semantikanın rolu araşdırılmışdır.

Son dövrlər məna mexanizminin öyrənilməsinə çoxlu əsərlər həsr edilmişdir. Həmin əsərlərdə mənanın necə işlənməsi və bunların praqmatika nəzəriyyəsi ilə əlaqəsi tədqiq olunmuşdur. Digər tərəfdən isə mənanın yaradılmasında və başadüşülməsində danışanın və dinləyənin bir-birinə qarşılıqlı təsiri Oyun nəzəriyyəsi və iki istiqamətli optimallıq nəzəriyyəsi vasitəsi ilə təhlil edilmişdir.

S.Levinson, K.Bax, L.Horn və T.Reynhart kimi alimlər də əsərləri ilə Qrays praqmatikasını daha da genişləndirərək zənginləşdiriblər [70, 5, 42, 91]. Onlar tərəfindən Relevantlıq nəzəriyyəsi üzrə aparılan araşdırmalarda praqmatika idrak və

ünsiyyət perspektivindən yanaşılaraq nəzərdən keçirilmişdir. Onlar tədqiqat obyektini daha çox danışanın ifadə etdiyi məna və fikrin izahına yönəltmişdilər. Bu cəhətdən relevantlıq nəzəriyyəsinin prizması kinayə, metafora və s. kimi bir çox praqmatik məsələni işıqlandırmağa kömək edir. Digər relevantlıq nəzəriyyəçiləri isə Qrays modelinin dörd düsturu, S.Levinsonun üç evristik, yaxud L.Hornun iki prinsipi əvəzinə birinin kifayət edəcəyi məsələsində daim mübahisə edirlər. Relevantlığın Kommunikativ Prinsipi isə kontekst daxilində yaranan koqnitiv təsir və edilən cəhd arasındakı əlaqəyə əsaslanır. Relevantlıq nəzəriyyəçiləri linqvstik məna ilə söhbət məzmununun qeyri-müəyyənliyini vurğulamaqla yeni Qrays yanaşması ilə razılaşır, həmçinin məntiqi məzmunun (what is said-nə deyilir*)* daha geniş izahını verirlər. Onlar praqmatik cəhətdən öhdəsindən gəlmək mümkün olmayan mürəkkəb mövzuları klasik mənalara birləşdirməyə cəhd edirlər.

Praqmatikanın əsas tədqiqat sahələrindən biri də kontekstdir. Kontekst hadisəni əhatə edən və müvafiq şərh üçün mənbələr təqdim edən bir çərçivədir. O dil nəzəriyyəsinin əsas anlayışlarından biridir. Əksər alimlər kontekst anlayışının yalnız praqmatika üçün deyil, ümumilikdə dilçilik üçün əsas olduğunu qəbul etsələr də, hələ də əsaslı kontekst nəzəriyyələri yaradılmamışdır.

Kontekst nədir? Sadə şəkildə izah etsək, kontekst bir şeyin mövcud olduğu və ya baş verdiyi şəraitdir. Linqvistik olaraq, o hər hansı bir dil vahidini əhatə edən və onun şərhini təyin etməyə kömək edən diskursun bir hissəsidir. Buna görə də mənanın öyrənilməsində kontekst böyük əhəmiyyətə malikdir.

Məna aspektlərinin kontekstdən asılı olan sahələrinə əvəzliklər, nitq aktları, fərziyyə, istinad, və məlumat strukturu daxildir. Ona görə praqmatika kontekst və linqvstik aktları əhatə edən bir araşdırma sahəsidir.

Nitq aktı nəzəriyyəsi də praqmatikanın əsas tədqiq olunan sahələrindən biri hesab olunur. Nitq aktlarının müəyyənləşdirilməsi və şərhi L.Vitqensteyn, C.Ostin və C.Sirl tərəfindən həyata keçirilmişdir [106, 4, 101]. Onların gəldiyi nəticəyə əsasən fikrin nəzəri məzmunu danışanın məqsədindən asılı olaraq fərqləndirilməlidir. "I promise to marry with you*"* (mən səninlə ailə qurmağa söz verirəm) şəklindəki açıq ifadə olunan fikirdə danışan eyni zamanda nəsə hərəkət icra edir, yəni məqsədi

tərəfindən təyin olunan bir hərəkət həyata keçirir, sadəcə bir fikir səsləndirmir. C.Ostinin fikrincə mənanın həqiqətə əsaslanan nəzəriyyəsi üçün bu cür hərəkətlər problem yaradır. Onlar adi həqiqət dəyərlərindən məhrum edilirlər [4]. "I am here now" (Mən indi burdayam) cümləsindəki kimi hərəkətlər ifadə olunduqları zaman fikirlər buna uyğun olaraq özlərini təsdiq edirlər. Yəni şifahi nitqdə hərəkət ilə ifadə edilən fikir üst-üstə düşərək bir-birini təsdiq edirlər. Xüsusi linqvstik əhəmiyyət kəsb edənlər isə dolayı nitq aktlarıdır. "Duzu mənə uzada bilərsən?" cümləsindəki kimi ***Yes-no*** (bəli-xeyir) cavabı tələb edən cümlələrdə standart olaraq çatdırılan bir tələb var və tələb fərziyyə ehtimalını aradan qaldırır.

Fikirlər kimi fərziyyələr də praqmatikanın tərkibində məntiqi əsası olmayan nəticəni təmsil edirlər. Çünki semantik və ya məntiqi fərziyyələr fikrin doğruluğu və ya səhvliyi üzrə zəruri şərt meydana çıxarır. Praqmatik fərziyyə məhdudiyyət yaradır. Onun zəif nöqtəsi və ya çatışmayan cəhəti həqiqətə əsaslanan fikirlərin ziddiyəti və ya iki-mənalılıq deyil, verilən kontekstdə ifadə edilən fikrin qeyri-müvafiqliyidir.

Nitq aktları və fərziyyələr məntiqi səviyyədə, istinad isə fraza səviyyəsində fəaliyyət göstərir. İstinad zamanı danışan qarşıdakı insana əsasən diskursun əqli modeli üzrə fikirlər söyləyir və onu inandırmağa çalışır, bunun üçün də linqvstik ifadələrdən istifadə edir. Fəlsəfədə digər bir ənənəvi yanaşmaya görə isə istinad ifadə edilən real dünya hadisələri və linvstik ifadələr arasında birbaşa semantik əlaqə yaradır. Dilçilik üzrə araşdırma aparan tədiqatçılar danışanın və dinləyənin qarşılıqlı inanclarına əsaslanan bu əlaqəni izah etməyə çalışırlar. Bu fikrə əsasən istinad edilən ifadənin forması danışanın məlumat bazası ilə əlaqəlidir. Belə çıxır ki, o danışanın dinləyənin məlumat bazasına eləcə də, verilən kontekstdə iştirak edən opponentə uyğun olaraq irəli sürdüyü ehtimallardan asılıdır.

Hər bir dil istifadəçilərini istinadın müxtəlif yolları ilə təmin edir. İstinadın praqmatikası üçün iki sual meydana çıxır: a) müəyyən bir dilin istifadəçilərinə yaradılan istinad yolları hansılardır? b) danışana mövcud olan kontekstə əsasən bu formalardan hansını istifadə etməli olduğunu göstərən amillər nələrdir? Danışanın istinad ifadələri (sıfır forma, əvəzliklər, qeyri-müəyyənlik, müəyyən təsvirlər, xüsusi isimlər) arasından etdiyi seçim diskurs iştirakçılarının məlumat bazasından asılı

olaraq dəyişir. Ç.Pirsin izahına görə isə söhbət yeni diskurs və köhnə diskurs, iştirakçılar isə yeni dinləyici və ya köhnə dinləyici olaraq təsnif olunurlar [87].

İstinad üzrə aparılan araşdırmalardan biri də G.Nunberqə məxsusdur. O, gündəlik nitqdə praqmatikanın əhəmiyyətini vurğulamış və onun öz dilimizdə instiktiv olaraq həyata keçdiyini qeyd etmişdir [83]. Onun praqmatikanın rolunu göstərmək üçün ifadə etdiyi fikri bir nümunə ilə daha sadə izah edəcəyik: “The chicken sandwich at Table 8 wants her check”. Real şəkildə cümlənin ifadə etdiyi fikir “Stol 8-dəki toyuq ətli sendviç hesabını istəyir” şəklindədir. Burada cümlədə içraçı, yəni referent olaraq toyuq ətli sendviç göstərlir. Amma praqmatik cəhətdən bu cümlənin ifadə etdiyi fikir belədir: *8-ci stolda toyuq ətli sendviç sifariş verən müştəri hesabı istəyir*. Praqmatika göstərir ki, bu cümlədəki referent toyuq ətli sendviç deyil, onu sifariş edən müştəridir. Burada “nə deyilir” və “nə başa düşülür” prinsipinə gəlib çıxırıq. Burada danışanın fikri fərqli şəkildə ifadə olunsa da, dinləyici nəyin nəzərdə tutulduğunu başa düşür. Verilən kontekstdə nəzərdə tutulan fikir müəyyəndir.

Məlumat bazasının əsas aspektlərindən biri də müəyyənlik anlayışıdır. Müəyyənlik artiklının mənası üzrə aparılan tədqiqatlar göstərmişdir ki, insanlar o zaman müəyyənlik artıklı işlədir ki, diskurs daxilində referent ya tanışdı, ya da dinləyənin onun haqqında məlumatı vardır. Referentin tanış olduğunu fərz etsək, onda bilinməyən bir şey dinləyici tərəfindən diskurs modelinə uyğunlaşdırılmalıdır. Bu məsələ B.Abbat tərəfindən belə şərh edilib. O, bildirib ki, **a** və **the** artiklları arasındakı əlaqə C.Hovkins tərəfindən təklif olunmuş skalyar mənalardan biridir [1, 38], yəni qeyri-müəyyən artiklından istifadə edən şəxs əslində göstərir ki, müəyyənliyi pozmadan həmin artikldan daha güclü bir vasitədən istifadə edə bilməz. Amma müəyyənliyi fərqli stukturlardan istifadə edərək də yaratmaq mümkündür[1, s. 30].

Sintaksisin diskurs funksiyaları üzrə apardığı tədqiqatlara nəzər salsaq, görərik ki, onlar da bu mövzuda müəyyən müşahidələr aparıblar. Həmin müşahidələr göstərir ki, hər dil öz istifadəçilərini eyni fikri ifadə etmək üçün müəyyən strukturlarla təmin edir. Yəni ifadə edilən fikir müxtəlif tipli cümlələr ilə fərqli təsir və məna yarada bilər. Dildəki hər bir qrammatik konstruksiya diskursda müəyyən funksiya ilə

əlaqədardır. Fikrimizi daha aydın başa düşmək üçün aşağıdakı cümlələri nəzərdən keçirək:

*(1) a) Ali ordered the cake.*

*b) The cake was ordered by Ali.*

*c) The cake, Ali ordered.*

*d) It's Ali who ordered the cake.*

Yuxarıda eyni fikir müxtəlif cümlə quruluşları ilə ifadə olunub. Onların hər biri danışanın fikrini dinləyənə necə çatdırmaq istəməsindən asılı olaraq dəyişir. Məsələn, 1 c cümlə modelində danışan bilinən bir məlumatı çatdırır, yəni cümlə əvvəlki diskursla əlaqəlidir. 1 d cümləsində isə danışan inanır ki, dinləyən kiminsə tort sifariş etdiyini artıq bilir. 1 b cümlə modeli məçhul növ üzərində qurulub və burada diskurs daxilində bilinən məlumat bilinməyəndən əvvəl təqdim edilir. Bu cümlə quruluşları danışanın maksimum dərəcədə öz diskursunu formalaşdırmağa imkan verir. Bu yolla yeni məlumat dinləyənin bilik bazasına daxil edilir.

Mövzu, fikir və diqqət mərkəzi, eyni zamanda verilən yeni məlumatlar diskurs və praqmatika tərəfindən uzun müddətdir ki, araşdırılır. Bu araşdırma Praqa məktəbinin "Funksional cümlə perspektivləri" (1966) adlı tədqiqatlarından bəri davam etdirilir. Bu araşdırmalar zamanı R.Arundeyl həmişə diskursda qrammatik strukturların əhəmiyyətini vurğulamışdır, amma qrammatik strukturlar mövzu ilə birbaşa əlaqəli olmadığı üçün ona toxunmadan növbəti başlığa keçirik [3].

Qarşılıqlı sosial-mədəni təsir praqmatikası**.** Yuxarıda müzakirə olunduğu kimi praqmatik nəzəriyyələr kommunikativ aktların formalaşmasında və icrasında məqsəd, səmərəlilik, əməkdaşlıq, ümumi baza, qarşılıqlı bilik, aktuallıq və öhdəliyin rolunu vurğulayırlar. Praqmatik tədqiqatlar bu amillərin əsas rolunu gözardı etmədən bəzi müasir yanaşmalar ilə mədəniyyətlərdaxili və mədəniyyətlərarası ünsiyyətin dinamikası, onların funksiya, prinsip və qarşılıqlı əlaqələrini daha geniş qaydada təhlil ediblər. Bu yanaşmaların izah etməyə çalışdıqları məsələləri aşağıda qısa olaraq şərh edək:

1) Onların hamısı ünsiyyətin təkcə linqvstik və semantik xüsusiyyətlərini deyil, həmçinin sosial və mədəni tərəflərini də tədqiq etməklə praqmatikanın əhatə

dairəsini genişləndirməyə cəhd edirlər.

2) Onlar ünsiyyətin əsas hərəkətverici qüvvəsi kimi P.Qraysın məqsədlilik prinsipini sorğulayırlar.

3) Onlar Qrays praqmatikasında qeyd edilmiş köhnə diskurs problemini həll etməyə çalışırlar və bunun üçün də yalnız müəyyən kontekst daxilində deyil, ondan kənarda, diskurs seqmentlərində və ya dialoq ardıcıllıqlarında danışanın replikalarını nəzərdən keçirirlər.

Qarşılıqlı sosial-mədəni ünsiyyət praqmatikası müxtəlif mövzuları araşdırır. O linqvstik hadisələrin istifadələrinə əsasən ümumi koqnitiv, sosial və mədəni perspektivlərə malikdir. J.Mey və R. Kreq qeyd edirlər ki, qarşılıqlı sosial-mədəni ünsiyyət praqmatikasının tədqiqat sahəsinə cəmiyyətdən asılı olaraq insanlar arasındakı ünsiyyətdə dilin rolunun öyrənilməsi daxildir [75, 12]. Digər tərəfdən isə M.Hauq iddia edir ki, qarşılıqlı sosial-mədəni ünsiyyət praqmatikasında ünsiyyətin öyrənilməsi təkcə məqsədin bilinməsi və ifadəsi ilə bitmir, praqmatika dilin istifadəsi üzrə sosial və mədəni məhdudiyyətlərin araşdırılmasını da öz tədqiqat sahəsinə daxil etməlidir. O, qeyd edirdi ki, hələ də bütün iradlara baxmayaraq danışanın ifadə etdiyi məna belə tədqiqatların özəyini təşkil edən ünsiyyətin konseptuallaşdırılmasının əsas nöqtəsi olaraq qalmaqdadır, amma bu artıq dəyişməlidir [37, s. 5].

Daha sonra bu sahə üzrə Intercultural Pragmatics adlı xüsusi bir yazı çap olundu, bu yazının çap olunma səbəbi S.Levinsonun P.Qraysın fikirlərini ünsiyyətin idrakında əsas olaraq göstərməsi idi [58]. M.Hauqun düşüncələrinə görə, isə bu hərəkət sadəcə S.Levinsona əks reaksiya olaraq verilmişdi və bu yazının əsas məqsədi praqmatikada fikrin əhatə dairəsi və xarakteristikası haqqındakı müzakirələri stimullaşdırmaq deyil. Amma çap olunan yazının müsbət cəhəti o idi ki, orada nəticəçıxarmaya da yer verilmişdi [37].

Nəticəçıxarma da praqmatikanın tərkibinə daxil olan bölmələrdən biridir. M.Hauq, R.Arundeyl və B.Abbat daim nəticəçıxarmanın müasir modelləri ilə əlaqədar mübahisə ediblər [37, 3, 2]. Həmin mübahisəli məsələ ondan ibarətdir ki, yaranan ünsiyyət zamanı danışanın ifadə etdiyi fikirlər dinləyicidə yaranan nəticə və təxminlərlə üst-üstə düşmürsə, bu söhbət müvəffəqiyyətsizdir ya yox? Buradan belə

bir nəticə çıxır ki, fikrə əsaslanan modellərdə danışan və dinləyənin mövzunu necə müəyyən etdiklərinə aid izahlar yoxdur.

Həqiqətən də qarşılıqlı sosial-mədəni təsir praqmatikası diskursda fikri mənaya uyğun ifadə etməyin çətinliklərini təsdiq edir. Biz söhbət zamanı fikri tapmağa çalışarkən, onların ardıcıl olaraq xarakterizə olunduğunu gördük. Həm danışan, həm də dinləyən nəyin nəzərədə tutulduğunu başa düşmək üçün birlikdə çalışırlar. Fikrimizi göstərmək üçün aşağıda göstərilən nümunədən istifadə edəcəyik. Həmin nümunədə Əlinin əsas məqsədinin Vəliyə səfəri haqqında danışmağa şərait yaratmaq olduğu başa düşülmür.

*Əli – Öz səfərin haqqında danışmaq istəyirsən?*

*Vəli – Bilmirəm. Sualların vardırsa əgər ....*

*Əli – Yaxşı, mənə de görüm .......*

*Vəli – Gözlə, Aytən haqqında bilmək istəyirsən?*

*Əli – Yaxşı, nə olub ki ona?*

*Vəli – O, yaxşıdır. Sadəcə bir az kökəlib.*

Burada Əlinin əsas fikri Vəlinin Aytən haqqındakı söhbəti ilə bölünür, ola bilsin ki, bunun səbəbi Vəli Əlinin qız haqqında (keçmiş sevgilisi olduğuna görə) bilmək istəyəcəyini düşünür. Əslində söhbəti bu istiqamətə yönəldən nəticəçıxarma idi və buna səbəb də qarşılıqlı şəkildə yaradılmış ehtimaldır.

Burada biz danışanın fikrini, tələffüz səviyyəsini və birgə mənanı bir-birlərindən fərqləndirməliyik. Çünki müxtəlif fikirlərin mənanın fərqli növlərinə uyğun gələn funksiyaları vardır.

Mədəniyyətlərarası praqmatika**.** Mədəniyyətlərarası praqmatikanın kökləri SKY-ya (SCA-social cognitive approach), yəni sosial-koqnitiv yanaşmaya gedib çıxır [20]. Bu nəzəriyyə ünsiyyətin xüsusiyyətlərini fikir əsaslı yanaşma ilə birləşdirməyə çalışır. Bu yanaşmada söhbət edən tərəflər sosial-mədəni kollektivdə məna axtarışında olan sosial varlıqlar hesab edilirlər. Fərdi xüsusiyyətlər (əvvəlki təcrübə, xarakter, eqoizm, diqqət) sosial xüsusiyyətlər (o ankı şəraitdən asılı olan təcrübə, uyğunluq, əməkdaşlıq, fikir) ilə qarşılıqlı əlaqəyə girir. Hər bir xüsusiyyət digərinin nəticəsidir.

Əvvəlki təcrübədən xarakter yaranır, o da bəzən eqoizmə aparıb çıxarır. Fikir isə əməkdaşlığa əsaslanan təcrübədir və o, qısmən söhbət anındakı mövzu ilə bağlı sahib olduğumuz bilikdən asılı olan uyğunluğa tabedir. İ.Keskes iddia edir ki, eqoizmin koqnitiv izahı və əməkdaşlığın praqmatik izahı bir-biri ilə əlaqəlidir və hər ikisi ünsiyyətin bütün mərhələlərində gözə çarpır [58, s. 22].

Mədəniyyətlərarası praqmatika mədəniyyətlərarası münasibətləri bir hadisə kimi şərh etməyə çalışır. Bu hadisə ünsiyyət zamanı qarşılıqlı olaraq meydana çıxır, həmçinin həmsöhbətlərin daxil olduğu cəmiyyətləri təmsil edən mədəni norma və modellərə də əsaslanır. Nəticədə mədəniyyətlərarası münasibətlər nisbi olaraq normativ və ardıcıl komponentləri özündə daşıyan daxili qayda-qanunlar toplusu hesab edilə bilərlər.

İ.Keskesə görə, standart praqmatikanın əsasını təşkil edən kommunikativ fərziyyələr danışan və dinləyən arasında ortaq cəhətləri və razılaşmanı təmin edir, ona görə də mədəniyyətdaxili ünsiyyəti mədəniyyətlərarası ünsiyyət ilə eyni formada nəzərdən keçirmək olmaz [58, s. 7]. Ortaq cəhətlər, adət-ənənələr, normalar, ümumi inanclar, paylaşılan məlumatların hamısı söhbət üçün fikir və əməkdaşlığa əsaslanan ümumi bir zəmin yaradır. Ancaq bu ümumi zəmin olmadıqda və yaxud məhdud şəkildə ortaya çıxdıqda, mədəniyyətlərarası ünsiyyətdə söhbət edən tərəflər onları təxmin edə bilmirlər. Buna görə də qısa zaman ərzində ehtimal etməyə çalışırlar. Yəni fərqli mədəniyyətlərdən və ölkələrdən olan insanlar ünsiyyətə girdiyi zaman yaranan söhbət digərlərindən kəskin şəkildə fərqlənir. Bu zaman ünsiyyətə girən tərəflər əsasən praqmatikanın köməyi ilə ünsiyyəti davam etdirirlər. Çünki fərqli mədəniyyətlər, fərqli inanclar, etik qaydaları və dünyagörüşü deməkdir. Bu zaman artıq tərəflər praqmatikanın tədqiqat sahələrinə daxil olan nəticəçıxarma, eyham, ehtimal və s. istifadə edərək ifadə edilən fikri başa düşməyə çalışırlar.

Formal praqmatika**.** 1950-ci illərdə N.Xomski və onun həmkarları dilin mürəkkəbliyini azaltmaq məqsədi ilə fonologiya və sintaksisi bir neçə ümumi prinsipə endirməyə təşəbbüs etdilər[11]. Onlardan bir az əvvəl də C.Sirl və P.Qrays eyni şeyi rasional ünsiyyət üçün tətbiq etməyə çalışdılar [100, 27]. P.Qrays 1967-ci ildə çap etdirdiyi Uilliam Ceyms mühazirələrində söhbətin mahiyyətinə əsaslanaraq

geniş optimallaşdırma sistemi təqdim etdi. Onun məqalaləri intuasiya məsələsinə əsaslanırdı. Baxmayaraq ki, onun yazısı formal deyildi, amma formal praqmatikanın rüşeymlərini atmış oldu.

Praqmatika indi linqvstik məna nəzəriyyəsinin əsasını təşkil edir. S.Levinsona istinad etsək, o demişdir ki, bizim səsləndirdiyimiz cümlələrin kodlanmış məzmunu o fikirlər ilə saxladığımız ünsiyyətin ən sadə sxemidir [71, s. 123]. Fikirlərin şərhi semantik məzmun, söhbət konteksti və ümumi praqmatik qaydalar arasındakı mürəkkəb qarşılıqlı əlaqəni ehtiva edir.

Formal praqmatikanın başlanğıc nöqtəsi müşahidələrdir. Ona əsasən söhbət kontekstləri və cümlə növləri arasında müəyyən qanunauyğunluqlar mövcuddur. Praqmatik nəzəriyyə üçün mühüm çətinliklərdən biri də semantik məzmun və bir-birinə təsir edən fikirlərin konteksti arasındakı əlaqəni müəyyənləşdirməkdir. Buna görə də alimlərin bir çoxu həmfikirdir ki, cümlənin mənası kontekstual məlumat olmadan natamamdır. Bu zaman indeks göstəricilər və işarə əvəzlikləri paradiqma halları yaradır: "I am here now" cümləsi müəyyən məna ifadə etmir. Çünki cümlədə danışanın kim olduğu, nə vaxt və harada danışdığı haqqında məlumat yoxdur. Eynilə, ***must*** kimi (malı, məli) modal feillər geniş şərhlər tələb edir. "Ali must be in his office" cümləsi də sübuta əsaslanan ehtimal irəli sürməklə istifadə edilə bilər.

*I see the light on.*

Cümlə daxili xüsusiyyətlər müəyyən düşüncə yaradır, amma nəzərdə tutulan fikir söhbət konteksti haqqında məlumat olmadan başa düşülə bilməz. Kontekstdən asılılıq dilin hər bir sahəsində var, bu da onu göstərir ki, bütün semantik nəzəriyyələr kontekstləri necə modelləşdirmək haqqında müəyyən fikirlərə əsaslanır.

D.Kaplanın yaratdığı İndeksliyin nəzəriyyəsi kontekstin fikrə necə təsir etdiyini modelləşdirmək üçün effektiv yanaşmadır. D.Kaplana görə, kontekst danışanı, vaxtı, yeri və s. müyyən edən göstəricilər vasitəsilə modelləşdirilir [55, s. 85]. Bu göstəricilər **me** (mənə, məni), **now** (indi) və **here** (bura, buraya, burada) kimi ifadələrin mənalarını birbaşa göstərir. Baxmayaraq ki mənа semantikanın tərkibinə daxildir, amma bəzi fikirlər yalnız müəyyən edilən kontekst daxilində düzgün şəkildə ortaya çıxır.

Burada D.Kaplanın nəzəri yanaşması bizə kontekstin semantik məzmuna necə təsir etdiyini başa düşməyə kömək edir. Onun əsas qaydaları kontekst asılılığı üzrə çoxlu məsələlərin həlli üçün istifadə olunub. Amma bu nəzəriyyə kontekstə yeni məzmun əlavə edilərək dəyişdirilməsini izah edə bilmir. Məna nəzəriyyələri isə kontekst asılılığının bu aspektini də araşdırmağa cəhd edirlər. Dilçilikdə ilkin belə nəzəriyyələr İ.R.Heym, H.Kampa və E.Rilanda məxsusdur. Onlar bu nəzəriyyələri L.Kartunenin fikirlərinə əsaslanaraq yaradıblar [39, 53, 56, 95].

Dinamik semantika nəzəriyyəsinin əsas yeniliyi cümlənin nə məna verdiyini deyil, diskursun informasiya axını vasitəsilə necə təsir etdiyini və edildiyini öyrənməsidir. Məsələn, əgər mən söhbət zamanı anidən "The goat entered" cümləsini yüksək səslə deyirəmsə, kontekstimizə ***d*** referenti ilə yeni diskurs əlavə edirəm və ***d-***yə iki xüsusiyyət aid edirəm: keçi olmağını və peyda olmağını. Beləliklə, mən konteksti dəyişmiş oluram. Əgər mən davam etsəm ki, "It seems hungry", burada **it** şəxs əvəzliyi mənasını bir az əvvəl təqdim etdiyim ***d*** referentindən alır. Dinamik nəzəriyyələr kontekst haqqına sistemli izahlar irəli sürür. Baxmayaraq ki, tarix boyu nəzəriyyələr fərziyyə və diskurs vasitəsilə anaforanı müəyyən etmək üçün yaradılıblar, amma onlar diskursiv informasiyasının çoxlu növlərini də əhatə edirlər.

Yuxarıdakı nəzəriyyə və yanaşmalar cümlənin əsas mənasını başa düşmək üçün praqmatik məlumatlardan istifadə etməyi tələb edir. Bu praqmatikanın elə bir sahəsidir ki, burada əsas diqqət zamana verilir, çünki R.Montaqie, K.Ö.Luizin və H.Kampın araşdırmalarından bəri semantik nəzəriyyənin əsasını təşkil edən məntiq durmadan dəyişir [78, 72, 52]. Amma bu adi mənada praqmatikanın genişlənməsi və zənginləşməsi ilə məşğul olan Qrays nəzəriyyəsi deyil. Məsələn, biz güman etsək ki, "Ali's work is satisfactory" cümləsinin bütöv və düzgün semantikasını başa düşürük, yəni bütün kontekstdən asılılıq problem həll edilib. Yenə də bizim bir nəzəriyyəyə ehtiyacımız var. Çünki başa düşməliyik ki, niyə kontekstə əsasən danışan Əlinin işinin əla olmadığına inanır və biz bundan bir nəticə çıxarmalıyıq. Amma digər nəzəriyyələr bu bəyan əlaqəsiz olduqda nəticəçıxarmaya imkan verir.

C.Qazdar P.Qraysın diqqət yetirdiyi praqmatik zənginləşmənin arxasındakı məntiqi anlamaq üçün təşəbbüs etmiş insanlardan biridir. Bu səbəblə C.Qazdar çoxlu

söhbət eyhamları və ehtimal nəzəriyyələri formalaşdırmışdır. Onun yaratdığı nəzəriyyə P.Qraysın izahlarına əsasən danışanın biliyi haqqında dəqiq müəyyən fərziyyələr irəli sürməyə imkan verir. O, P.Qraysın bütün nümunələrini əhatə edən cümlə/fikir müqayisəsini həyata keçirmişdir. Bu əslində səhv verilən izahları ortaya çıxarmaq üçün edilən bir cəhd idi. Onun qeyd etdiyi bəzi detalların bəlkə də çox əhəmiyyəti yoxdur, amma onun fikirləri ehtimallar və söhbət eyhamları üçün olan müasir yanaşmaların təməlini təşkil edir. Onun nəzəriyyələrinin əhatə dairəsinin çox geniş olması da təqdirəlayiqdir. Biz həmin yanaşmalar və nəzəriyyələrdən əvəzliklərin təhlili zamanı istifadə edəcəyik

Orjinal Qrays nəzəriyyəsinin izahının ən həssas hissəsi skalyar söhbət eyhamlarıdır [29]. Yuxarıda qeyd edilən “Ali’s work is satisfactory” cümləsi alternativ fikirlər üçün eyhamdır. Məsələn, Ali’s work is birləşməsindən sonra burada great və ya excellent kimi müsbət sifətlər işlədilə bilər. Amma o zaman mövcud kontekstdə praqmatik cəhətdən uyğunsuzluq yaranacaqdır. Qazdarın nəzəriyyəsi belə praqmatik nəticələrçıxarmalar üzərində cəmləşmişdi və o vaxtdan bəri də formal praqmatikanın müzakirə obyekti olmuşdur. Onlar dörd əsas səbəbə görə müəyyən maraq kəsb edirlər. Birinci, kontekstin xüsusiyyətlərinə uyğun yaranan nəticəçıxarmalar daha məntiqlidir. İkinci, nəticəçıxarmanı idarə edən prinsiplər semantika ilə əlaqəlidir. Üçüncü, hər kəs nəticəçıxarmanı xüsusiyyətinə əsasən təyin edə bilər. Biz burada “Ali’s work is satisfactory” cümləsindən nəticələr çıxara bilərik. Bunun üçün onların uyğunluq, doğruluq, nəzakətlilik və ya başqa nöqteyi-nəzərdən məntiqli olmasını iddia etməyimizə ehtiyac yoxdur. Dördüncü, eyhamların nəticəçıxarmanı dəstəklədiyi hələ də mübahisəli mövzudur. İddia edilir ki, P.Qraysın tətbiq etdiyi kimi nəticəçıxarma tələffüz şəklinə tabe ola bilməz, çünki onlar semantikanın ayrılmaz hissəsidir [67].

Yuxarıda da qeyd edildiyi kimi formal praqmatika üzrə olan yanaşmaların çoxu semantik nəzəriyyənin əsas vasitə və metodlarını genişləndirir. Çünki onlar bir-biri ilə daim əlaqədədirlər. Onlar arasında ortaq cəhət şərhə vurğu və vahid çıxışyolları tapmağa çalışma tendensiyasıdır. Son dövrdəki tədqiqatlar bu xüsusiyyətləri daşımayan modelləri araşdırmağa istiqamətlənib.

Optimallıq nəzəriyyəsi praqmatikasının nümayəndələrindən olan R.Blutner nəticəçıxarmanı danışan və dinləyənin birgə cəhdi kimi göstərib [8, s. 8]. Danışan istifadə edə biləcəyi ən qısa ifadələrdən işlətməklə öz cəhdini azaltmağa çalışır və dinləyən o nitqdən ən faydalı fikri başa düşməyə çalışır. Bu fakta əsaslanan optimallaşdırma sistemidir. Hər iki tərəf razılıq nöqtəsinə çatmaq üçün güzəştə gedir. Bu dinamika L.Horna aid edilir və o həmçinin G.K.Zipfin fundamental nəzəri fikirlərini əks etdirir [42, 108].

Optimallıq nəzəriyyəsi tərəfdarları danışanın və dinləyənin birlikdə məna problemlərini həll etməyə çalışması məsələsini Qəraryönümlü və Oyunyönümlü nəzəri yanaşmalar ilə izah etməyə çalışır. Qəraryönümlü nəzəri yanaşma insanların keçmişdə yaşadıqları bənzər hallarda işə yarayan hərəkətləri icra etməyə meyilli olduqlarını iddia edir və diskursu mübahisəli qərarvermə problemləri ilə strukturlaşdırılmış olaraq nəzərdən keçirir. Diskurs iştirakçıları tərəfindən idarə edilən fikir və onun yaranması bu problemlərin əsaslı şəkildə həll edilməsində böyük rol oynayır. Bu yanaşma məlumat mübadiləsinin dinamikasını başa düşmək üçün müzakirə mövzusu olan suallara müraciət edən yanaşmadır. A.Merin qəraryönümlü nəzəri fikirlərini fərziyyə hadisəsinə tətbiq etmişdir [74]. P.Parix, J.Mey və K.Bax da ondan istifadə edərək söhbət eyhamları və nitq aktlarını başa düşməyə çalışmışlar [84, 76, 5]. A.J.Ruy isə bu istimaqətdə sual əvəzlikləri və nəql cümlələrinin xüsusiyyətlərini, E.Köniq isə qayıdışlıq məsələlərini araşdırmışdır [96, 63, 65].

Oyunyönümlü nəzəri yanaşma bir iştirakçının seçiminin digər iştirakçıdan asılı olduğu sosial vəziyyətlərdə hərəkət seçimlərinə təsir edən vasitələri öyrənir. O dilə və onun şərhinə oyun kimi yanaşır və dialoqların çox tərəfli ünsiyyət olmasını iddia etdiyi üçün qəraryönümlü nəzəri yanaşmadan daha dəqiqdir. Onlar ünsiyyətin öz strategiyaları və inkişaf ölçüsü ilə bir oyun olduğunu vurğulamağa çalışırlar. Oyunyönümlü nəzəri yanaşmada əsas fikir ilə deyilən fikir arasındakı praqmatik əlaqə müəyyən tarazlığa malikdir. Dilçilər və məntiqçilər praqmatik üstünlük anlayışına uyğun gələn müxtəlif həll yolları konsepsiyaları tədqiq ediblər. Bu yanaşmaların tarixi siqnal oyunları və onların konsepsiyalarını işləmiş olan K.Ö.Luizə qədər gedib çıxır.

Öz sahəsində çox nüfuzlu olan K.Ö.Luiz bu mövzu üzrə zəngin biliyə malikdir. O, dilçilikdə qərarvermə və oyun nəzəriyyələri üzrə faydalı məlumatlar verir [72]. Bu yeni yanaşmaları bütün ünsiyyət növlərini öyrənmək üçün ümumi riyazi struktur olan İnformasiya nəzəriyyəsinə istinad etdiklərinə görə çox diqqətəlayiq hesab edilə bilərlər. Bu yolla onlar praqmatik nəticəçıxarmaların linqvstik ünsiyyətlə məhdudlaşmadığını sübut edə bilərlər. P.Qrays diqqətlə vurğulayırdı ki, onlar qeyri-linqvstik ünsiyyətdə də ortaya çıxa bilirlər [28, s. 50]. Ona görə də P.Qrays onları sadəcə dilçiliyin deyil, koqnitiv elmin və süni zəkanın da mərkəzinə yerləşdirirdi. Bu praqmatikanın əhəmiyyətini linqvstika səviyyəsinə endirmir və ya onun diskurs üçün vahid olan fenomenlərə aid olmasını təkzib etmirdi. Amma o bu yeni yanaşmaların hərəkət icraçıları və fikirlər üzrə araşdırmalar apardıqları üçün düzgün istiqamətdə olduqlarını söyləyirdi.

Bu günə qədər formal praqmatika nəzəriyyərləri əhatə dairələrinə görə məhdudlaşdırılıblar. Bu səhv fikir yarada bilər ki, formal praqmatika ilə informal praqmatika arasında nəzəri fərqlər var. Əslində informal praqmatiklər dəqiqliyə diqqət yetirirlər, formal praqmatiklər isə mümkün olduğu qədər çox praqmatik hadisələr formalaşdırmağa əhəmiyyət verir, dəqiqliyi gözardı edirlər. Strategiyaları fərqli olsa da, onlar kontekstin xüsusiyyətlərini, rasional ünsiyyətin ümumi problemlərini və fikir mənalarının qarşılıqlı ünsiyyətdə rolunu öyrənmək kimi ümumi bir məqsədi paylaşırlar.

Hal-hazırda linqvstik praqmatika əvəzinə neopraqmatika termini də geniş işlənməyə başlanmışdır. Hələ tam izahı verilməsə də, onun haqqında deyilmiş çoxlu fikirlər vardır. Öz dövrünün bir çox alimi bu mövzunu araşdırıb dəyərli fikirlər söyləmişdir. Həmin alimlərə nümunə olaraq R.Rorti, H.Putnam, D.Davidson, S.Fiş və başqalarını göstərmək olar [97, 89, 14, 25].

J.Habermas və R.Rorti də praqmatizmə olan marağın yenidən yaranmasında böyük rolu olmuş iki mütəfəkkirdir. Hər ikisi müharibədən sonra Anqlo-Amerikan Dil təhlili adlı dilçilik cərəyanının təsirində qalmış və bunun nəticəsində fəlsəfəni Anqo-Amerikan dilçiliyi ilə əlaqələndirməyə çalışmışlar. J.Habermas öz ilkin əsəri olan "Bilik və İnsan Marağında" Ç.Pirs və C.Dueyin praqmatikalarını təsvir edib. O,

praqmatizmi İ.Kantın nöqteyi-nəzərindən də təhlil etmiş, amma əsərində Ç.Pirsin İ.Kantın nəzəriyyəsini inkar etdiyini gözdən qaçırmışdır. Yenə də bunlara baxmayaraq, J.Habermasa olan maraq praqmatikanı yenidən Amerika və Avropada aktual mövzuya çevirmişdir [33, 18].

Linqvstik praqmatiklər praqmatikanın izahına üç fərqli müstəvidən yanaşırlar: 1) Bir qismi ənənəvi fəlsəfədə mövcud olan çoxlu metod və məqsədləri təkzib etdiyi üçün U.Ceyms və C.Duey kimi alimləri alqışlayır; 2) digər qismi isə bərpa edilməməli olanı bərpa etməyə çalışdıqları üçün onları qəbul etmir; 3) bəziləri isə "fəlsəfənin maddiyyatını sadəcə dil ilə izah etmək mümkündür" ideyasını qəbul edir.

Bu sahənin müəyyən tərəfləri təbiət etibarı ilə hələ də fəlsəfidir. Praqmatikada qoyulan suallar sadəcə qəbul edilən paradiqma daxilində tədqiqat mövzusu deyil, həmçinin tədqiqatın aparılmalı olduğu sahədə konseptual çərçivəni müəyyən etmək məsələsidir. Bütün bunlar da praqmatik araşdırma zamanı fəlsəfi kontekstdə onun başlanğıcına təkan verən və inkişafına şərait yaradan fəlsəfi fikirlərdən xəbərdar olmağı tələb edir. Burada praqmatika və fəlsəfə arasındakı əlaqənin ehtimal edilən köklərini araşdırırıq. Bunun üçün də bu mövzulara uyğun əsərlər yazmış praqmatiklərin (C.Ostin, P.Qrays, Ç.Moris) və digər müəlliflərin materiallarına nəzər yetirmək lazımdır [4, 27, 80]. Nəzərdən keçirilən mövzulara praqmatikanın əsas konseptləri (dil fəlsəfəsi, hərəkət fəlsəfəsi, şüur fəlsəfəsi, qnoseologiya), onun inkişaf etdirdiyi kontekstin xarakteristikası (Analitik fəlsəfə, Fenomenologiya, Dekonstruksiya), praqmatik aspektlərlərdən bəhs edən dil fəlsəfəsi və ona yaxın sahələlər üzrə bəzi nəzəriyyə və prinsiplər (İndekslər və işarələr, İstinadlar və şərhlər, Kontekstualizm, Universal və transandental praqmatika, Qnoseologiyanın şərhi), həqiqət yönümlü semantika və formal semantikanın bəzi əsas sahələri (Model-Teoretik Semantika, Mümkün aləmlərin semantikası, İntensional məntiq, Modal məntiq) daxildir.

Qeyd edilən mövzu üzrə məqalələrin əksəriyyətində analitik fəlsəfədən istinadlar edilir. Analitik fəlsəfə sözlərin istifadəsində aydınlığa, arqumentlərin detalları və onların məntiqi yoxlanılmasına, təbiət və koqnitiv elmlərin inkişafındakı uyğunluğa fikir verir. O praqmatikanın yaradıldığı və öyrənilməyə başladığı fəlsəfi

tədqiqatların tərkibinə daxildir. Amma bu o demək deyil ki, digər fəlsəfi ənənələr praqmatik tədqiqatlara müvafiq deyildir. Fəlsəfənin bu sahələrindən törəmiş olan praqmatik mövzular digər fikir məktəbləri, milli ənənələr və dillər arasında yayıldıqlarına görə daha az nəzərə çarpır. Bəzən hamısının aid olduğu "Şərq fəlsəfəsi" termini ona zidd olan "Analitik fəlsəfə" terminindən daha aldadıcıdır. Əlavə olaraq, fəlsəfi terminlərdə olan fərqlər hətta filosoflara belə şərqi adlanan cərəyanlar arasında əlaqə qurmağa çətinlik yaradır. Burada bizim seçdiyimiz materiallar praqmatika ilə maraqlanan alimlərin maraq dairələrinə daxil olan fəlsəfi cərəyanlar, metodlar və doktrinalar ilə əlaqədar olaraq hərtərəfli deyil. Qeyd edilə biləcək çoxlu maraqlı nüanslar var: məsələn, praqmatika və praqmatizm arasındakı fərqlər, fikirlərin fəlsəfi problemləri, fikirlər haqqında skeptisizm və ona qarşı sübutlar, sosial qnoseologiya, C.Sirlin "kollektiv məqsəd" anlayışı, etikada (meta etik və əxlaqi etika) və estetikadakı (Estetik qərarlar, duyğu və ehtiras nəzəriyyəsi) yeni əsas cərəyanlar [99]. Feminist fikirləri də bura əlavə etmək mümkündür. Belə əlavələr və bu materiallar praqmatika və fəlsəfə arasındakı əlaqənin müxtəlif aspektlərini əks etdirmək üçün kifayətdir. Lakin əsas tədqiqat mövzumuz bu olmadığı üçün daha dərinə getməyi məqsədəuyğun hesab etmirik və növbəti mövzuya keçirik.

## 1.2. Əvəzliklər praqmatik vasitə kimi

Əvəzlik şəxsləri, əşyaları və ya onlara xas əlamətləri adlandırmadan bildirən nitq hissəsinə deyilir. Əvəzliklər əsas nitq hissələrinin tərkibinə daxildir və bir çox xüsusiyyətlərinə görə digər nitq hissələrindən fərqlənir. Əvəzliklər həm mənasına, həm də sintaktik funksiyasına görə bir-birlərindən fərqlənirlər. Qrammatik cəhətdən əvəzliklərin hal, kəmiyyət, cins və şəxs kateqoriyaları mövcuddur. Əvəzliyin müxtəlif növləri vardır və onlar aşağıdakı kimidir:

1. Şəxs əvəzlikləri (personal pronouns)
2. Yiyəlik əvəzlikləri (possessive pronouns)
3. Qayıdış əvəzlikləri (reflexive pronouns)
4. Qarşılıq əvəzlikləri (reciprocal pronouns)
5. İşarə əvəzlikləri (demonstrative pronouns)

6. Sual əvəzlikləri (interrogative pronouns)

7. Nisbi əvəzliklər (relative pronouns)

8. Bağlayıcı əvəzliklər (conjunctive pronouns)

9. Təyin əvəzlikləri (defining pronouns)

10. Qeyri-müəyyən əvəzliklər (indefinite pronouns)

11. İnkar əvəzlikləri (negative pronouns)

Əvəzliklər iki qrupa bölünür: ismi əvəzliklər (noun pronouns) və sifət əvəzliklər (adjective pronouns). Bir qayda olaraq isim rolunda işləndiyi üçün ismi əvəzliklərə şəxs əvəzlikləri (I, you, he, she və s.), yiyəlik əvəzliyinin nisbi forması (mine, yours, hers, ours, its və s.), qayıdış əvəzlikləri (myself, himself, themselves və s.) daxildir. Sifət əvəzliklərə isə həmişə təyin funksiyasında işləndiyi üçün yiyəlik əvəzliyinin isimlə işlənən formaları (my, his, her, our və s.) daxildir. Həmçinin elə əvəzliklər də var ki, onlar hər iki funksiyanı yerinə yetirir, yəni cümlədə həm isim, həm də sifət kimi çıxış edə bilir. İşarə (this—these, that—those) və qeyri-müəyyən əvəzliklərini (some, any, other, all və s.) nümunə olaraq göstərmək olar.

Əvəzliklərdə üç növ şəxs konsepsiyası vardır: birinci, ikinci və üçüncü şəxs. Birinci şəxs danışanı bildirir, ikinci şəxs dinləyəni, üçüncü şəxs isə danışan və dinləyəni çıxmaqla başqa insanları və əşyaları bildirir. Əvəzliyin hansı növünün işlənməyindən asılı olmayaq mütləq, ondan əvvəl təyinedici bir söz gəlir. Əvəzlikdən əvvəl işlənən həmin təyinedici sözü kontekst, mətn və ya situasiyanı göstərən informasiya müəyyən edir.

Bəzən əvəzlik sözü əvəzinə "pronominal" terminindən də istifadə edilir. Bu söz əvəzliklərin isimlərin modifikatorları kimi işləndiyi zaman istifadə olunur. Yiyəlik əvəzlikləri bu kateqoriyaya daxildirlər. Bu kateqoriyaya daxil olan sözlər sintaktik cəhətdən təyin hesab olunurlar, onlar ismi müəyyən edir, funksiya cəhətdən əvəzlik kimi çıxış etməsələr də, əvəzlik xüsusiyyətlərini qoruyurlar. Pronominallar iki qrupa ayrılır: pronominal yiyəlik sifətləri və pronominal yiyəlik əvəzlikləri. Təyin kimi fəaliyyət göstərən əvəzliklər pronominal yiyəlik sifətləri, əvəzlik kimi çıxış edənlər isə pronominal yiyəlik əvəzlikləri adlanırlar. Aşağıdakı iki cümlə ilə fikrimizi daha asan ifadə edə bilərik:

*Your mother is a wonderful woman (pronominal yiyəlik sifət)*

*Yours is a wonderful woman (pronominal yiyəlik əvəzliyi)*

Bu qayda sual və işarə əvəzliklərinə də aiddir:

*What books do you read? (Yiyəlik bildirən sifət)*

*What do you read? (yiyəlik əvəzliyi)*

*Those books are interesting. (işarə sifəti)*

*Those are interesting. (İşarə əvəzliyi)*

Əvəzliyin istifadəsində olan kontekst onların diskurs funksiyalarını yaradır. Əvəzliklərin mətn daxilində ən vacib funksiyaları birləşdirmə və əlaqədir. Ona görə əvəzliklər mətn daxilində mənanın müxtəlif aspektlərini yaradır. Əlaqələndirci vasitə kimi işlənən əvəliklərin təyinedici sözlə əlaqələri olduğu üçün mətndə müəyyən məna çalarlarının yaranmasına kömək edirlər. Onların mətn daxilində mövcudluğu mətnin yarandığı sosial situasiyada nominal varlıq kimi nəzərdə tutulur. Əvəzliyin şərhi diskursda nominal elementlərin müəyyən edilməsindən asılıdır.

M.Halideyin fikirlərinə görə, mətndə müəyyən elementlərin şərhi mətnin digər hissələrindən asılı olur [36]. Başqa sözlə desək, pronominal elementlər başqa yerə istinad etmədən semantik cəhətdən şərh edilə bilməz.

"Is this your house?" (Bu sənin evindir?) İkimənalı kontekt olmadan birinə bu sualı versək, onda bu belə başa düşüləcəkdir: cümlədə işarə əvəzliyi olan **this** (bu) bir obyektə, yəni evə aiddir, **your** (sənin, sizin) yiyəlik əvəzliyi isə dinləyəni ifadə edir. Amma praqmatika bu cümləyə fərqli yöndən yanaşır. Praqmatikaya əsasən bu cümlə sadəcə məlumat almaq üçün verilən bir sual olmaya da bilər. Məsələn, danışan şəxs dinləyən şəxsi alçaltmaq üçün də bu sualı vermiş və ya ev çox gözəl olduğu üçün heyranlığını ifadə etmiş də ola bilər. Cümlənin deyilmə tərzindən çox şey asılıdır. Praqmatika istifadə edilən əvəzliklərin tələffüz şəklinə də fikir verir. Praqmatika kontekstdən asılı olaraq cümlənin ifadə etdiyi mənanı bildirir, birbaşa ifadə etdiyi mənanı deyil. Yəni yuxarıda verilən cümlənin birbaşa ifadə etdiyi mənanı qəbul etsək, bu semantik yanaşma, kontekstdən asılı olaraq fərqli fikir ifadə etdiyi zaman isə praqmatik yanaşma olur.

Əvəzlik anlayışı bütün dillərdə mövcuddur. Əgər vahid bir kateqoriya olsaydı,

bütün əvəzliklərə aid edilərdi. Bunun şəxs, işarə və ya yiyəlik əvəzliyi olmasının fərqi yoxdur. E.Benveniste iddia etmişdir ki, əvəzliklərin fərqlilikləri formal xarakter daşımır, həmçinin funksional fərqlər də vardır və buna görə o, şəxs əvəzliklərini nümunə olaraq göstərmişdir [7]. Biz dilin istifadə tərzinə görə onların fərqləndiyini yoxlaya bilərik. Bu fərqlər dilin sintaksisinə və ya diskursun tələbələrinə görə meydana çıxır. Dildəki hər bir akt danışanın fikrini ifadə etdiyi vaxt ortaya çıxır.

E.Benveniste görə, şəxs əvəzliklərinin birinci və ikinci şəxs formaları kontekstdən asılı olaraq üçüncü şəxsə nəzərən daha çox dəyişir. Kontekstdən asılı olan bu əvəzliklər O.Cesperson tərəfindən "dəyişənlər" adlandırılıblar [51, s. 134]. Onlardan otuz il sonra isə E.Benveniste şəxs əvəzliklərinin birinci və ikinci şəxs formalarının praqmatika adlanan dil səviyyəsinə uyğun gəldiyini iddia edib [7, s. 180-188]. Çünki onlar sadəcə linqvstik əlamətlərinə görə deyil, həmçinin danışanın istifadə tərzinə görə də fərqlənirlər. 1966-cı ildə "Ümumi dilçiliyin problemləri" adlı əsərini çap etdirən fransalı dilçi son dövrlər ciddi araşdırma mövzusu olan praqmatika üzərində tədqiqatlar aparırdı. Onun tədqiqatları kommunikativ situasiyaların zaman-məkan amilləri ilə əlaqədar idi. Beləliklə, o belə bir nəticəyə gəldi ki, ismi birləşmələri əvəzliklərdən fərqləndirən xüsusiyyətlərdən biri odur ki, onlar hər hadisədə eyni yolla düzələn, dəyişməyən anlayışı bildirir. Şəxs əvəzliklərində isə birinci şəxsin təkinin açıq səbəblərə görə heç vaxt eyni referenti olmur [7, s. 180-188].

***You*** *(sən, siz*) əvəzliyi izah edilərkən, ikinci şəxsin təki olaraq "danışan şəxs" və ikinci şəxsin cəmi olaraq isə "müraciət edilən şəxs" kimi fərqləndirilir. Ona görə də ingilis dilində danışan və dinləyən sözləri ilə əvəz edilə bilirlər. Onlar şəxs əvəzliklərinin işlənmə xüsusiyyətlərindən asılı olaraq bizim intuativ olaraq başa düşdüyümüz izahdan asılıdır. Başqa sözlə "Hungry speaker" əslində "The speaker is hungry" cümləsinin ekvivalentidir. İfadə edilən fikir sadəcə "The person who is speaking is hungry" şəklində başa düşülməməlidir. Bunun düzgün versiyası "The person who is uttering this very utterance is hungry", yəni həmin fikri söyləyən şəxs acdır şəklində qəbul edilməldir. Şəxs əvəzliklərinin birinci və ikinci şəxs üzrə cəm formaları öz quruluşlarına görə daxili və xüsusi şəkildə istifadə edilə bilirlər. Bu o

deməkdir ki, xüsusi istifadəyə zidd olaraq ***we*** (biz) əvəzliyinin ünvanlandığı şəxs və ya şəxslər daxili istifadədə əvəzliyin istinad nöqtəsinin bir hissəsi kimi fəaliyyət göstərir. Xüsusi istifadədə danışan və üçüncü şəxs və ya şəxslər nəzərdə tutulan referentlərdir. Halbuki Hind-Avropa dillərində bu iki istifadənin tərkibində vahid bir söz forması mövcuddur. Beləliklə ***we*** *(biz)* əvəzliyi işlənəndə feilin cəm forması aydın müəyyən edilə bilən elementlər çoxluğundan ibarət olur, ona görə də birinci şəxsin tək forması daha üstündür. E.Benveniste görə, cəm əvəzliyin bu cür istifadəsi birinci şəxsin təkinin çoxaldılması demək deyil [7]. Bu şəxs kateqoriyasından kənardır. O sadəcə sərhəd qoymadan birinci şəxsin genişləndirilməsi məqsədi güdür. Bütün bunlar birinci şəxsin cəm forması olan ***we*** əvəzliyinin istifadə sahəsini izah edir: a) daha vacib insan – yüksək rütbəli b) və ya daha çox yayılmış, yumşaldılmış ifadələrdən istifadə. B variantı əsasən ictimai nitqlər söyləyən və ya yazı yazan insanlar tərəfindən istifadə edilir. “We ourselvesf serve as an example in this paper*”* cümləsində “*Bu yazıda biz özümüz nümunə kimi göstərilirik”* fikrini söyləyərkən bir neçə fərd deyil, əslində sadəcə yazıçı nəzərdə tutulur. Siyasi və ya ictimai nitqlər söylənən zaman da “***I***” əvəzliyi deyil, “***We***” əvəzliyinin seçilməsi buna nümunə ola bilər.

Şəxs əvəzliklərinin praqmatik cəhətdən öyrənilməsi bu əvəzliyə olan marağı daha da artırır. A.De Finanın məqaləsində siyasi diskursa məxsus müəyyən nitqlərdə istifadə olunan şəxs əvəzliklərinin praqmatik yanaşma ilə praktik təhlili verilib. O, göstərib ki, siyasi diskursda əvəzlik seçimi danışanın müzakirə edilən situasiya ilə əlaqədar özünü digər insan və qruplara qarşı necə təqdim etdiyini əks etdirir [15]. Başqa şeylərlə yanaşı o, danışanın söhbətə cəlb olunma konseptini yenidən təhlil edir və həmrəylik ifadə etməli olan şəxs əvəzliklərinin istifadə dairəsini də tədqiq edir.

Y.J.Zupnikin fikirlərini nəzərədən keçirəndə görürük ki, o, əvvəlki tədqiqatların toxunmadığı nüansları izah etməyə çalışmışdır. Birinci şəxsin cəm formasının tam inandırıcılıq funksiyası izah edilmədiyinə görə bu zaman ortaya çıxan mürəkkəb praqmatik prosesləri və onların ardıcılı təsirini izah etməyə cəhd etmişdir. O daha da irəli gedərək göstərib ki, danışanın inandırma qabiliyyəti diskurs zamanı müxtəlif rollar ifa etmə bacarığı ilə müəyyənləşir [109, s. 350].

Şəxs və digər növ əvəzliklərin araşdırılması əslində nitqdəki problemlərin üzə çıxarılması məqsədi güdür. Bu məsələdə P.Nuemanın fikirlərinə də istinad etmək maraqlı olardı [82]. Onun dil məsələlərinə gender yönümlü yanaşma tərzi vardır, amma əsas mövzudan uzaqlaşmamaq üçün bu tədqiqatımızda ona yer verməyəcəyik.

Bu hər kəs tərəfindən qəbul edilmişdir ki, təhlil istifadə etdiyimiz dilin müxtəlif səviyyələrində və sahələrində baş verir. "He ate it" kimi sadə bir cümlədə belə iki fərqli yanaşma var. Bir tərəfdən cümlənin quruluşu və forması, həmçinin onun tərkibindəki sözlərin leksik xüsusiyyətləri, onların bir-birinə münasibəti və morfoloji forması nəzərdən keçirilir. Bu məlumata və əvvəlki təcrübəyə əsasən cümlə səviyyəsində "He ate it" cümləsi bir qidalanma hadisəsini bildirir. Burada referent olan ***he*** (o) əvəzliyi icraçını, ***it*** isə obyekti bildirir. Digər tərəfdən eyni vaxtda praqmatik təhlil "nə haqqında danışılır?", "kim kiminlə danışır?" və s. kimi quruluş üzərində cəmlənir. "He ate it" cümləsində xüsusi məqsəd ***he*** və ***it*** əvəzliklərinin referentini müəyyən etməkdir. Bunların heç biri cümlənin quruluşundan açıq başa düşülmür. Cümlə səviyyəsi üzrə təhlil forma və semantik mənaya əsaslanır, praqmatik təhlil isə nə haqqında danışılır, kim kiminlə danışır, sözlərin sıralanması və quruluşana fikir verir.

Dil mənaları əsasən kontekstdən asılıdır. Bir sintaktik vahid (morfem, söz, fraza, cümlə) istifadə edildiyi kontekstdən asılı olaraq çox vaxt müxtəlif mənalara sahib olur. Uzun müddətdir ki, bu dəyişkənlik geniş araşdırılır. B.Parte ehtimal edir ki, "*Ümumi leksik məna daxili məna və məzmundan asılılığın birləşməsidir*" [85, s. 223]. Bu bölmədə kontekst asılılığı olan ifadələr nəzərdən keçiriləcək. Bu hadisələri izah etmək üçün bəzi nəzəri yanaşmaları sadalayacağıq.

Kontekst asılılığının ən təmiz nümunələri əvəzliklərdir. Əvəzliklər birbaşa mənasını tələffüzdən bildirən ifadələrdir. Buna xas nümunələrə birinci və ikinci şəxs əvəzlikləri, həmçinin *here*, *now*, *today*, *two days ago*, and *actually* zərfləri aiddir. "I am typing here now" cümləsində hansı fikrin ifadə edildiyini başa düşmək üçün biz zaman, məkan və iştirakçıları bilməliyik. D.Kaplana görə, birbaşa istinad kimi belə ifadələr seminal xarakterlidir. Çünki təkrarlanan şərh prosesi hər ikisi üçün nisbidir [55]. M modeli sabit ənənəvi mənaları ifadə edir və C konteksti, yəni fikrin ifadə

olunma vəziyyəti haqqında bir sıra məlumatlar verir. Əvəzlik işlənəndə, onun mənası birbaşa C kontekstindən alınır. Kontekstlərdə qeyri-sabit funksiyanı bildirən hər hansı bir sintaktik vahidin kontekstdən asılı olduğu qeyd edilir. D.Kaplanın işlədiyi sistemin diqqət çəkən xüsusiyyətlərindən birinə görə, birbaşa sitatdan kənar morfo sintaktik vahidlər əvəzliklərin mənalarını dəyişə bilmirlər [55]. Bu əsasən ingilis dilində müşahidə edilir. Məsələn, ***I*** *(*mən) əvəzliyi danışana aiddir. Hətta bu hissə məzmunu başqa birinə aid cümlə daxilinə yerləşdirildikdə belə mənası dəyişmir. Fikrimizi cümlələr ilə izah edək. "Sam says that I am happy" və "Sam says that Sam is happy" cümlələri bir-birinin ekvivalenti deyil. Amma bəzi dilçilər mübahisə edirlər ki, əvəzlikləri müəyyən şəraitdə dəyişə bilirlər, əsasən də başqa dillərdə.

Əvəzliklərin şərhi tez-tez qeyri-müəyyənliklə dolu olur. Birinci şəxsin təkinin xüsusiyyətlərinə görə referent adətən qeyri-müəyyən olur, amma müəyyənləşdirmək asandır. Birinci şəxsin cəminin xüsusiyyətləri danışanı mövzuya daxil etmək üçün onların referentlərini məhdudlaşdırır. Lakin iştirakçıların geri qalan hissəsi tez-tez qeyri-müəyyəndirlər. ***Here*** və ***now*** kimi göstəricilər daha çox müəyyənləşmiş olurlar. Onlar çox ümumi və ya xüsusi ola bilirlər. Həmçinin onların genişləndirilmiş mənaları vardır. (məsələn, *here,* yəni telefonda, və ya *here,* yəni şüuru özündə). Bütün bu xüsusiyyətlər semantik mənaları məhdudlaşdırır, ona görə də onların referentlərini müəyyən etmək əsasən tam hüquqlu bir praqmatik vəzifədir. Çoxlu ifadələrin həm indeksli, həm də qeyri-indeksli istifadə yerləri vardır. Üçüncü şəxs əvəzlikləri açıqca ehtimalları bildirir. İkili istifadədə kontekstə görə dəyişirlər. Məsələn, əgər mən otaqda dayanan qadını nəzərdə tutub deyirəmsə, *"*She is famous*"*, jestlə onu işarə edə bilərəm və ya bunun əvəzinə, sadəcə olaraq, bu cümlədə referent kimi onun özünün diqqətçəkməsinə etibar edə bilərəm. Belə yerlərdə əvəzliklərin referentlərinin çatdırılması daha asan olur. Baxmayaraq ki, əvəzliklər, ümumiyyətlə, lazımsız bir şeyə işarə etmək üçün də kifayət qədər geniş leksik məzmuna malikdirlər, amma üçüncü şəxsin təkini bildirən əvəzliklər digərlərindən fərqli olaraq daha çox referent qəbul edə bilir. Onlar aşağıda verilən cümlədəki kimi diskurs anaforik ola bilirlər:

*A woman entered. She looked tired.*

Ya da onlar miqdar bildirən elementləri ilə məhdudlaşa bilirlər:

*No actress admitted that she was tired.*

Halbuki bunların heç biri digər şəxs əvəzliklər üçün mümkün deyil. Əvəzliklər ilə zaman elementlərinin birgə işləndiyi cümləni nümunə olaraq göstərək. Sadə cümlədə keçmiş qeyri-müəyyən zaman tələffüzün zamanına əsasən nisbi olaraq müəyyən edilir. Əgər A deyirsə ki, "I didn't run off the stove*"*, o, burada sobanı söndürmüş olduğu bir keçmiş zamanın olmadığını nəzərdə tutmur. Əslində onun sobanı söndürmədiyini ifadə etdiyi tələffüz vaxtından əvvəl xüsusi, dəqiq bir müddət var. Həmçinin burada diskurs əlaqələndirmə də mümkündür. "Maryam woke up sometime in the night. She turned on the light*"* cümlələrində ikinci cümlənin ifadə etdiyi zamandan əvvəl müəyyən müddət var və bu sometime in the night kimi qeyri-müəyyən ifadə ilə bildirilir. İngilis dilində zamanın əlaqələndirilməsi geniş yayılmışdır:

*Whenever Maryam awoke from a nightmare as a child, she turned on the light.*

Burada birinci cümlə ilə ikinci cümlə arasındakı vaxt əlaqələndirilmişdir. Yəni hər iki cümlədə ifadə edilən vaxt eyni zamana təsadüf edir, həmçinin hərəkət ardıcıllığı da verilmişdir.

B.Parte bu mümkün ehtimalların əksəriyyətini əks etdirən ifadələrin, o cümlədən də yerli (məsələn, *a local bar*), təsirsiz tamamlayıcı anafora (The baby started crying. Everyone noticed*)* və geniş perspektivli elementlər də (two feet away, near) daxil olmaqla ümumi izahını vermişdir [85].

Hər kontekstdən asılılıq vahid səviyyəli ifadələri əhatə etmir. Məsələn, miqdar bildirən ifadələr üçün işlənmə yerləri çox dəyişir və kontekstdən asılıdırlar. Əgər mən sinifdə deyirəmsə, "Every student did the homework*"*, mütləq səhv danışıram, çünki bu zaman dünyadakı bütün tələbələr nəzərdə tutulur. Burada ehtimal ki, mən say olaraq sinifdəki bütün tələbələri nəzərdə tuturam. Bu seçim daxili işlənmə yerləri üzrə məhdudiyyətləri dildə nizamlamaq üçün istifadə olunur. Sadəcə isimlər üçün deyil, zərflər (usually və necessarily), modal feillər (may və should) və çoxlu başqa feillər üçün də bu qayda belədir. Kontekstdən aşkar olmayan mənaları üzə çıxarmaq ***tall, expensive***, və ***soft*** kimi dərəcə bildirən sifətləri şərh etmək üçün vacibdir.

*That computer is expensive*

*Fuad is tall.*

Bu ehtimallar müqayisəli sinif adlanan kontekstlə təmin edilmiş bir anlayışa nisbətən edilir. "The watch is expensive" və "The watch is affordable" cümlələri eyni müqayisə sinifinə nisbətdə şərh edilə bilər. Amma onlar müxtəlif standartlar tələb edirlər. Müqayisə sinifi əsasən linqvistik kontekstdən (large mouse) üzə çıxır və o, "large for a mouse" kimi ifadələrlə açıq şəkildə yazıla bilər. Amma bu vəziyyətdə kontekstdən asılılıq həmişə yoxa çıxmır. Təhlil edərkən müşahidə etdik ki, "Bill has an expensive BMW" cümləsi, hətta onun ən ucuz BMW maşını olsa belə düzgün ola bilər. Əgər müqayisəli sinif bütün maşınlara aiddirsə, bu zaman fikir doğru çıxır. Müəyyən standart təsbitlər bəzi miqdar bildirən elementləri şərh etmək üçün tələb olunur. Bir siyasətçinin "*Many people support my proposal*" kimi bir iddiasını dəyərləndirmək üçün biz əlavə işlənmə məhdudiyyətlərinin (*people in the city, people who own cats*) olub olmadığını da bilməliyik. Həmçinin bizim *many* üçün çoxlu sayda mövcud say standartlarına dair bir məlumatımız da olmalıdır.

S.Levinson qeyd etmişdi ki, "*praqmatika dil və dildəki mənanın başa düşülməsində böyük rol oynayan kontekst arasındakı əlaqənin öyrənilməsi üzrə bir elm sahəsidir*" [70, s. 21]. Praqmatika dilin istifadə olunması, eyni zamanda dilin forması və istifadəsi arasındakı əlaqənin öyrənilməsi ilə məşğul olduğu üçün onun əsas tədqiqat sahəsinə cümlələr və ya sözlərin mənasının kontekstdən asılı olaraq araşdırılması da daxildir. Buna görə də o, deyiksis nəzəriyyəsini praqmatikanın bir hissəsi olduğunu iddia edirdi.

S.Levinsonun fikirlərinə istinad edən məşhur amerikalı dilçi C.Yula görə, də praqmatikanın əhatə dairəsinə ehtimal, eyham, nəticəçıxarma, nitq aktları ilə yanaşı deyiksis də daxildir. O, da öz növbəsində iddia edirdi ki, praqmatika danışan və ya yazan tərəfindən çatdırılan və dinləyən və ya oxucu tərəfindən başa düşülən mənanı araşdırır [107, s. 130].

***Deyiksis*** yunan sözüdür və göstərmək deməkdir. O, danışan tərəfindən fikrin məzmununun necə idarə olunduğunu göstərməyin əsas yollarından biridir. Deyiksis praqmatik bir fenomen olaraq fikir kontekstinin linqvistik kodlaşdırması ilə bağlıdır.

Əslində, bütün deyiktik ifadələr indekslidir, lakin bütün indekslər deyiktik deyil. Buna görə indeksliyin daha geniş əhatə dairəsi var, yəni kontekstin bütün fenomenlərini əhatə edir, halbuki deyiksis indeksliyin linqvistik cəhətdən müvafiq aspektləri ilə məşğul olan daha dar bir sahəsidir. Ümumi fikrə görə deyiksis altı növə bölünür: şəxs deyiksisləri, emfatik deyiksislər, yer deyiksisləri, vaxt deyiksisləri, söhbət deyiksisləri və sosial deyiksisləri.

Deyiksis istinadı həmişə kontekstdən asılı olaraq dəyişən sözə deyilir. Deyiksis kontekstə görə dəyişən müəyyən bir söz və ya cümləyə aid olduğu üçün praqmatikanın əsas hissələrindən biridir. Cümlədəki kontekstin dəyişməsi tez-tez situasiyanın, yəni iştirakçıların, zamanın və yerin dəyişməsinə görə baş verir. Deyiksis situasiya ilə birbaşa əlaqəli elementləri göstərmək üçün istifadə olunur. Onlar həmçinin mətnin hissələrinin bir-birinə uyğunlaşdırılmasını və əlaqələndirilməsini də təmin edirlər. Deyiktik sözlər danışan və yazan tərəfindən müəyyən edilən istinad nöqtələrini bildirirlər. Deyiktik sözlərin ifadə etdikləri məna verilən situasiyaya uyğun olaraq formalaşır. Yəni deyiktik ifadələrdə istinad daim dəyişir, amma məna kontekstə uyğun olaraq qalır. S.Levinson digərlərindən fərqli olaraq deyiksisin beş növünü müəyyən edib: şəxs deyiksisləri, yer deyiksisləri, zaman deyiksisləri, diskurs deyiksisləri və sosial deyiksislər [69]. Hər iki bölgünü təhlil etdikdən sonra altı növə bölünməsinin daha məntiqəuyğun olduğunu hesab edərək aşağıda onların praqmatik izahını veririk.

Şəxs deyiksisləri. Bu referentin iştirakçı roluna deyiktik istinaddır: danışanlar, xitab edilənlər, kənarda dayananlar. Şəxs deyiksisləri şəxs əvəzlikləridir. Birinci şəxsin tək və cəmini bildirən ***I*** və ***we*** əvəzlikləri danışana istinadın qrammatik kodlaşdırılmasıdır, ikinci şəxsin tək və cəmini bildirən ***you*** əvəzliyi xitabedilən şəxsə istinadın qrammatikləşdirilməsidir və üçüncü şəxs bildirən ***he, she, they*** əvəzlikləri kənarda dayanan şəxslərə istinadın qrammatik kodlaşdırılmasıdır. Əlavə olaraq biz birinci şəxsi cəmini bildirən ***we*** əvəzliyini istifadə yerinə görə inklüziv xitab və eksklüziv xitab olaraq da ayırırıq. Aşağıdakı cümlələrlə fikrimizi daya aydın ifadə edə bilərik:

*United we stand*: *President George Bush*. (inklüziv)

*We shall leave in two hours' time. (eksklüziv)*

İkinci şəxsi bildirən əvəzlik mövcud olduğu müddətcə, həmişə tək olacaqdır. Çünki ***You*** həm ikinci şəxsin təki, həm də cəmi üçün istifadə olunur. ***You*** şəxsi istəyə uyğun olaraq jestlərlə də istifadə oluna bilər:

***You*** *can't train an old monkey for new tricks*. (simvolik)

***You*** *should go there at once*. (jest ilə)

İfadələrlə işlənən üçüncü şəxs əvəzliyi semantik cəhətdən nöqsan və ya natamam sayılır, yəni onların təsviri məzmunu bir referent müəyyən etmək üçün kifayət deyil. Bu baxımdan qeyri-müəyyən artiklı və şəxs əvəzlikləri ən defektli qrammatik vahidlər sayıla bilər:

*someone, she – the woman – the beautiful woman – Aisha*

Ünsiyyət zamanı iştirakçı rolu dəyişikliklərə məruz qalır, məsələn, söhbət əsnasında danışma növbəsini almaq, konfranslarda məruzə üçün söz almaq və s. Bu zaman deyiktik mərkəz də onlarla birlikdə dəyişir. Deyiktik mərkəz danışanın olduğu yer və zaman ətrafında formalaşır. Bununla yanaşı, bir çox deyiktik ifadələr başqa bir deyiktik mərkəzə köçürülə və ya yenidən qurula bilər. Nitq prosesinə qoşulmuş şəxsə istinad yiyəlik əvəliklərinin, sifətlərin istifadəsi və feillərin hallanması zamanı da açıq aydın görünür. Məsələn, indiki qeyri-müəyyən zamanda üçüncü şəxsin təkində feillərin sonuna **–s** şəkilçisinin əlavə edilməsi, ***to be*** feilinin formalarının şəxslər üzrə dəyişməsi də buna nümunə ola bilər.

Şəxs deyiksisləri digər dillərdə sosial münasibət də ifadə etmək üçün istifadə olunur. Məsələn, tanış insanlara xitab etmək üçün sən, yadlara isə siz əvəzliyinin istifadə olunması. Alman dilində **du/Sie**, fransız dilində **tu/vous** və s. Amma ingilis dilində hər ikisi üçün də ***you*** əvəzliyindən istifadə edildiyi üçün tələffüz zamanı bu fərq ifadə edilə bilmir.

Qarşılıqlı diskurs zamanı xitab edərkən 1-ci və 2-ci şəxs əvəzliklərindən istifadə edilir. Ancaq kinayə və zarafat üçün bəzən 3-cü şəxs olaraq iştirakçı və xitab edilən şəxs nəzərdə tutula bilər. Məsələn, ana otağını təmizləməyən uşağına deyir: *Somebody hasn't cleaned his room today. We should clean up our rooms ourselves.* Verilən nümunələrdən aydın olur ki, 1-ci cümlədə işlətdiyimiz ***somebody*** və 2-ci

cümlədə işlətdiyimiz ***we*** əvəzlikləri əslində eyni şəxsə, yəni uşağa xitab etmək üçün istifadə olunur. ***We*** əvəzliyi iki fərqli formada istifadə edilə bilər. ***We*** həm biz və başqalarını ifadə edərək daha çox referent bildirə bilər, həmçinin danışan və dinləyəni nəzərdə tutaraq daha məhdud sayda şəxsi bildirə bilər.

Şəxs deyiksisləri özünə və ya dinləyənə xitab etmək üçün şəxs əvəzliklərinin istifadə edildiyi bir vasitədir. Şəxs əvəzliklərinin ifadə etdiyi istinad iştirakçının xarakterinə uyğun olaraq dayanmadan dəyişir. Danışan insan birinci şəxs olur, əgər həmin şəxs danışmırsa, yenidən dinləyici olur və bu zaman ikinci şəxsə dəyişir. Həmin söhbətdə iştirak etməyən şəxs isə üçüncü şəxs adlanır.

Birinci şəxs kateqoriyasına birinci şəxsin təki və cəmi daxildir və tək birinci şəxs deyiksislərinə ***I, my, myself, mine and me,*** birinci şəxsin cəminə isə ***we, us, our, ours*** və ***ourselves*** əvəzlikləri daxildir.

*I'll put this book here.*

***You*** şəxs əvəzliyi ikinci şəxsin təki və cəmi üçün işlədilir və xitab olunanı bildirir. İkinci şəxs deyiksislərinə ***you, your*** və ***yourself*** aiddir.

*I ask you not to go.*

Üçüncü şəxsə üçüncü şəxsin təki və cəmi aiddir. Üçüncü şəxsin təkinə ***he, she, his, him, her***, cəminə isə ***they, their****, and* ***them*** əvəzlikləri aiddir.

*There was a girl and a boy in the park. They were talking and watching children playing in the park. The girl said something to the boy and they laughed.*

Verilən nümunədə ***they*** əvəzliyi qız və oğlana aiddir, yəni üçüncü şəxs deyiksisidir və üçünçü şəxsin cəminə aiddir. Buradan da belə bir nəticə çıxır ki, şəxs deyiksisləri birinci, ikinci və üçüncü şəxsi bildirən əvəzliklərdir.

Şəxs deyiksislərinin istifadəsi həm şifahi, həm də yazılı dildə geniş yayılmışdır. Onun məqsədi referent dəyişikliyini asanlaşdıran bəzi sözlərin izahını verməkdir. Əgər onlar istifadə olunmasa, oxucuya və ya dinləyiciyə çaşqınlıq yarada bilər. O zaman oxucu və ya dinləyici referenti səhv salacaq, söhbətin kimdən getdiyini başa düşməyəcəklər.

Aşağıdakı nümunə ilə fikrimizi daha aydın ifadə edə bilərik:

*"I see no reason for that. You and the girls may go, or may send them by*

*themselves. Perhaps that will be better because you are as pretty as any of them and Mr. Bingley might like you best."(* Pride And Prejudice, J.Austin, 1-ci hissə, s. 2).

Yuxarıda verilən hissəni oxuduqda referent olaraq kimlərin nəzərdə tutulduğu məlum olmur. Burada şəxs deyiksislərinin kimə istinad etdiyi haqqında heç bir kontekstual məlumat yoxdur. Əgər əsərdən götürülmüş bu hissənin izahını versək, daha yaxşı təhlil edə biləcəyik. Burada bu fikirləri söyləyən cənab Bennetdir və o, bu sözləri həyat yoldaşı xanım Bennetə deyir. Xanım Bennet həyat yoldaşına məsləhət görür ki, cənab Binqli gələndə gedib ona baş çəksin, çünki xanım Bennet qızlarından birinin onunla ailə qurmasını istəyir. Amma cənab Bennet buna razı olmur.

***I*** əvəzliyi birinci şəxsi bildirir, ***You*** ikinci şəxsin təkinə aiddir və şəxs əvəzliyinin obyekt halıdır. ***Themselves*** əvəzliyi isə **them** əvəzliyindən yaranmış qayıdış əvəzliyidir. Yuxarıda verilən nümunədə "I see no reason*"* cümləsindəki ***I*** əvəzliyi Cənab Benneti bildirir. Amma "You and the girls may go*"* cümləsindəki ***You*** əvəzliyi xanım Benneti bildirir. "Or may send them by themselves*"* cümləsindəki ***Themselves*** əvəzliyi isə qızları bildirir**.** Bunu oxuyan bir çox insan üçün bu mürəkkəb başa düşülən cümlədir və səhv şərh oluna bilər. Buradan aydın olur ki, şəxs deyiksisləri həmişə dəyişir və çox mürəkkəbdirlər.

C.Hurford deyiktik ifadələrin referentini tapmaq üçün verilən fikri vasitəli nitqə çevirməyi məsləhət görür [47]. O zaman belə bir cümlə alınır:

*He said to his wife that he would not go to visit Mr. Bingley*.

Şəxs deyiksislərinin daha başa düşülən olması üçün vasitəli nitqə çevirdikdə, o zaman fərq daha aydın görünür. Bu zaman istinad nöqtəsini də daha asanlıqla tapmaq olur. Vasitəli nitq istifadə olunan zaman referent olduğu kimi qalır, amma deyiktik ifadələr qeyri-deyiktik ifadələrlə əvəzlənir.

*Hasan: "I'll wait for you here tomorrow."*

*Hasan said he would wait for me there the next day.*

*She said: "Can you put it here?"*

*She asked if she could put it there.*

Nümunlərdən də aydın görünür ki, şəxs deyiksisləri də cümlə quruluşunun dəyişilməsinə uyğun olaraq dəyişir. Birinci cümlədəki danışana aid olan və birinci

şəxsin təkini bildirən ***I*** əvəzliyi ikinci cümlədə dinləyəni bildirən üçüncü şəxsin təki ***he*** ilə əvəz olunur.

Emfatik deyiksislər deyiktik formaların münasibət ifadə etmək üçün metaforik şəkildə işlənməsini nəzərdə tutur, yəni danışan və referent arasındakı emosional və ya psixoloji münasibət göstərir. Burada işarə əvəzliyi ***this*** empatiya və ya həmrəylik bildirmək üçün, ***that*** isə arada məsafə olduğunu ifadə etmək üçün işlənir. Ancaq ikisi arasındakı fərqlərin aradan qalxdığı çoxlu hallar müşahidə olunur.

*This is what I want.* But also *I want that.* (empatiya)

*That woman!* (məsafə)

Yer deyiksisləri nitq prosesində iştirakçının olduğu yerə edilən deyiktik istinad olaraq müəyyənləşdirilə bilər. Yer deyiksislərinə yer zərfləri, işarə əvəzlikləri, məkan bildirən sözönülər və hərəkət feilləri daxildir.

J.P.Denni bir məkanda yerbildirən göstəricilərin olub olmadığını bildirmək üçün *məhdudiyyət* (*boundedness)* terminindən istifadə edilməsini təklif etmişdir [17, s. 210]. ***In there, in here, out there*** kimi ifadələr məhdud deyiksislərə aiddir, amma ***here*** və ***there*** isə məhdud olmayan deyiksislərdir.

Bəzi tanınmış alimlər məkana istinad verilməsinin bir neçə prinsipini müəyyənləşdirmişdir:

Tam yer bildirən deyiktik sözlər: *here* və *there* kimi zərflər, *this* və *that* işarə əvəzlikləri;

Mütləq yer bildirən: *east, west, north, south, upstream, downstream, across river* və s.;

Nisbi yer bildirənlər: *to the right/left of, behind, in front of, away from, next to* və s.;

S.Levinson yer bildirən deyiktik sözləri simvolik və jest kimi işlənənlər olaraq iki yerə ayırır. Simvolik olaraq işlənənlər praqmatik cəhətdən kodlaşdırma vaxtı danışanın yerini göstərən yer vahidləridir. Jest üçün işlənənlər isə praqmatik cəhətdən danışanın olduğu yerə yaxın verilən məkana aid olur. Yəni jestlər məkanı göstərir [69, s. 437].

*I'm in Madrid and I love it here.* (simvolik)

*Bring it here.* (jest ilə)

Bəzən danışanın olduğu məkandan uzaqlığı ifadə edən **there** həmçinin yaxınlığı da ifadə edə bilir. Məkan bildirən sözönülər isə həm deyiktik, həm də qeyri-deyiktik dəyərlərə malik ola bilir. Danışanın olduğu yerə istinad vardısa, deyiktikdilər.

*Billy is behind the house.* (qeyri-deyiktik)

*Billy is behind the house, hiding from me.* (deyiktik)

Hərəkət bildirən feillər ***come*** *və* ***go*** həmçinin iştirakçıların olduğu yerə istiqaməti ifadə edə bilirlər.

*Come to me!*

*Go there!*

Bir şeyi nəzərdən qaçırmamalıyıq ki, məkan anlayışı danışanın nöqteyi-nəzərindən fərqli ola bilər. Çünki danışan məkanı fiziki real və ya zehni, yəni xəyali məkan olaraq da bildirə bilər. Məsələn, evindən uzaqlaşmış biri ***here*** yer zərfindən istifadə edərək zehni olaraq öz evini nəzərdə tuta bilər amma realda öz evində olmaya bilər. Və ya əksinə özü evində olduğu halda, zehni olaraq başqa bir məkanı da ifadə edə bilər. Telefona yazılmış səs yazısını buna nümunə olaraq göstərə bilərik.

*I am not here now, call me later.*

İnsanlararası məsafənin ifadə edilməsi də praqmatikanın sahəsinə aiddir. Məsələn, bir ətri iyləyib "I don't like that!" demək. Burada verilən ***that*** işarə əvəzliyinə semantik cəhətdən yanaşmaq düzgün deyil. Çünki onun ifadə etdiyi əsas məna kontekstdən üzə çıxır ki, bu da praqmatikanın tədqiqat sahəsinə aiddir. ***That*** işarə əvəzliyi kontekstdən asılı olaraq burada müxtəlif referentləri bildirə bilər. ***That*** yuxarıda verilən cümlədə ətirə aid olduğu halda, müəyyən hərəkət qarşısında deyiləndə, həmin hərəkətə istinadən də deyilmiş və ya müəyyən şəxs üçün də nəzərdə tutulmuş ola bilər.

Vaxt deyiksisləri. Müvəqqəti istinad nöqtəsi olan zamana aid olur. Müvvəqqəti istinad nöqtəsinə aid olan zaman deyəndə əsasən fikrin ifadə olunma vaxtı nəzərdə tutulur. Ç.Filmor bu zamanı bildirmək üçün kodlaşdırma vaxtı terminindən istifadə edib [24]. Kodlaşdırma vaxtı qəbul vaxtından fərqlidir. Vaxt deyiksislərinə zaman

zərfləri, zamanlar və digər deyiktik ifadələr daxildir. Burada əsas fərqi ***now*** və ***then*** sözlərinin istifadəsi zamanı görə bilərik. ***Now*** danışanın fikirlərini ifadə etdiyi vaxtı bildirir yəni praqmatik cəhətdən kodlaşdırma vaxtının da daxil olduğu vaxt bölümünü göstərir. ***Then*** isə fikrin ifadə olunduğu vaxtdan sonrakı müddəti bildirir.

*Do it now!*

*I'm now reading an interesting article on traditions.*

*I was very young then.*

*Then, you'll have to repeat the procedure.*

Amma fərqli kontekstdə ***now*** həm danışanın fikrini ifadə etdiyi vaxtı, həm də onun fikirlərinin eşidildiyi anı bildirə bilər. Ona əks olaraq ***then*** həm keçmiş, həm də gələcək zamana aid ola bilir. Fikirlərimizi nümunə ilə ifadə edək:

*a) May 22, 2016 – I was in Italy then.*

*b) I will wait for you at 3 o'clock tomorrow. See you then.*

Yuxarıda verilmiş a cümləsi keçmişi ifadə etdiyi halda, b cümləsi gələcəyi ifadə edir.

Bəzi kontektslərdə deyiktik ifadələr müəyyən zaman ifadə edə bilmir, daha doğrusu hansı zamanı ifadə etdiyi bilinmir. Əgər bir kafenin qapısında "Free tea tomorrow!" cümləsi yazılıbsa, bu həmin günü ifadə edir, amma əgər biz eyni gün və növbəti gün də gəlib qapını bağlı görsək, onun ifadə etdiyi vaxtı tapa bilməyəcəyik. Bu qayda zamanlara da aiddir. Keçmiş zamanlar hərəkətin keçmişdə ifadə olunduğunu bildirmək üçün istifadə olunur. Amma *If I had a car, ……, If I were rich, ……* cümlə modelləri keçmişdə baş verən hadisəni ifadə etmirlər. Bu zaman biz onu xatırlamalıyıq ki, zaman deyiksisləri təkcə zaman cəhətdən yaxınlıq və uzaqlığı bildirmir, həmçinin reallıq cəhətdən də uzaqlığı və ya yaxınlığı da bildirir.

Zamanlar da əsas amillərdir. Zamanlardan əlavə salamlaşmalar da vaxt bildirir və deyiktik ifadələrdir. *Good morning!, Good afternoon!, Good evening!, Good night!* və s. kimi ifadələrdə də zaman anlayışı mövcuddur.

Diskurs deyiksisləri. Baş tutan diskursun bir hissəsinə deyiktik istinad etmək üçün istifadə olunur. ***This*** və ***that*** diskurs deyiksis elementləridir. ***This*** əvəzliyi diskursun növbəti hissəsini, ***that*** əvəzliyi isə keçmiş hissəsini bildirir.

***This** is what I'll tell you.*

***That** was the only word she could say in English.*

S.Levinson və Ç. Filmore iddia edirdi ki, anaforalar diskurs deyiksislərindən fərqlidir [23]. Anaforik elementlər diskursdan kənar digər şəxsləri də əlaqələndirmək üçün istifadə olunur [69, s.445].

***The Azerbaijani Prime Minister** delivered a speech yesterday. **He** pointed to the importance of the event.*

Burada ***The Azerbaijani Prime Minister*** *və* ***he*** birgə istinad bildirən ifadələrdir. Amma bəzi yerlərdə əvəzliklər və anaforalar bir-birindən fərqlənir, çünki fərqli referentləri bildirir. Fərqi göstərmək üçün aşağıdakı nümunədən istifadə edə bilərik.

*In front of **her, Jeiran** noticed a girl playing with a doll.*

Burada yuxarıdakı cümlədən fərqli olaraq **her** və **Jeiran** fərqli instinadlar bildirirlər. **Her** əvəzliyi Ceyranı ifadə etmir.

Sosial deyiksislər**.** Nitq prosesində iştirakçıların sosial statusuna və ya roluna istinad etmək üçün istifadə edilir. Bura hörmət ifadə edən sözlər, qohumluq əlaqələri bildirən sözlər, əzizləmələr, təhqirlər və s. daxildir: *mother, mum, my dear, darling, Your Majesty* və s.

Deyiktik ifadələrin hamısı praqmatikanın tədqiqat sahəsinə daxildir. Çünki onların şərhi kontekstdən, danışanın məqsədindən asılıdır. Sayca az olmaqlarına baxmayaraq, işlənmə yerləri çox genişdir. Deyiktik ifadələr həmişə bildirdiyindən çox daha geniş məna ifadə edirlər.

Hər bir cümlə sintaktik bir məna ifadə edir, amma verilən kontekst dəyişdikdə cümləni semanik cəhətdən təhlil etsək, bu bizi səhv fikrə yönəldər. Bu zaman biz praqmatik cəhətdən cümləni təhlil etməli və verilən kontekstə uyğun nə demək istənildiyini, cümlənnin nə məna verdiyini başa düşməyə çalışmalıyıq. Çünki kontekts və söhbət iştirakçıları dəyişildikcə ifadə edilən və ya ifadə edilməyə çalışılan fikirlər də dəyişir. Praqmatika bu zaman deyilən cümləyə müxtəlif yönlərdən yanaşaraq onun verdiyi mənanı tapmağa çalışır.

Apardığımız araşdırmaya əsasən gəldiyimiz nəticə budur ki, deyiksislərin

funksiyası cümlədə iştirakçının rolunu müəyyən etməkdir, yəni deyiksislərin əsas funksiyası cümlədəki istinadın müəyyənləşdirilməsindən ibarətdir. Deyiksislər vasitəsi ilə cümlədə söhbətin kimdən getdiyi bizə daha aydın olur, kontekst dəyişildikcə, deyiksislərin ifadə etdiyi istinadların dəyişməsi onları praqmatikanın təməl daşlarından birinə çevirir.

# II FƏSİL. QAYIDIŞ ƏVƏZLİKLƏRİNİN KONTEKSTUAL İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

## 2.1. Kontekst modelləri nəzəriyyəsi

Gündəlik kommunikativ situasiyaların izah və ya şərhində kontekstin əhəmiyyəti kifayət qədər vurğulanmır, amma əslində kontekst çox vacib bir faktordur. Kontekstlə bağlı yaranan əsas suallar bunlardır: kontekst diskurs nəzəriyyəsinin tərkib hissəsi olmalıdır ya yox? Kontekst və kontekstin təsiri necə təhlil olunmalıdır?

T.Deykə görə, əsas problem kontekst anlayışının yaxşı izah edilməməsidir [20]. Sosial elmlərdə kontekst anlayışına həsr olunmuş minlərlə kitab çap olunmuş, ancaq heç birində nəzəri olaraq kontekstin izahı verilməmişdir. Burdan da belə çıxır ki, kontekst nəzəri cəhətdən başa düşülərək deyil, hissi olaraq istifadə olunur.

Kontekstin ənənəvi izahı əsasən şifahi aspektlərə əsaslanır, koqnitiv cəhətdən araşdırılmamışdır. T.Deyk iddia edir ki, kontekst anlayışı sosial situasiyanın ekvivalenti kimi işlədilir [19, s. 12]. Amma indiyə kimi alimlər kontekst anlayışının istifadəsində sosial və linqvstik cəhətləri birləşdirməmişlər. Əgər bu edilsə, problemi bir az daha açmaq mümkün olacaq. Çünki kontekst sosial kateqoriyalardan hesab olunan lokal/qlobal və makro/mikro anlayışları ilə əlaqəlidir. Bu dörd termin müvəffəqiyyətlə kontekstə tətbiq olunmuş, amma yenə də kontekst nəzəriyyəsi, onun söhbət və mətnlə əlaqəsi tam şərh edilməmişdir. Bu o deməkdir ki, biz hələ aşağıdakı suallara cavabı tam əldə edə bilməmişik.

a. Düzgün ünsiyyət qurmaq üçün biz kontekst haqqında nə qədər biliyə malik olmalıyıq?

b. Kommunikativ tələbi ödəmək üçün kontekst haqqında nəyi bilməliyik? Ünsiyyət zamanı kontekstin tərkib hissələrinin təsiri nə qədərdir?

c. Kontekst və kommunikativ performans arasında əlaqə vardır?

T.Deyk kontekstin sosial-koqnitiv nəzəriyyəsini inkişaf etdirmişdir [19]. Onun fikirlərinə əsasən belə bir iddia irəli sürürük. Bizə görə sosial-koqnitiv yanaşma aşağıdakı ehtimallara əsaslanır: *Söhbət edən insanların sosial xarakteristikası və*

*onların danışıq və ya yazı tərzi arasında birbaşa təsadüfi əlaqə yoxdur. Əlbəttə ki, danışan və dinləyən subyektiv olaraq sosial situasiyaların sosial xarakteristikasını başa düşür, izah edir və ya təmsil edir. Bu da söhbəti və ya mətni başa düşüb qarşılıq verməsinə təsir edir*. Bizim fikrimizə əsasən, bu yolla sosial-koqnitiv paradiqma iki məqsədinə eyni zamanda çatır: o izah zamanı düzgün söz ehtiyatından doğru yerdə istifadə etməyə imkan yaradır və həmçinin kommunikativ situasiya zamanı aktiv olan sosial konsepsiyalara əsaslanmadan, kontekst haqqında danışmağa çalışarkən qarşılaşdığımız çətinlikləri başa düşməyə kömək edir. Kontekstin tərkibinə o anki zaman, yer, fiziki vəziyyət və mühit daxildir. Şərh və konsepsiya vasitəsilə kommunikasiya üçün müəyyən kontekst yaradılır. Bu həmçinin danışanın ifadə etdiyi məna ilə cümlə mənası arasındakı fərqdə də nəzərə çarpır.

Bu mental model epizodik hafizədə hər hansı bir cismin zehni təmsilolunması kimi müəyyən olunur. İnsanlar hər hansı diskursda iştirak edəndə, onlar həm söhbətə, həm də sosial situasiyaya uyğun gələn dinamik mental modellər yaradırlar. Belə modellər yaratmaq insana nə baş verdiyini başa düşməyə, danışma və dinləmə növbəsinə əməl etməyə və ya hər hansı bir hərəkəti icra etməyə kömək edir. Onlar iki növ mental model yaradırlar: semantik və praqmatik.

Burada T.Deykin fikirlərinin bir qisminin əlavə izaha ehtiyacı vardır. Məsələn, "kontekstin uyğunluğu". T.Deyk bildirir ki, bu sahib olduğun biliklə əlaqədardır. Bir şey mənə uyğun ola bilər, amma başqa birinə uyğun gəlməyə bilər. Bu tezis "kontekstin subyektivliyi" ilə birlikdə əldən ələ dolaşır [20, s. 13]. Bəzilərinə görə, kontekst hazır olmur, kommunikativ situasiyanın şəxsi, subyektiv başa düşülməsinin nəticəsidir, yəni kontekst şəxsi konsepsiyadır. Bizə görə, T.Deykin müşahidələri intuativ görünür. Çoxlu kommunikativ situasiyalar vardır ki, orada nisbi və mütləq elementlər əlaqələndirilir, subyektiv və obyektiv xüsusiyyətlər bir-biri ilə qarışdırılır. Fikrimizi sübut etmək üçün şifahi imtahanı düşünək. Fərz edək ki, sinifdə 15 tələbə və iki müəllim vardır. Onlar müəyyən bir fənnin müxtəlif bölmələrindən danışırlar. Bu on yeddi fərdin normal şəraitdə təxminedilən davranışları vardır. Hər tələbə öz mövzusunun qısa təqdimatını edir, müəllimlər fikir bildirib suallar verirlər, suallar cavablanır və tələbələr qiymətlərini alırlar.

Dil istifadəçiləri yalnız haqqında danışdıqları hadisə və situasiyaları yox, həmçinin iştirak etdikləri kommunikativ hadisələri də formalaşdırırlar. Dilin istifadəsi zamanı ortaya çıxan bu reflektiv və praqmatik ölçülər mental model nəzəriyyələrində kifayət qədər öyrənilməmişdir. Söhbət edərkən, mühazirəyə qulaq asarkən, qəzet oxuyarkən, televizor izləyərkən və ya müxtəlif dialoqlara qoşularkən dinləyici əqli cəhətdən düşünür. Buna görə də təklif edirik ki, belə təsadüfi söhbətlər modellərin xüsusi bir növü kimi konseptuallaşdırılsın. Çünki konteks modellerinin strukturu və funksiyası daim inkişaf edir. Onlar digər modellər ilə oxşarlığa malik olmalıdır. Kommunikativ hadisə və ya situasiya, daha dəqiq desək, kontekst insanların iştirak etdiyi digər hadisələr modellərindən fərqli deyil. Bu vəziyyətdə danışanlar özlərini nitq iştirakçıları kimi təmsil edirlər və onların cəlb olunduğu hərəkət isə diskurs tərəfindən təyin edilir. Yəni Quruluş (məkan,zaman), Şərait, İştirakçı və Hərəkət kimi model sxemlərin kateqoriyaları kommunikativ situasiya və ya kontekst quruluşlarının əqli əvəzedicisini müəyyən edir. Kontekst aşağıdakı əsas kateqoriyalardan ibarətdir:

- Quruluş: kommunikativ hadisənin yeri və zamanı
- Sosial mühit: sosial situasiya
- Yaradılmış şərait
- Ünsiyyətin məqsədi
- İştirakçılar, onların sosial rolu
- İştirakçılar arasındakı o an mövcud olan (situasiyadan aılı olaraq) münasibət
- İştirakçılar arasında ümumiyyətlə mövcud olan (situasiyadan asılı olmayaraq) münasibət
- İştirakçıların kateqoriyaları (yaş, cins və s.)

Əvvəla, bunlar göstərir ki, niyyət, məqsəd kimi diskursun və kommunikativ hadisələrin görünən elementlərini təhlil etmək üçün artıq nəzəri bir strukturumuz var. Amma qeyd etməliyik ki, kommunikativ hadisənin mental modeli kommunikativ hadisənin nəzəri təhlili ilə eyni deyildir. Kontekst modelləri təsadüfi və şəxsidir, bu səbəbə görə də kommunikativ hadisə və kontekstin şərhi də subyektivdir. Yəni danışan tərəflərin iştirak etdiyi hadisənin oxşar və ya fərqli modelləri olacaqdır. Amma onların kontekst modelləri nəzəri cəhətdən tək və fərqlidir. Çünki onların baş

tutan söhbətə münasibətdə müxtəlif məqsədləri, perspektivləri, biliyi və fikri var. Yazılı ünsiyyətdə bu daha qabarıq şəkildə nəzərə çarpır. Söhbət zamanı qarşımıza çıxan çətinliklər münaqişə kontekst modelinə əsaslana bilər, bu zaman danışıqları strateji cəhətdən idarə etmək zəruridir. Çünki kontekst modelləri daim dəyişir. Xüsusilə qeyri-iradi yaranan söhbətlərdə tərəflər qarşı tərəfə nəzarət etməli və kontekstin müxtəlif elementlərini nəzərə almalıdır. Bundan sonra kontekst modellərini səriştəli və müvafiq şəkildə uyğunlaşdırmalıdır. Söhbət zamanı kontekst modelləri dayanmadan dəyişir, yenilənir, razılaşdırılır, etiraz edilir və interaktiv şəkildə idarə edilir. Nəticədə yaradılan söhbət qarşılıqlı şəkildə danışanların kontekst modelləri ilə əlaqəli olur.

Əgər güman etsək ki, kontekst modelləri hadisə modelləri ilə eyni təməl quruluşa malikdir, onda strateji cəhətdən diskurs prosesi (söhbət, yazı, oxu) zamanı belə bir struktur yaradılır. Biz belə modelin düşünmə prosesi zamanı necə istifadə edildiyini bilməliyik. Çünki diskursun əvvəlki hissələrinə aid olan məlumat sonrakı üçün uyğun olmaya bilər. Biz ehtimal edə bilərik ki, kontekstin və mental modelin mürəkkəbliyi uyğun kontekst amillərini izləməyə imkan vermir. Amma bu zaman əhəmiyyət və uyğunluq faktoru ortaya çıxır. Onlar bizə diskursun makrosemantikasından xəbər verir.

Kontekst modelləri təcrübə modellərinin də xüsusi bir növüdür. Onlar iştirak etdiyimiz digər gündəlik situasiyaların bir hissəsi olan kommunikativ situasiyaları təmsil edirlər. Səhər yeməyində, iclasda, işdə və s. yerlərdə yaranan söhbətlər buna nümunə ola bilər. Çünki situasiyanın digər elementlərindən fərqli olaraq kontekst modelləri davam edən hərəkətləri təmsil edir, ona görə də dinamikdirlər. Onlar dayanmadan mövzu və ya söhbət zamanı yenilənirlər. Kommunikativ hadisədəki müxtəlif iştirakçıların hər birinin həmin situasiyanı şərh edən öz kontekst modeli var. Diskursiv ünsiyyət və əlaqə ancaq belə modellər qismən ortaq olanda,sinxronizasiya ediləndə və razılaşdırılanda yarana bilir. Çünki iştirakçılar bir-birinin modellərini birgə yaradıb, davamlı yeniləyirlər. Danışanlar dinləyənlərin kontekst modellərinin bir qisminə malik ola bilərlər və ya əksinə. Bir-birinin modelləri haqqında belə qarşılıqlı informasiya nəzəri cəhətdən qeyri-müəyyəndir, amma təcrübədə

kontekstual uyğunluq yaradır və bu yolla söhbət qarşılıqlı olaraq baş tutur. Kontekst modelləri digər təcrübə modelləri kimi eyni sxematik quruluşa malikdir, lakin xüsusi kateqoriyalar və kommunikativ situasiyalar ilə uyğunlaşırlar. İndiyə qədər bu kateqoriyalar diskurs analizlərində (məsələn, yas, cins, etnos, sinif, rol, güc, məqsəd və ya inanc, eləcə də zaman, yer və şərait) qismən araşdırılıblar.

Biz sosial situasiyaların mürəkkəbliyini və kontekstlər arasındakı fərqləri göstərmək üçün kontekstlərin yaranması və dərkedilməsini diskurs funksiyaları və onların quruluşlarına təsir edən sosial situasiyaların təməli kimi qəbul edirik. Bu halda uyğunluq şəxsi və ya sosial ola bilir, eyni zamanda bu uyğunluq mövcud olan kontekst modeli ilə müəyyən edilir. Yəni kontekstin əsasını təşkil edən yaş, etnik mənsubiyyət, cinsiyyət və ya oxşar sosial xüsusiyyətlər deyil, əsasən ünsiyyətdə iştirakçılar tərəfindən uyğun görülən və ya düşünülən sosial əsaslı və əqli cəhətdən təmsil edilən mental modellərdir. Nəticədə eyni cinsiyyət, yaş, sosial xüsusiyyətlərə malik insanlar fərqli kontekst modellərinə sahib ola bilərlər. Çünki uyğunluq kriteriyası sadəcə sosial yönümlüdür. Bu uyğunluq sosial qaydalar və strategiyalar ilə əsaslandırılırlar.

Sosial situasiyanın nəzəri cəhətdən qeyri-müəyyənliyi, mürəkkəbliyi və kontekst modelləri arasındakı fərqləri göstərmək üçün istifadəçilər fikirlərini yaranan diskursda sosial situasiyaların həmin xüsusiyyətləri üzərinə cəmləşdirməyi öyrəniblər. Onlar bilir ki, rəsmi diskurs xüsusiyyətləri danışanların saç rənginə və ya boyuna görə deyil, yaş və ya cinsiyyətinə görə fərqlənə bilirlər.

Əlavə olaraq, səmərəli ünsiyyət və strateji düşünmə müvafiq situasiyanın xüsusiyyətlərinin sayının nisbətən az olmasını tələb edir.

Kontekst modellərinin quruluşu**.** Biz diskurs tədqiqatları və psixologiyada kontekst üzrə aparılan araşdırmaların əksinə olaraq şərti olaraq qəbul edirik ki, kontekst modelləri aşağıdakı sxematik kateqoriyalar vasitəsilə yaranır:

I. Mühit

II. Vəziyyət

III. Quruluş

1. Zaman

2. Məkan

2.1. Səhnə

3. Şərait

IV. Hadisələr

1. İştirakçılar

1.1. Rollar

1.1.1. Sosial rollar

1.1.2. Qarşılıqlı rollar

1.1.3 Kommunikativ rollar

2. Hərəkət/diskurs

2.1. Hərəkətin növü, janr

3. İdrak

3.1. Məqsəd

3.2. Bilik (məlumat)

3.3. Rəy (fikir)

3.4. Hisslər

Bu nümunəvi sxemin məqsədi sosial situasiyanın mürəkkəbliyini azaltmaq və dil istifadəçilərinə diskursun yaranması və dərk edilməsini kontekstləşdirməyə kömək etməkdir. Əvvəllərdə də qeyd etdiyimiz kimi, hər kateqoriyanın daxiledilmə meyarı müvafiq bir dil və ya mədəniyyətə əsasən uyğunluq nöqteyi-nəzərindən müəyyən edilir. Diskursun xüsusiyyətləri sxemin hər kateqoriyası üzrə yerləşdirilən məlumata görə fərqlənir

Sxem dörd əsas komponentdən ibarətdir: mühit, vəziyyət, quruluş və hadisə. Bu dörd əsas komponent kontekst modellərinin yaranmasını tənzimləyir. Onlardan Quruluş və Hadisə bəzi alt qruplara bölünür. Sxemi belə oxumaq mümkündür:

Kommunikativ situasiya sosial mühitin əsas hissəsidir və məkan-zaman quruluşunda çoxlu hadisələrdən ibarətdir. Bu hadisələrin hər biri müxtəlif rolları, əqli xüsusiyyətləri (məqsəd və məlumat) olan iştirakçılardan ibarətdir. Bu iştirakçılar müxtəlif işlərlə məşğul olurlar və bu da onların hərəkətlərinə təsir edir. Çünki hərəkətlərin fərqli növləri və ifadə etdiyi müxtəlif mənaları vardır. Hərəkətlər

kontekst olaraq sosial situasiyanın izahı üçün çox vacibdir. Bu sxemin sadəliyi bir faktı nəzərdən qaçıra bilər ki, hər kateqoriyanın özü olduqca mürəkkəb fikirləri əhatə edə bilir. Çünki kontekst modelləri təcrübə modellərinin xüsusi bir növüdür. Onlar iştirakçıların mürəkkəb şəxsi modelləri ola bilirlər. Belə iştirakçı modelləri insanların özləri və digərləri haqqında malik olduqları ümumi bilikdən yaranır.

Amma burada ehtimal edilir ki, nitqdə işlək kontekst modelləri yaratmaq üçün tərəflər a) iştirakçıların şəxsiyyətləri b) davam edən hərəkətləri, c) özlərinin o ankı düşüncələri, həmçinin situasiyadakı digər iştirakçıların fikirləri haqqında müəyyən məlumata sahib olmaları, eləcə də quruluşun məkan, zaman, şərait kimi xüsusiyyətlərini bilmələri kifayətdir. Qeyd etməliyik ki, insanların ünsiyyət saxladığı sosial situasiyanın zənginliyi üçün başqa kateqoriyaların da sxemə daxil edilməsi təklif edilə bilər. İştirakçılar həmin situasiyada qeyd edilən fikir ilə artıq tanış və ya xəbərdar ola bilər və bu zaman onu deyiktik ifadələr ilə qarşıdakının nəzərinə çatdıra bilərlər. Verilən sxem ilə istənilən kontekst modelini asanlıqla təhlil etmək mümkündür. Sxemə daxil edilən hər bir komponent söhbətin gedişinə və ifadə etdiyi mənaya təsir edən amillərdir. Məsələn, mühit olaraq evdə və ya universitetdə, zaman olaraq bayram və ya adi günlərdə, iştirakçı olaraq müdir və ya işçinin, müəllim və ya tələbənin, mühazirə və ya adi söhbətin əsasında yaranan kontekst modelləri eyni ola bilməz. Kontekst modelləri sxemini bilmək düzgün şəkildə ünsiyyət qurmağa və situasiyanı düzgün dəyərləndirməyə kömək edir.

Kontekst modeli sxeminin maraqlı tərəflərindən biri də odur ki, davam edən diskursun özü kontekst modelinin bir hissəsi olmalıdır. Çünki kontekst modelləri davam edən hərəkəti təmsil edir və diskurs belə hərəkətlərin xüsusi bir növüdür. O bütöv kommunikativ hadisə və ya situasiyanın əsas hissəsidir. Mətn və kontekst arasındakı ənənəvi fərq analitikdir, bunun səbəbi də kontekstdən çıxarılmış diskurs anlayışına əsaslanmasıdır. Beləliklə, diskursda söhbətin əvvəlki hissəsi indi deyilən və edilən hərəkətə təsir edən kontekst modelinin bir hissəsinə çevrilir. Söhbətin əvvəlində narazılıq baş veribsə, digər hissələrdə bu hiss edilir və nəzərə alınır. Bu mətnin təqdimatı ilə burada izah olunan kontekst modeli anlayışı arasındakı əlaqəni görtərir. Hər ikisi epizodik yaddaşda eyni zamanda və birlikdə yaradılır, həmçinin

daim yenilənirlər. Burada mətnin təqdimatının kontekts modellərinin bir hissəsi olması hadisə və kontekst modellərinin fərqləndiyini göstərmir. İnsanlar diskursdan aldığı məlumatlar ilə diskursun kontekstləşdirilmiş formasını fərqləndirirlər. Yəni biz nəzəri olaraq hadisə modellərində təsvir olunan şəxsi bilik və təcrübə ilə kontekst modellərindəki keçmiş kommunikativ hadisələrin xatirələrini fərqləndirməliyik. Axı bilik diskursdan fərqli vasitələr ilə də əldə oluna bilər. Əlavə olaraq, mənbənin unudulması və kontekstin pozulması kimi hallar da müşahidə oluna bilər. Çünki əslində bildiyimiz bir çox şeyi nə vaxt və necə eşitdiyimizi və ya oxuyub öyrəndiyimizi sonradan xatırlamırıq.

Kontekstual məhdudiyyətlər**.** Kontekst modellərinin diskursun yaranmasına və dərk edilməsinə necə nəzarət etdiyini başa düşmək üçün biz əvvəlcə onların hadisə modelləri və semantik təsvirləri arasındakı əlaqəni necə tənzimlədiyini bilməliyik. Hadisə modellərindəki kontekstual məhdudiyyətlər biz aşağıdakı sualları düşünməyə vadar edir:

1) Diskursa əlavə etmək istədiyimiz spesifik informasiya nə olmalıdır?;

2) Hansı məlumat diskurs üçün daha vacib və ya uyğundur?;

3) Anlama prosesində mətnin semantik təsviri bizə yazan və ya danışan insanın malik olduğu hadisə və ya kontekst modelləri haqqında nə deyir?;

4) Oxucu və ya dinləyicilər kontekst modelinin qurulmasına necə təsir edirlər?

Məsələn, fərziyyə bizə danışanın biliyi haqqında nəsə deyir, eyhamlar danışanın bəzi kontekstual məhdudiyyətlərə görə (mentalitet, dini qadağalar, nəzakət qaydaları, ilkin təəssürat, yalnış anlaşılma qorxusu və s.) açıq şəkildə demək istəmədiyi şeylər haqqında fikir yaradır. Burada müzakirə olunan kontekst və təcrübə modellərinin fərqli parametirləri ilə tanış olduqdan sonra, indi biz hadisə modelləri və diskursun mənası arasındakı kontekstual məhdudiyyətlərin əlaqələrini nəzərdən keçirəcəyik. Bunun üçün mətbuatda yeni diskursların yaranması və dərkedilməsi prosesinə xüsusi fikir verəcəyik. Çünki ən çox onlar mövzunu əhatə edir.

Təəssüf ki, xəbərlərin hazırlanmasında kontekst modellərinin rolu üzrə çox az araşdırma aparılmışdır. Xəbər yayımı üzrə ədəbiyyatların böyük hissəsi onun sosial və praktik aspektlərindən bəhs edir. Əlbəttə, belə məlumatlardan xəbərlərin

jurnalistik kontekst modelləri nəzəriyyəsi və xəbər diskursu ilə əlaqəsini başa düşmək üçün istifadə edə bilərik. Xəbərlər üçün yazılan yazılar əsasən diqqəti anlama və dərketmə məsələlərinə yönəldir. Amma bu yazıların bəziləri mental modellərə aiddir, buna görə də kontekst modelləri tərəfindən necə nəzarət edildiyini göstərmir. Hekayənin başa düşülməsi üzrə olan yeni bir araşdırma hadisə modellərinin qurulma şərtlərindən açıq şəkildə bəhs edir. Qeyd etməliyik ki, biz kontekst modellərinin hadisə modelləri tərəfindən verilən məlumatı diskurs mənaya çevirməsi yollarına nəzər yetirəndə, görürük ki, bu koqnitiv anlamaya təsir edən bir proses kimi başa düşülməlidir. O jurnalistə məqalə yazarkən xəbər üçün hadisə modelinə uyğun məlumat seçimi etməsinə kömək edir. Beləliklə, journalist oxucuların kontekst modellərini təxmin edərək onlara maraqlı gələcək faktları xəbərə daxil edir. Anlamada isə oxucunun kontekst modeli mətndəki müvafiq məlumatların hadisə modeli ilə birbaşa əlaqəsini müəyyənləşdirir. Oxucunun kontekst modeli hansı məlumat və ya faktların dəqiq, hansının ehtimal olduğunu və jurnalistin verdiyi məlumat, fikir və ya digər faktlardan hansı nəticələrin çıxarıla biləcəyini göstərir.

Gəlin kontekst modelləri sxeminə əsasən xəbərlərin hazırlanması zamanı xəbər diskurslarının semantik mənanı məhdudlaşdırmasına və idrak prosesində hadisə modellərinin qurulmasına nəzər yetirək.

Xəbərin yazılmasında və şərh edilməsində iştirak edib modelləri idarə edən əsas kateqoriya media və ya kütləvi kommunikasiya kimi səciyyələndirilir. O mühiti (qəzet oxuma, televizor izləmə), iştirakçıları (jurnalistlər, oxucular), janrları (xəbər əyləncə, söhbət proqramları və s.) və başqa amilləri tənzimləyir. O, iştirakçılara xəbər proqramında ifadə olunan hadisə modelinin ictimailəşmə məqsədi ilə paylaşıldığını bildirir. Bu o deməkdir ki, burada bəzi məlumatlar qaranlıq qala bilər. Çünki hazırlıq prosesində müxbirlər tərəfindən hadisə haqqında hansı məlumatın xəbər dəyəri olduğu, ictimai cəhətdən uyğun və ya maraq kəsb etdiyi, hansı məlumatın isə yarasız olduğu müəyyən edilir. Daha dəqiq desək, xəbərlər, söhbət proqramları, komediya və ya məqalə kimi kommunikativ hadisələrin növü haqqında kontekstual məlumatlar iştirakçılara bu janrların hansı xüsusi kommunikativ funksiyalara malik olduqlarını və hadisə modeli məlumatının nə rol oynadığını göstərir, həmçinin həmin funksiyanı

həyata keçirmək üçün uyğun olub olmadığını da bildirir. Məqalədə işlənən ifadələri buna nümunə göstərə bilərik. Bu sözlər və ifadələr redaktorun hadisə haqqında şəxsi fikirləridir və onun tərəfindən seçilir, lakin hadisənin detalları haqqındakı məlumatı göstərmir. Ümumiləşdirsək, janr məlumatları xüsusi mövzuları və onlara uyğun olaraq informasiya seçimini tənzimləyir. Amma bu belə hər kəsin xəbərləri fərqli başa düşməsinə mane olmur. Peşəkar yanaşma ilə insanları yönləndirmək mümkündür. Doğru qurulmuş bir sistem sosial rolundan və biliyindən asılı olaraq, bu məlumatları qəbul edən tərəfə öz təqdim etdiyi faktların daha inandırıcı və doğru olduğunu düşündürə bilər və ya əksinə. Məhz bu səbəbə görə jurnalistlərin və mətbuatın cəmiyyətdə rolu və təsiri böyükdür.

Kontekstual zaman kateqoriyası xəbərin hazırlanmasında böyük rol oynayır. O, yeniliyi xəbərlərin əsas xüsusiyyəti kimi təqdim edir, buna görə də xəbərin çatdırılma vaxtı və ya zamana görə hadisə ardıcılığı oxucunun dərketmə prosesinə və fikirlərinə təsir edir. Məhz bu səbəb görə, onlar ən son xəbərlər, köhnə xəbərlər və ikinci dərəcəli xəbərlər olaraq ayrılıb xəbərin strukturunda semantik məzmunun əsasını formalaşdırırlar. Oxşar şəkildə xəbəri oxumanın vaxtı da burada əhəmiyyət kəsb edə bilər. Zaman kateqoriyasının əhəmiyyətini nəzərə alaraq səhər qəzeti və ya gecə proqramları kimi anlayışlar yaradıblar.

Oxşar hal məkanın kontekstual kateqoriyası üçün də edilib. Buna əsasən yerli, milli və beynəlxalq kimi geniş xəbər kateqoriyaları yaradılıb. Aparılan araşdırmalar göstərir ki, hadisələrin coğrafi yaxınlığının həmişə xəbər dəyəri olub. Biz oxucu olaraq daha yaxın və ya daha uyğun olan hadisələr haqqında mümkün qədər çox xəbər və təfsilat gözləyirik. Yaşadığımız bölgədə bir cinayət baş verdiyini və ya qonşu dövlətdə müharibə başladığını düşünün. Məkan kateqoriyası hadisələrin məkan perspektivlərini müəyyən edir. Burada məkan anlayışı fiziki və ya mənəvi ola bilər.

Müxbirlər xəbərin janrından asılı olaraq hadisələri çatdırmaq üçün müxtəlif yollardan istifadə edirlər. Onlar hadisəni özlərinin, şahidlərin və ya başqa iştirakçıların nöqteyi-nəzərlərindən təsvir edərək diqqəti cəlb etməyə çalışırlar. Onlar həmçinin bir qrup xəbər iştirakçısının (məsələn, polis) tərəfini tutaraq, qərəzli münasibət də göstərə və insanları səhv yönləndirə bilərlər. Bunun səbəbi hadisəni

özününküləşdirmək və ya sadəcə daha çox diqqət çəkmək üçün də ola bilər.

Vəziyyət kateqoriyası xəbərdə verilən məlumatların və onların hadisə modellərinin davam edən sosial və siyasi hadisələrə uyğun olmasını tələb edir. Məsələn, tətil zamanı həm jurnalistlər, həm də oxucular tətil haqqında yazmaq və ya oxumaq istəyərlər. Bu da onu göstərir ki, vəziyyət kateqoriyası aktual xəbər diskursunun ifadə etdiyi fikirlərə, semantik təsvirin strukturuna eləcə də, belə fikirlərin qəzetdə, proqramda və ya internet səhifəsində ifadə olunması məsələlərinə görə xüsusi hadisə modeli məlumatının daxil edilməsinin zəruriliyini tənzimləyir. Hadisə haqqında bildiklərini yazarkən insanlar az və ya çox dərəcədə öz rollarından xəbərdar olurlar: yazıçı və ya aparıcının kommunikativ rolu, jurnalist kimi peşəkar rolu, onların kişi və ya qadın olaraq sosial rolları. Çünki malik olduqları bu rollar, maraq dairəsi, təcrübə və ya ideologiyaları xəbər hesabatında bəzi ifadələrin seçiminə, nəyin xəbər dəyərinin olmasına və oxucu üçün nəyin maraq kəsb etdiyinə dair seçimlərinə təsir edir. Məsələn, Azərbaycanlı bir jurnalist ermənilər ilə bağlı hər hansı bir hadisəni çatdırarkən, onu milli mənsubiyyət nöqteyi-nəzərindən təqdim edə bilər.

Oxucular jurnalistlərin kontekst modellərindən istifadə edərək xəbərin ifadə etdiyi mənadan onun etibarlılığı və ya siyasi yönümü haqqında nəticə çıxarıb, həmin jurnalistlərin hadisə modeli haqqında qərəzli və ya qərəzsiz fikir ifadə etdiyini təyin edə bilərlər. Belə bir nəticəyə gəlinib ki, qara dərili oxucular ağ dərililərdən daha çox vətəndaş hüquqları məsələlərinə maraqlıdırlar və bu maraq onların xəbəri uyğun modellər ilə şərh etməsi yollarına təsir edir. Nəhayət, bu hamı tərəfindən qəbul edilib ki, sosial sinif, təhsil və bilik səviyyəsi arasındakı fərqlər xəbər seçimində və onun başa düşülməsində böyük rol oynayır. Qeyd edək ki, bu sosial qruplaşdırma deyil, xəbərin başa düşülməsi prosesi üçün uyğun olan sosial quruluş və şəxsi modelləşdirmədir. Belə ki, çoxlu kontekstlərdə kişilər və qadınlar, ağdərili və qaradərililər, gənc və qoca insanlar xəbərləri başa düşərkən müəyyən qrupa xas oxşarlıq deyil, şəxsi müxtəliflik göstərirlər. Daha ümumi desək, medianın başa düşülməsi üzrə aparılan son tədqiqatlar daha çox auditoriyanın müstəqil interpretativ rolunu, onların şəxsi, sosial və mədəni maraqlarını, əlaqə və məqsədlərini

vurğulayırlar. Yəni yaşından asılı olmayaraq çox gənc bir insan da siyasi xəbərlərə maraq göstərə bilər. Bu yenə də xəbərin şərhedilməsində kontekst modellərinin rolunun vacib olduğunu göstərir.

Başqa sözlə, biz şəxsi kontekst modellərini bir qrup tərəfindən təmsil olunan ümumi və qeyri-müəyyən mental düşüncə ilə əvəzləyə bilmirik. Xəbər və kütləvi informasiya vasitələrində sosial münasibətlər çox aydındır. Sübut və faktlara əsaslanan peşəkar jurnalistlər hadisəyə dair hansi məlumatların xəbərə daxil ediləcəyinə, hansı fikir və ya tənqidlərin ifadə ediləcəyinə, oxucu tərəfindən hadisə modellərin quruluşunda hansı xəbərlərin etibarlı olaraq qəbul ediləcəyinə dair məsələləri əvvəlcədən təxmin etməyə çalışırlar. Kontekst modelləri jurnalistlərin belə əlaqələri necə şərh etdiyini və xəbər diskursunun mənasını ifadə edərkən onlardan necə istifadə etdiklərini göstərir. Onlar oxucunun biliyi və maraqlarına, hadisələrin xəbər dəyərinə, jurnalistlərin yazdıqları xəbər diskursunun semantik mənasına uyğun olan hadisə modelləri məlumatlarının daxil edilməsini nizamlayan ən təsirli kontekstual kriteriyadır.

Mental model nəzəriyyəsi və onun diskursun quruluş və strategiyaları ilə əlaqələri məsələsində çatmayan bir həlqə var. Dil istifadəçiləri sadəcə hadisə modelləri və haqqında danışdıqları situasiyanı formalaşdırıb yeniləmirlər, həmçinin iştirak etdikləri kommunikativ hadisəni də formalaşdırırlar. Dil istifadəsinin bu deyiktik, reflektiv və praqmatik ölçüsü mövcud psixoloji model nəzəriyyələrində yoxdur. Söhbət, mühazirə, həkim-xəstə ünsiyyəti, qəzet oxuma və ya televizor izləmə zamanı iştirakçılar qarşılaşdıqları belə hallara zehni olaraq nəzarət edirlər. Məsələn, onlar hərəkətləri planlaşdırır, icra və idarə edir və ya deyilən fikri başa düşməyə çalışırlar. Deməli belə davam edən, davamlı yenilənən epizodik təsvirlər modellərin xüsusi bir növü olaraq konseptuallaşdırılmalıdır.

Kontekst modellərinin strukturu və funksiyaları sadədir. Bu quruluşlar hər hansı bir modelə oxşar olmalıdır. Bunlardan əlavə, kommunikativ hadisə və ya situasiya, yəni kontekst insanların iştirak etdiyi hadisə və ya hərəkətdən çox da fərqli ola bilməz. Bu vəziyyətdə tərəflər özlərini nitq iştirakçıları kimi təqdim edirlər və cəlb olunduqları fəaliyyət də həmin diskursdan, şifahi ünsiyyət və ya nitq aktlarından

ibarət olur. Yəni model sxeminin quruluş, vəziyyət, iştirakçı və hərəkət kimi kateqoriyaları kontekstin və ya kommunikativ situasiyanın zehni tərəflərini müəyyən edirlər.

Kontekst aşağıdakı əsas kateqoriyalardan ibarətdir. Model kimi onların daxili sxem quruluşu belə verilmişdir:

Quruluş: məkan, kommunikativ hadisənin zamanlaması

Sosial vəziyyət: əvvəlki hərəkət, sosial situasiya, institusional mühit, qarşılıqlı əlaqənin ümumi məqsədləri, iştirakçılar, onların sosial və danışıq rolları; İştirakçılar arasında mövcud münasibətlər; İştirakçılar arasında ümumi münasibətlər; Qrup üzvlüyü və ya iştirakçıların kateqoriyası (cins, yaş).

Bu da onu göstərir ki, əvvəla bizim diskurs və kommunikativ hadisələrin məqsəd, niyyət kimi görünən elementlərini təhlil etmək üçün nəzəri bir çərçivəmiz var. Qeyd etməliyik ki, kommunikativ hadisənin mental modeli nəzəri analizlər ilə eyni deyildir. Kontekst modelləri epizodik və şəxsidir, eyni zamanda kommunikativ hadisənin və ya kontekstin subyektiv şərhi və nəticəsidir. Yəni nitq iştirakçıları iştirak etdikləri hadisənin oxşar və ya eyni modellərinə malik olacaqlar, ancaq onların kontekst modelləri digər modellərdə olduğu kimi nəzəri və praktik cəhətdən tək və fərqlidir. Nitq iştirakçılarının davam edən mövzu və ya söhbət üzrə müxtəlif məqsədləri, perspektivləri, biliyi, fikri və s vardır. Yazılı ünsiyyətdə bu daha aydın olaraq görünə bilər.

Yazıçıların və oxucuların quruluş kateqoriyasında müxtəlif məlumatlara malik fərqli modelləri vardır. Həqiqətən, söhbətdəki müntəzəm çətinliklər ziddiyyətli kontekst modellərinə əsaslanır və nitqlə belə ziddiyyətləri strateji olaraq idarə etmək mümkündür. Hadisələrin mental modellərinə nəzərən kontekst modelləri daha çox dəyişir. Xüsusilə spontan söhbətlərdə iştirakçılar daim digər iştirakçılara nəzarət etməli, müvafiq, müvəffəqiyyətli şəkildə söhbətdə iştirak etmək üçün kontekstin digər elementlərinə və qarşıdakı insanların kontekst modellərinə uyğunlaşmalıdırlar.

Kontekst modeli müntəzəm və davamlı olaraq yenilənir, qurulur, pozulur və interaktiv şəkildə idarə olunur. Həqiqətən, ünsiyyət əsnasında edilən söhbətin çox hissəsi iştirakçıların kontekst modellərinin qarşılıqlı idarəsi ilə əlaqəli şəkildə həyata

keçir. Yazılı ünsiyyətdə bu təsir fərqli formada olur. Məsələn, yazıçıların oxucunun kontekst modellərini idarə etmək üçün istifadə etdiyi strategiyalar: janr göstəriciləri, kommunikator kimi özünü təsvir, kontekst və ya nitq aktının açıq izahı, məqsəd və ya niyyətini açıqlama, oxucudan əməkdaşlıq və ya kömək istəyi və s. Bu strategiyaların çoxu çoxdan bilinir. Əgər biz güman etsək ki, kontekst modelləri hadisə modelləri ilə eyni əsas struktura malikdir və belə struktur strateji cəhətdən diskurs yaranmazdan əvvəl qurulur və diskurs zamanı da yenilənir, o zaman biz yenə də belə modelin söhbət zamanı necə istifadə olunduğunu bilməliyik.

Diskursun əvvəlki hissələrindəki bütün məlumatlar fərqli olsa da, sonrakı anlama prosesi üçün faydalı olur. Biz iddia edə bilərik ki, kontekstin və onun mental modelinin mürəkkəbliyi insanlara bütün müvafiq kontekst amillərini izləməyə imkan vermir. Bu da onu göstərir ki, uyğunluq və əhəmiyyət anlayışları məsələyə daxil olur. Bu anlayışlar diskursun makrosemantikasına daxildir.

Ona görə də dil istifadəçiləri əvvəlcə kontekstin mikrodetallarını götürür, sonra kontekstin davam edən amillərini təsvir edən makrokonsepsiyalardan ümumi nəticə çıxarırlar. Makrokonsepsiyalara bunlar daxildir: nitq aktı, janr, ümumi quruluş məlumatı, əsas iştirakçılar və ünsiyyətin ümumi məqsədi. Bu iştirakçılara diskursun geri qalanında yerli kontekst detallarına fikir verməməyə və diqqəti vacib olan nöqtəyə yönəltməyə imkan verəcəkdir. Problem yarananda və ya detallara xüsusi diqqət yetirmək ehtiyacı yarananda, kontekst modelləri çox əhəmiyyət kəsb etməyən detallar üçün yenidən aktivləşir.

Əlavə olaraq, dil istifadəçiləri kontekstin xarakteristikasına ətraflı və diqqətli fikir vermək əvəzinə, kontekst məlumatlarını instinkt olaraq emal edə bilir, amma onlar bunu fərdi xüsusiyyətlər və kontekst fərqliliklərindən asılı olaraq edirlər. Bütün bunları nəzərə alaraq ehtimal edirik ki, kontekstlər adətən ilkin olaraq makrosəviyyədə qəbul və istifadə olunurlar. Bu makrosəviyyəli məlumatlar diskurs yarananda tədricən yavaş-yavaş, amma kontekst haqqındakı mikrosəviyyəli məlumatlar o yarandığı vaxt artıq birbaşa əlavə olunur.

Başqa məsələ isə onlar arasında əlaqə və müxtəlif kontekst modellərinin inteqrasiyasıdır. Nəzəri olaraq onlar bir-birindən ayrı və fərqli anlayışlar kimi qəbul

edilmişdir. İnsanlar şüurlu şəkildə daim fərqli kontekst modelləri qururlar. Kontekstlər müvəqqəti olaraq davam edir və quruluş cəhətdən də əlaqəli olurlar. Zaman, məkan, iştirakçılar və bu modellərin hərəkətləri adətən üst-üstə düşürlər. Bütün bunlara baxmayaraq, bu həm də dəqiq zehni modelləşdirmənin funksiyalarından biridir. Onun vəzifəsi hadisələr davam edərkən hərəkət və həmin hadisələr oxşar olarsa, oradakı fərqli olan detalları şərh etməkdir. Yəni insanlar özü söhbət və ya qəzet oxuma hərəkətini müəyyən qədər ayrıca bir hadisə kimi icra edirlər. Onların iştirak etdiyi diskursun bölüşdürülməsi üçün lazım olan müvafiq meyarlara nümunə olaraq davam edən hərəkətləri (Mən X ilə indi Y-nın otağında söhbət edirəm və ya mən indi Y-nın otağını tərk edirəm və s.*)* və müxtəlif kontekstual dəyişiklikləri (fərqli məqsəd, fərqli zaman, fərqli məkan, fərqli iştirakçılar və *s.*) göstərmək olar. Lakin eyni kontekst daxilində bizim alt kontesktlərimiz ola bilər. Məsələn, müxtəlif funksional hissələri olan bir iclas, məkhəmə və s.

Biz fikirləşirik ki, modellərin əlaqəsi və uyğunluğu adi mücərrəd qaydalar ilə tənzimlənir, amma inteqrasiyası makroabstraksiya ilə baş verir. Quruluş, iştirakçılar və hərəkətlərin uzlaşması isə daha yüksək səviyyədə, konteksti təşkil edən abstrakt fikirlərlə əks olunur. Yuxarıda gördüyümüz kimi modellərin idarə olun makrotrukturlarında kontekstual detalların azaldılması üçün əsas iştirakçılar, hərəkətlər, quruluş və s. lazımdır.

Bütün mental modellər, eləcə də kontekst modelləri əhəmiyyətli mühakimələri və ya fikirləri göstərirlər. Nitq iştirakçılarının adətən hər birinin mövzu və ya söhbət, eləcə də kontekstin digər xüsusiyyətləri (zaman, yer, vəziyyət və s.) haqqında müəyyən fikirləri vardır. Bu səbəbə əsasən kommunikativ münaqişələr davamedən söhbət və ya həminki mövzu haqqından zidd gələn fikirlərə görə baş verir və problemi həll etmək sadəcə danışma prosesini davam etdirməklə mümkün ola bilər.

Kommunikativ modellərin əlaqəli olduğu ümumi bilik və informasiya mövcud olduqda, bu fikirlər ümumi, sosial cəhətdən paylaşılan fikirlər ilə uzlaşır. Bu zaman həmin fikirlər qrupun və üzvlərinin münasibət və ya ideologiyalarını təmsil edirlər. Müəllim və tələbələrin, həkim və xəstələrin, polis və şübhəlilərin, qadın və kişilərin

və s. iştirak etdiyi şifahi ünsiyyət prosesində onların fərqli dünyagörüşü, norma və dəyərləri, həmçinin fərqli münasibət və ideologiyaları ola bilər.

Nəhayət, epizodik hafizənin funskiyaları və quruluş nəzəriyyəsi daxilində mətn təqdimatının (və ya mətn modellərinin*)* konteskt modellərinin bir hissəsi olduğunu fərz edəcəyik. Mətnin təqdimatı üzrə aparılmış ilkin araşdırmalarda bu münasibət və mətn təqdimatlarının epizodik xüsusiyyətləri hələ tam müəyyən edilməmişdir. Halbuki mətn təqdimatlarının kontekst modelləri çərçivəsində təhlil edilməsi üçün yaxşı səbəblər var. Əgər bir kontekst modeli bütöv kommunikativ hadisənin təsviri, mətn və ya söhbət o hadisənin bir hissəsidirsə, onda deməli diskurs kontekst modelinin bir hissəsidir. Həqiqətən, bir çox situasiyalarda kommunikativ hadisənin məqsədi müvəffəqiyyətli bir ünsiyyətə nail olmaqdır. Ona görə ünsiyyətin məqsədləri onun özündən ayrı şəkildə təsvir edilə bilməz. Bu qayda həm şifahi, həm də yazılı ünsiyyətə aiddir və bunun əksini göstərən heç bir fakt yoxdur.

Qeyd edilməlidir ki, mücərrəd mövzulu mətn təqdimatlarından fərqli olaraq, biz burada inkişaf edən, dəyişən fikirləri göstərməliyik. Çünki o davamedən canlı söhbətin məhsuludur, yazma, oxuma və ya dinləmə zamanı yaranır.

Bu konsepsiya mətn emalına strateji yanaşmamızın təbii bir təsiridir. Diskurs danışan, yazan, həmçinin məlumat alan tərəf vasitəsilə tədricən həyata keçirilir və kontekstin tərkib hissəsidir. Hər ikisinə kontekstin amilləri təsir edir, həmçinin onlar da kontekstə təsir edir və onu təyin edir. Bu o deməkdir ki, həm keçmiş, həm də o ankı mətn kontekstin bir hissəsinə çevrilir və bütün iştirakçılar üçün əlçatan olur.

Fikirlər iştirakçılar tərəfindən təqdim edildiyi üçün mətn və kontekstin yaxın əlaqəsini və inteqrasiyasını vurğulayır. O an deyilən fikir həm yaranmaqda olan mətnin, həm də kontekstin bir hissəsi olur. Nümunə olaraq iştirakçılar tərəfindən birgə bilinən, paylaşılan və icra edilən hərəkətləri göstərə bilərik. Hərəkətlər kontekstlə əlaqəli olmasa, başa düşülməz. Hətta səhv icra edilən jestlər və mimiklər deyilən fikrin səhv başa düşülməsinə səbəb olar bilər. Məhz bu səbəbə görə siyasətçilər bədən dilini öyrənməyə cəhd göstərir və ictimai nitqlərdə onu tətbiq etməyə çalışırlar. Əgər bu əlaqə olmasaydı, gözlənilməz vəziyyətlərdə yaranan diskurslardan aldığımız məlumatlar anlaşılmaz olardı.

Mətnin təqdimatı və kontekst modellərinin əlaqəsi məsələsi mətn modellərinin kontekst modellərinin bir hissəsi olduğunu qəbul etməklə həll olmur. Əgər diskurs həmişə kontekstin bir hissəsidirsə, onda onların təqdimatları ilə də əlaqəlidir. Davam edən hərəkətlər üçün bunu nümunə göstərmək çətin olmaz. Nitq aktları nəzəriyyəsi davam edən hərəkət sırasını da əhatə edir. Bu zaman mətn və kontekst birləşir. Amma tərəflər deyilən və yazılan fikirlər üçün xüsusi bir model yaradırsa, onda biz asanlıqla birləşməyən və ya bütövləşməyən müxtəlif tipli diskurslar əldə edirik. Məsələn, nəzakətsizlik, hörmətsizlik müəyyən əvəzliklərdən istifadə edilərək sətiraltı təqdim edilə bilər:

- *I have already finished my dissertation thesis.*
- *You?*

Bu zaman dinləyici özünə qarşı olunan nəzakətsizliyi başa düşə biləcək, amma nəzakətsizliyin xüsusi şifahi ifadə vasitəsi olmadığı üçün ona eyni şəkildə qarşılıq verə bilməyəcək. Biz fikirləşirik ki, kommunikativ hadisələr özlərinin spesifik təqdimetmə formasına ehtiyacı olan xüsusi köməkçi hadisələrdən qurulurlar. Beləliklə diskurs iştirakçılar, məkan və ya zaman insanların o an nə etdiyindən və nə dediyindən, yəni sözlər, cümlələr və tələffüzlə təyin olun digər quruluşların ardıcıllığından asılı olaraq fərqli olacaqdır.

Kontekst modellərinin funksiyaları. Kontekst modelləri kommunikativ hadisələri idarə etmək üçün istifadə olunurlar. Onlar nitq iştirakçılarının bir-biri haqqında, o an oxunan və ya yazılan mövzu haqqında, kontekstin zaman, məkan, vəziyyət, məhdudiyyət və s. cəhətləri, eləcə də diskursun yaranması üçün uyğun digər situasiya amilləri haqqında niyyət, məqsəd, gözlənti, fikir və inanclarını təmsil edirlər. Kontekst modellərinin çoxlu kommunikativ funksiyaları vardır. Bu funksiyalar mövzu və diskurs strukturuna, eyni zamanda diskurs strukturları kontekst modellərinin məzmun quruluşuna təsir edə bilirlər. Biz diqqətimizi kontekst modelləri və diskurs strukturları arasındakı əlaqəyə yönəldəcəyik, həmçinin diskursun hər bir səviyyə və ya sahəsi (praqmatika, semantika, sintaksis) üçün bu strukturların kontekst modelləri məlumatları ilə necə məhdudlaşdırıldığını nəzərdən keçirəcəyik.

Kontekst modelləri hadisə modelləri və diskurs arasındakı əlaqə kimi. Kontekst modellərinin ilkin əsas funksiyası hadisə və ya situasiya modelləri, eyni zamanda diskurs arasında vasitəçilik etməkdir. Bu diskursun mental modelləşdirmə aspektlərindən biridir, ancaq diqqətdən kənar qalıb. Ümumiyyətlə, belə bir fikir formalaşıb ki, hadisə və ya situasiya modelləri danışılan və ya yazılan hadisə haqqında dil istifadəçilərinin məlumatını təmsil edir. Bu məlumat çox təfərrüatlı ola bilər, bunun səbəbi də ya danışanın öz müşahidə və təcrübələridir, ya da ümumi biliyin inteqrasiyasıdır. Ancaq bu biliyin sadəcə bir hissəsi söhbət zamanı ifadə olunur. Çünki dil istifadəçiləri söhbət zamanı öz fərdi və ya ictimai biliklərini diskursa əlavə etməyi bacarırlar. Bunun üçün diskursun çox açıq olmasına ehtiyac yoxdur. Tədqiqatçılar arasında belə bir deyim vardır ki, diskurs semantik cəhətdən aysberqin görünən və modellər isə gizli, görünməyən daha böyük hissələridirlər. Başqa sözlə danışıqda, eləcə də anlama prosesində modellər diskursun əsaslandığı məlumatlardan daha zəngin olurlar.

Diskurslar və onların modelləri arasındakı bu uyğunsuzluq belə çətinliklərin öhdəsindən gəlmək məsələsində açıq-aşkar problem yaradır. Məsələn, danışan öz başına gəlmiş bir hekayəni danışmaq istəyir, jurnalist siyasi bir hadisə haqqında yazır, alim tədqiqat işininin nəticəsini yazır. Onların hamısı zehni və praktik tapşırıq ilə qarşı qarşıyadırlar. Onlar haqqında danışılan hadisə barəsində hansı məlumatlara malikdir, bu məlumatlardan hansı ifadə olunacaq və hansı hissəsini mətn və ya diskursda verməyə ehtiyac yoxdur. Açıq–aşkar görünür ki, bu seçimlərə təsir edən strategiyalar danışanın və ya yazanın kontekst modelləri ilə təmin olunan məlumata əsaslanır.

Bu meyarları əks etdirən mühüm konsepsiya uyğunluqdur və sadə strategiya odur ki, mövcud kontekstə uyğun olan kontekst modellərindəki məlumatlar mövcud diskursda ifadə olunmalıdır. Amma qeyd etməliyik ki, uyğunluq geniş və nisbi anlayışdır, ona görə də kontekst strukturları baxımından təyin olmalıdır. Münasibliyin digər bir meyarı da dinləyicilərin ehtimal edilən biliyidir. Əgər Sahil **p** (hər hansı hadisə) (məsələn, p S-nin hadisə modelinin bir hissəsidir) haqqında bilir və düşünür ki, Həsən **p** haqqında bilmir, amma o **p** haqqında bilməlidir ya da

maraqlanmalıdır ki bilsin, bu zaman **p** diskursa daxil edilməlidir. Həqiqətən, bu sadə və aydın qayda söz azadlığı aktuallığının vacib şərti ilə oxşardır. Bu həmçinin göstərir ki, kontekst modelləri davam edən nitq aktlarını müəyyən edir. Buna görə də hadisə moellərinin semantik, kontekst modellərinin praqmatik rolu var.

İndi formalaşdırılan uyğunluq şərti ənənəvi nitq aktı nəzəriyyəsinin də bildirdiyi kimi adətən mücərrəd və normativ xarakter daşıyır. Biz diskurs və onun nəzəriyyələrinə əsasən düşünürük ki, gerçək natiqlər bu qaydanı bilir, amma çoxlu kontekstual səbəblərə görə həmişə onlara əməl etmirlər.

Biz daim insanlara bildikləri, bilmək istədikləri və istəmədikləri şeyləri deyirik. Beləliklə, dil istifadəçilərinin məlumat mübadiləsi etdikləri ünsiyyətin ənənəvi konsepsiyası onların danışarkən, yazarkən, dinləyərkən və ya oxuyarkən həyata keçirdikləri daha dəyişkən və realistik bir konsepsiya ilə əvəz olunub. Yəni buradan belə bir nəticə çıxır ki, qarşılıqlı ünsiyyət əlaqələrini idarə edən mental modellər daha mürəkkəb və qarışıqdır. Ona görə də nitq iştirakçılarının ortaq biliyi, onların marağı, sahib olduqları məlumatların əhəmiyyəti, iştirakçılar arasındakı sosial münasibət kimi səciyyəvi kontekst amillərini də diskursa daxil etmək zərurəti yaranacaqdır. Yuxarıda verilən qaydanı genişləndirək:

- **p** mövcud kontekstdə çox vacib məlumatdır (əhəmiyyət);
- **S**-nin **H**-ın **p** haqqındakı sahib olduğu məlumata xüsusi marağı var (s-maraqlar);
- **H** bilir ki, **S**-nın **p** haqqındakı məlumata xüsusi marağı var (H-maraqlar);
- **S** əmin olmaq istəyir ki, **H p** haqqında bilmir (xatırlatmalar);
- **S** əmin deyil ki, **H p** haqqında bilir yoxsa yox;
- **H** elə hərəkət edir ki, görünür ki, **p** haqqında bilmir;
- **S p** haqqındakı ünsiyyətdə emosional olaraq iştirak edir.

Kontekstin çoxlu növləri və müxtəlif kontekst modelləri belə şərtləri təmin edir. Məsələn, təyyarənin göyərtəsindəki təhlükəsizlik təlimatlarını hazırlayan şirkət və onları sərnişinlərə çatdıran, yəni bort nəzarətçisi dinləyicilərin bunları bilməsinə baxmayaraq, məlumatlandırma prosedurlarını daim təkrarlayır. Çünki məlumatlar vacib hesab edilir və daim təkrarlanır ki, sərnişinlər arasında bunu bilməyən

dinləyicilər ola bilər.

Müəllimlər pedaqoji səbəblərə görə məlumatları və mövzuları daim təkrar etmək istəyirlər. Çünki onlar dinləyicinin, yəni tələbələrin bunları bildiyinə şübhə ilə yanaşırlar və ya dinləyiciyə bunu demiş olduğunu unutmuş ola bilirlər. Bəzən də müəllimlər bir mövzu haqqında çox maraqlı olub onu bir neçə dəfə təkrar etmək ehtiyacı hiss edə bilərlər və s. Yəni müəssisə ilə bağlı məhdudiyyətlər, sosial əlaqələr (müəllim-tələbə), fikirlər, dil istifadəçilərinin hissləri və şəxsi maraqları, hafizənin zəif olması və başqa amillər kontekstual məhdudiyyətlərdir və onlar praqmatik prinsiplərin tətbiqini dəyişə bilirlər. Bu zaman semantik cəhətdən mövcud olan şərait məlumat seçimini tənzimləyir.

Kontekstin müxtəlif növ və janrlarının məlumatın idarəedilməsi və diskursa daxil edilməsi məsələsində fərqli təsirləri ola bilər. Məsələn, polis tərəfindən sorğulanan və ya məhkəmədə danışan şahidlər bildikləri hər şeyi ətraflı şəkildə deməyə özlərini məcbur hiss edə bilərlər. Eyni vəziyyət imtahanda iştirak edən tələbə, hekayə yazan müəllif, elmi tədqiqat işi yazan alim və s. üçün də keçərlidir. Bütün bu kontekstlərdə və janrlarda bizim hamımız qanun tələb etdiyi, mənəvi cəhətdən düzgün olduğu və ya maraq dairəmiz daxilində olduğu üçün bildiyimiz məlumatları paylaşırıq. Lakin müxtəlif səbəblərə görə məlumatların deyilməməsi və ya fərqli formada deyilməsi halları da baş verə bilər.

Bilinən məlumatların ifadə edilməməsi, təhrif edilməsi və ya gizlədiləməsinin çoxlu sosial və şəxsi səbəbləri vardır. Bunlardan ilkini mövzuya daxil olma istəməmə kimi qeyd edə bilərik. Digər səbəblər isə müxtəlif ola bilər: Sahil bilir ki, Həsən **p** haqqında bilir; Sahil bilir ki, Həsən **p** haqqında maraqlı deyil, **p** əhəmiyyətsizdir; Həsənin **p** haqqındakı məlumatı Sahilin maraq dairəsində olmaya bilər; Sahil və Həsən **p** haqqında məlumatın danışılmadığı bir sosial münasibətdə (tabu, intim mövzu, cinsiyyət fərqi) ola bilərlər. Gizlilik meyarlarından başqa çoxlu sosial amillər vardır ki, onlar məlumat mübadiləsinə mane olur. Cəmiyyətdəki sosial rollar, mentalitet, məkan, zaman kimi anlayışlar buna səbəb ola bilər. Tələbələr müəllim ilə, qadınlar kişilər ilə, valideynlər uşaqlar ilə müəyyən mövzuları danışmamağı üstün tuta bilərlər. Bu zaman şərait bilinən məlumatın ifadə

edilməməsini tələb edir. Əlavə olaraq, tabular, sirlər, danışanın maraq dairəsində olmaması bilinən məlumatı paylaşmağın qarşısını ala bilər. Nəzakət qaydaları, müəyyən təəssürat formalaşdırma strategiyaları bu deyilən və deyilməyən fikirlər məsələsində müəyyən dərəcədə rol oynayır.

Bir qayda olaraq, əgər xüsusi kontekst meyarları bunu tələb etməsə, danışanın və ya dinləyənin imicinə ziyan verəcək olan məlumat sözsüz ki, deyilməyəcək. Müdir və işçi arasındakı söhbəti misal göstərək. İşçi müdiri haqqındakı fikir və iradlarını açıq deməkdən çəkinəcək və onları ifadə etməməyi seçəcək. Çünki bunun ona ziyan verəcəyini düşünəcək.

Məlumat və diskurs arasındakı münasibətləri tənzimləyən bir sıra meyarların formalaşdırılması mürəkkəb kontekst modelləri tələb edir. Yəni kontekst modelləri iştirakçıların sosial münasibətlərinə, şəxsi maraqlarına, sosial normalara, cəmiyyətdəki qayda-qanunlara, hiss və emosiyalarına, nəzakət prinsiplərinə uyğun olaraq fikirlərini bildirməyinə təsir edir. Aydın görünür ki, kontekstdən asılı olaraq bütün kontekst modellərinin xüsusiləşdirilməyə, eyni şəkildə bütün diskursları hadisə modellərinə əsaslandırmağa ehtiyac yoxdur. Belə seçimlər kontekst modelləri tərəfindən tənzimlənir. Bu göstərir ki, kontekst modellərinin özü-özünü tənzimləmə mexanizmi var. Kontekst modelləri məlumatları onları ayıran, yaddaş axtarışlarının dərinliyinə nəzarət edən, proseslərə görə vaxtı bölən bir mərkəz tərəfindən nizamlanır və həmin mərkəz davamedən diskursu və kontekst modellərinin dəyişilməsini tənzimləyir. Beləliklə, biz fikrimizi kommunikativ hadisəyə cəmləşdirə bilirik və ya müntəzəm olaraq kontekst məlumatlarını emal edə bilirik. Bu proseslər iradi və qeyri-iradi olaraq həyata keçir. Çünki onların idarə mərkəzi üst və alt şüurlarımızdır. Psixoloqlar da artıq alt şüurumuzun müəyyən dərəcədə bizi və fikirlərimizi idarə etdiyini təsdiqləyirlər.

Fikrin ifadə olunması və hadisə modelləri arasındakı əlaqə söz azadlığı aktının normativ və ya uyğunluq şərtlərini müəyyənləşdirir. Bu bütün nitq aktları üçün eynidir. Yəni nitq aktlarının uyğunluq şərtləri nitq iştirakçılarının qarşılıqlı biliyi, onların arzu və istəkləri, gözləntiləri və sosial münasibətləri kimi konteskt şərtləri baxımından müəyyən edilir. Vədlər, təhdidlər, təbriklər və başqa bu tipli nitq aktları

diskursun bu kontekstual meyarlara uyğun gələcək şəkildə nizamlanmasını tələb edir. Beləliklə kiməsə hədə-qorxu gəlmək istəyən şəxs qarşı tərəfin istəkləri və ya maraqları ilə ciddi şəkildə uyğunsuzluq təşkil edən bir hərəkət planı haqqında fikirləşməlidir. Əgər dinləyici danışanın istədiyi şeyi edərsə (və ya etməzsə), nə baş verəcəyini ona göstərməlidir. Belə bir hərəkət hər iki tərəfin bir-birinin fikirləri, hərəkətləri, qabiliyyətləri, maraqları, arzuları, həyat məqsədi və s. haqqında qarşılıqlı biliyinin olmasını tələb edir. Məsələn, hədə-qorxu gəlinən şəxs məşhur biridirsə, imicinə ziyan vuracaq bir şey seçilir. Evli qadın ailəsi ilə, uşaqları valideynlərinə deməklə, şagirdləri aşağı qiymət verməklə hədələmək kimi faktlarla fikrimizi sübut edə bilərik. Ümumi olaraq kontekst modeli məlumatlarının müxtəlif formaları nitq aktlarının faktiki xüsusiyyətlərini, həm də kontekst modellərinin praqmatik xarakteristikasını əks etdirir.

Hadisə modelinin ifadəsi üzrə belə kontekst modelləri məhdudiyyətlərinin yaranması həm danışarkən semantik cəhətdən fikirlərin daxil edilməsi üçün münasibdir, həm də diskursun semantik strukturlarının şərtlərindən biridir. Yəni hər cür kontekstual uyğunluq semantik makrovə mikroquruluşlar, ümumi mövzular və onların detalları arasındaki əlaqələri müəyyənləşdirir. Beləliklə, hansı məlumat xülasə, abstrakt, məqalə və ya başlığa daxil ediləcək, hansı məlumatlar birinci və ya sonuncu yerləşdiriləcək kimi məsələlər fikrin konseptual və ya semantik quruluşundan deyil, onların kontekst cəhətdən müəyyən edilmiş vəziyyətindən asılıdır. Bu o deməkdir ki, nitq iştirakçıları üçün məzmunca daha vacib hesab edilən məlumat birinci və ya başlıq olaraq diskurs kateqoriyalarında ifadə edilə və ya bir neçə dəfə təkrar oluna bilər.

Başqa sözlə kontekst məhdudiyyətləri həmçinin semantik diskurs strukturlarına əsaslanır.

Eyni zamanda yuxarıda qeyd edildiyi kimi bəzi diskurslar digərlərinə nisbətən daha açıq və ya üstüörtülü ifadə edilməli olur. Əsasnamələr, qanunlar, elmi söhbətlər, dərsliklər və çoxlu başqa diskurs janrları açıq, amma günlük söhbətlər, təbliğatlar, siyasi müzakirələr müxtəlif kontekstual səbəblərə görə daha üstüörtülü ola bilərlər. Danışanların əxlaq, gizlilik, uyğunluq və s. haqqında öz fikirləri,

cəmiyyət, dövlət və ya müəssisə tərəfindən qoyulan məhdudiyyətlər mürəkkəb situasiya modellər tələb edir. Biz kontekst modellərinin özündə ehtiva etdiyi bu mümkün formatları düşünəndə modellərin belə mürəkkəbliyi bizi çaşdırır. Burada açıq şəkildə görünür ki, kontekst və onun modelləri sadəcə danışanın bilik və məqsədindən ibarət olmur, kənar amillər də bu prosesə təsir edir. Elə şüur və diskurs arasındakı əlaqə, hadisə modelləri və semantik təsvirlər arasındakı münasibətlərin tənzimlənməsi çox mürəkkəb şərtlər və dolayısı ilə də çox mürəkkəb kontekst modelləri tələb edir.

Kontekst modelləri və diskurs strukturları**.** Kontekst modellərinin hadisə modelləri və semantik təsvirlər arasında əlaqə yaratmaqdan başqa funksiyaları da vardır. Biz artıq qeyd etmişik ki, onlar məna strukturlarını da tənzimləyirlər. Mətndə və ya diskursda fikirlərin üstünlük sırası da kontekst funksiyasıdır. Yuxarıda qeyd etdiyimiz kontekstual səbəblərə əsasən məlumatlar açıq və ya örtülü çatdırıla bilərlər. Yəni fikirlər aralarındakı əlaqəyə görə daha gizli və ya açıq şəkildə ifadə edilirlər. Bəzi nüanslar dinləyicinin anlama prosesində özünün başa düşməyi üçün əksik verilə bilər. Qeyd edilməyən məlumatlar növ, aydınlıq, pedaqoji meyarlar, sosial əlaqələr və ya qrup marağı kimi kontekstual səbəblərə əsasən dinləyicinin özü tərəfindən də təxmin edilə bilər. Həmçinin oxşar səbəblərə görə məlumatlar diskurs strukturlarının bəzi amillərinə nəzərən tez-tez təkrarlanır, ya da tez yekunlaşdırılır. Belə ki, nəzəri cəhətdən gözardı edilsə də, təsvir səviyyələri və tamlığın dərəcələri kimi semantik hadisələr kontekstə aid mövzulardır. Yəni hadisə modelləri mətndə və ya diskursda müxtəlif spesifik səviyyələrlə izah edilə bilər. Məsələn, ümumiləşdirmə və ya mücərrədlik səviyyəsində: *She robbed a bank* və ya *We lost the war*, ya da nisbətən çox təfərrüatın verildiyi daha spesifik səviyyələrdə. Bu səviyyədə sadəcə əsas hərəkətlər təsvir edilir: *She stopped before the bank, parked her car, got out, etc*. Müxtəlif janrlar (hekayələr, xəbərlər, polis hesabatları, və s.) üçün təsvirin müxtəlif səviyyələri müəyyənləşdirilə bilər, ya da onlar xüsusi funksiyalara malik ola bilərlər. Məsələn, dinləyicinin diqqətini çəkmək və yönəltmək, narahatlıq yaratmaq (kino və ya hekayələrdə təhlükəli hərəkətlərin yaratdığı kimi), zərurəti və ya münasibliyi işarə etmək. Hər səviyyədə olan məlumatlar yuxarıda qeyd edildiyi

kimi maraqlı və ya uyğun ola bilməz. Bəzən bir detal situasiyaya münasib olur, bəzən isə olmur. Bu janr və ya kontekstdən asılıdır və yuxarıda qeyd edildiyi kimi kontekst modelləri tərəfindən tənzimlənirlər. Bu məlumatın nə qədərinin daxil edilib və ya edilmədiyi ilə əlaqədar deyil. Vaciblik, sıralama və detalların miqdarı kimi mənanın ümumi şəkildə yaranmasına təsir edən bu amillər kontekstual məhdudiyyətlər ilə əlaqəlidirlər. Kontekstual məhdudiyyələri üçün düzgün olan bir çox başqa qayda semantik strukturlar üçün də tətbiq edilə bilər. Həmin strukturlara leksika, sintaksis, üslub, ritorika, qeyri-verbal ifadələr (jestlər, mimika), fonoloji və fonetik strukturlar daxildir. Bu strukturların bəziləri semantik mənalar vasitəsi ilə tənzimlənirlər. Ancaq digərlərinin əsasən kontekst modelləri tərəfindən birbaşa nizamlandığı müşahidə edilir. Bu danışanın fikir və ya hisslərini ifadə vasitələrində (vurğu, ton) birbaşa özünü göstərə bilər.

Kontekst modelləri və diskurslar arasındakı bu və digər əlaqələri daha yaxından nəzərdən keçirək.

İfadə strukturları (səslər, sözlər, cümlə, söz sırası və s.) həm mənanın, həm də kontekstin əhatə dairəsinə daxildir. İfadə strukturlarının bir hissəsi semantika tərəfindən idarə olunur və semantik məna da öz növbəsində hadisə modelləri tərəfindən idarə olunur. İfadə strukturların digər aspektləri isə birbaşa kontekst modeli tərəfindən idarə olunur. Qeyd edilən həmin digər aspektlərə ən yaxşı nümunə xitab əvəzliklərinin istifadəsidir. Fransız dilində danışanların **vous** yerinə **tu** əvəzliyindən istifadə etməsi mənadan asılı deyil, birbaşa kontekst modelində ifadə olunan məhdudiyyətə görədir (nitq iştirakçıları arasındakı sosial münasibət). Digər tərəfdən intonasiya da ifadə strukturudur və tez-tez semantik məna ifadə edə bilir. Müəllimin "Əli bu gün dərsini oxuyub" cümləsi intonasiyadan asılı olaraq təəccüb, kinayə və ya alçaltma ifadə edə bilər.

Diskurs ifadə strukturlarının leksik seçim və cümlə daxili sıralama kimi çoxlu aspektlərinə təsir edir. Amma semantik strukturlar, məsələn, cümlələrdə fikir ilə əlaqələndirilən sözlər mətn və mövzunun xətti strukturlarına uyğun təsvir edilməlidir.

Dil istifadəçiləri mental modelləri sözlərin ardıcıl əlaqələndirilməsi ilə

birləşdirəndə müəyyən problemlərlə üzləşirlər. Yuxarıda gördüyümüz kimi mövzu cəhətdən vacib olan məlumatlar mətndə və ya xüsusi sxematik kateqoriyalarda, məsələn, başlıq və ya xülasələrdə daha çox ifadə oluna bilər. Bu qayda cümlə növləri və cümlədə söz sırası məsələlərində də eyni şəkildədir. Yer və zaman zərflərinin vurğulamaq üçün cümlənin əvvəlində verilməsi, icraçını vurğulamaq və ya qeyd etməmək üçün məlum və məçhul növlərin seçimini nümunə göstərə bilərik:

a) *The song contest dedicated to the liberation of Karabakh was held with the participation of many famous singers in Shusha .*

b) *In Shusha the song contest dedicated to the liberation of Karabakh was held with the participation of many famous singers.*

a) *Heydar Aliyev Foundation funded the contest held in Shusha.*

b) *The song contest held in Shusha was funded by Heydar Aliyev Foundation.*

Əlavə olaraq təkrarlanan və ya ehtimal edilən fikirlər əsasən budaq cümlələrdə ifadə olunur. Öz növbəsində hadisə modeli ilə mənalar xüsusi vasitələr ilə qurulur. İfadə strukturları da buna təkan verir, amma hər iki hadisə kontekst modellərindəki məlumatlarla idarə olunur. Ona görə də gəlin müxtəlif mətn strukturlarının yaranmasının kontekt tərəfindən idarə olunan formasını nəzərdən keçirək. Diskursun sinxron anlama və emal prosesləri Qısa Müddətli və ya İşlək Hafizədə (QMH) yerləşir. Daha dəqiq desək, biz ehtimal edirik ki, bu proseslərin strateji əhəmiyyəti vardır. Bu o deməkdir ki, onlar xətalı, amma sürətli, ardıcıl, kontekstdən asılı və məqsədyönlü proseslərdir və eyni anda bir neçə səviyyədə əməliyyat apara bilirlər. Bu da anlama prosesində natamam məlumatlardan sürətli nəticələr çıxarmağa imkan verir. Bu fikrimizi ata sözü ilə ifadə etsək, daha məqsədəuyğun olar: *"*Arifə bir söz bəs edər*"*.

Biz düşünmürük ki, diskursun yaranmasında bütöv fikir, mətnin təqdimatı və ya modellər ifadə strukturları və ya mətnin detalları ortaya çıxmamışdan əvvəl artıq təhlil edilir. Amma yenə də bu nüansı gözdən qaçırmamalıyıq ki, həmişə semantik emal, daxili emal və kontekst mədhdudiyyətlərini idarə etməyə ehtiyac duyan semantik makrostrukturlar mətnin strateji olaraq dəyişilməsini təmin edə bilirlər. Söhbətlərdə açıq şəkildə göründüyü kimi insanlar kontekstin birbaşa funksiyası kimi

davam edən semantik təsvirləri inkişaf etdirir və dəyişirlər. Fikrin və ya mənaların əsas hissəsini ifadə etməyin bir yolu da kontekstin müxtəlif şərtlərini şəraitə uyğunlaşdırmaqdan ibarətdir.

Yuxarıda deyilənlərdən gəldiyimiz nəticəni belə ifadə edə bilərik: qısa müddətli hafizədəki məlumat emalının qısa xülasəsi göstərir ki, yenilənmiş kontekst modellərinin işlək hafizədəki emaletmə funksiyası çox vacibdir. Onlar nəzarət sistemi kimi fəaliyyət göstərir və mətnlərin emal olunduğu diqqət və ya şüurun əsas mərkəzi hesab olunurlar.

## 2.2. Müxtəlif sosial situasiyalarda işlənən qayıdış əvəzlikləri

Qayıdış əvəzlikləri (anaforalar). Ən yeni qrammatika kitablarında belə qayıdış əvəzlikləri morfoloji xüsusiyyətlərinə görə xarakterizə olunaraq belə bir tərif verilib: "*Qayıdış əvəzlikləri şəxs əvəzliklərinin dəyişən formalarıdır və sonuna self hissəciyini artırmaqla düzəlir*" [34, s. 233]. İngilis dilində -self hissəciyi iki formada özünü göstərir: şəxs əvəzliklərinin a) obyekt (*himself, herself, itself, themselves)*, b) yiyəlik halına artırılan (*myself, yourself, ourselves, yourselves*). Əlavə olaraq, bir də **oneself** şəkildə ümumi forması var. Yuxarıda verilən tərifə əsasən aşağıda verilmiş nümunələrin hamısında qayıdış əvəzlikləri işlənmişdir:

*1. a) Ali was protecting himself.*

*b) Shehla imagines herself.*

*c) She poured herself another cup of tea.*

2. *a) The fact is that the writer herself did not admit the help of her assistants in the paper, that's why readers had no clue of the writer's separation from their data.*

b) *His goal wasn't an interview with the Prime Minister but the President himself.*

*c) Description is a heading which covers an illustration of the work itself and critic's reply to it.*

Nümunələrdə verilmiş qayıdış əvəzlikləri onu müəyyən edən forması ilə eyni

xüsusiyyətə malikdir, yəni onlar kəmiyyətə, şəxsə, hətta cinsə görə dəyişir. Əgər 1 və 2-də verilmiş nümunələrə yaxından baxsaq, müəyyən fərqlərin olduğunu asanlıqla görə bilərik. 1-də işlənmiş self formaları hər iki nümunədə təsirli feillərdən sonra tamamlıq mövqeyindən çıxış edir, amma 2-də verilmiş cümlələrdə ismi birləşmələrə görə uyğunlaşıblar. Əgər bu cümlələrdə qayıdış əvəzliklərini çıxsaq, cümlənin qrammatikasında heç bir dəyişiklik olmayacaqdır. Amma 1-dəki nümunələrdə onları çıxmaq mümkün deyil. Həmçinin mənalarında da fərqlər müşahidə olunur. 1-də verilmiş cümlələrdə situasiyada iki iştirakçı var, sadəcə iştirakçıların referenti eynidir, yəni eyni şəxsi bildirir.

Cümlənin mübtədası adətən antesedent və qayıdış əvəzliyinə eyni istinad göstəricisini təyin etməklə ifadə olunur (*Vali imagines himself*). 2-dəki self formaları isə əksinə belə birgə istinad və ya əlaqə ifadə etmirlər. Bu cür istifadə sadəcə semantik cəhətdən alternativ yaratmaq üçündür. Başqa sözlə, 2-dəki self formasının işlənmə səbəbi cümlədə özündən əvvəl gəlmiş ismi ifadələr tərəfindən yaradılan təsirə alternativlər yaratmaqdır. Bu nümunələrdə verilmiş alternativlər kontekstdən asılı olaraq ortaya çıxır. Məsələn, 2 a cümləsində verilmiş *the writer's assistants* – yazıçının köməkçiləri cümlədə verilmiş *writer* – yazıçı ilə qarşı-qarşıya qoyulur. 2 b-də isə *prezident baş nazirlə* qarşı-qarşıya qoyulur.

Onu da qeyd etməliyik ki, self formaları müxtəlif avropa dillərində fərqli şəkillərdə tərcümə edilir: Alman dilində Sich və ya selbst şəklində, rus dilində sebya və ya sam şəklində, italyan dilində silse və ya stesso şəklində.

Bu sahə üzrə aparılmış çoxlu tədqiqatlarda, həmçinin qrammatika kitablarında ingilis dilindəki qayıdışlıq məsələsi araşdırılmışdır. Araşdırma nəticələrini tədqiq etdikdən sonra, biz onları işlənmə yerlərinə görə "əsas" və "köməkçi" olaraq bir-birindən fərqləndiririk. Əsas işlənmə yeri dedikdə, qayıdış əvəzliklərinin öz funksiyalarını icra etdikləri yerləri, köməkçidə isə qeyri-qayıdışlıq formasında, yəni emfatik təsiri artırmaq üçün işləndikləri yerləri nəzərdə tuturuq.

3. *Instead of vilifying her rivals, she has clearly criticized herself.*

Ona görə də biz 2-də verilmiş self formaları üçün intensivlər (qüvvətləndirici) terminindən istifadə edəcəyik və qayıdış əvəzliyi terminini 1-dəki kimi uyğun

formalar üçün saxlayacağıq. Bu fərq bizə qayıdış əvəzliklərini sadəcə morfoloji quruluşuna görə deyil, həmçinin sintaktik və semantik kriteriyalara görə də müəyyən etmək imkanı verəcəkdir. Xəbərin semantik arqumentini ifadə etmək üçün işlədilən qayıdış əvəzlikləri (anaforalar) eyni xəbərin digər arqumenti, yəni əsasən mübtəda ilə birgə referentdir. Bu birgə arqument qayıdış əvəzliyinin antesedenti adlanır. Nümunələrdə (1 a-c) biz eyni funksiyada işlənən xəbərin müxtəlif arqumentləri arasında birgə istinadların göstəricisi olaraq **self** formalarının işlənməsinin şahidi oluruq.

Aşağıda 4-də işlənən self formaları göstərir ki, vasitəsiz tamamlıq mübtəda ilə eyni şəxsə aiddir və 5-də isə sözönü ilə işlənən ifadələrin mübtəda ilə birgə referent olaraq işlənməsinin şahidi oluruq. Bu cümlələrin b versiyaları göstərir ki, qayıdış anaforaları digər ismi ifadələrin də əvəz edə biləcəyi sintaktik funksiyaya malikdir:

4. *a) She was diverting herself with her job, diverting herself from talking to him.*

b) *The disgrace in the palace has drawn the attention of people away from the crisis in the country.*

5. a) *You aren't trying for me, you are trying for yourself.*

b) *Ali is working for Apple.*

6. *a) Aisha regards herself to be the excellent applicant.*

*b) At once she found herself in a big grotto.*

Bu verilmiş nümunələrdə self formaları izlədikləri feillərin (*regard, find*) semantik arqumentləri deyillər. 6 a-da bütöv budaq cümlə (*she is the excellent applicant*) *regard* (hesab etmək) feilinin ikinci arqumenti kimi təhlil edilməlidir. 6 b-də danışanın böyük mağarada tapdığı şey özüdür. Başqa sözlə bu iki cümlədəki self formaları təsriflənməyən cümlələrin mübtədalarıdır. Eyni zamanda onlar baş cümlədə feillərin vasitəsiz tamamlıqları ilə eyni xüsusiyyətə malikdirlər. Aşağıda verilən cümlələrdə də oxşar hadisə nəzərə çarpır. *Weep* (ağlamaq) və *rush out* (şiddətlənmək) kimi təsirsiz feillər tamamlıq funksiyasında sadə feilsiz cümlələrdə işlənir və hərəkət bildirən feillərin semantik təsirini artırmaq vəzifəsi yerinə yetirir.

7. *a) The girl wept herself to sleep.*

*b) The gale rushed itself out.*

Burada maraqlı cəhət odur ki, feilsiz cümlənin mübtədası yenidən xəbər budaq cümləsinin vasitəsiz tamamlığı kimi işlənir. Çünki bu əvəzlik sintaktik həmcins arqumentlə, yəni baş və budaq cümlənin mübtədası ilə məhdudlaşdırılır. Səbəbi isə qayıdış anaforası olmasıdır.

Burada biz izahımıza bir xüsusilik qatmalıyıq. Çünki burada birgə istinadı göstərən birgə arqument ya semantik, ya da sintaktik ola bilər.

Qayıdış əvəzlikləri xəbərin semantik və ya sintaktik arqumentini göstərmək üçün istifadə edilə bilirlər, həmçinin eyni xəbərin digər arqumenti olan mübtəda ilə birgə referent olurlar. Bu birgə arqument qayıdış əvəzliyinin antesedenti olur. Bu da onu göstərir ki, qüvvətləndirici funksiyasını yerinə yetirən self formaları dildə daha aktiv şəkildə işlənir və istifadə yerlərinə görə onların sintaktik və semantik xüsusiyyətləri daha fərqli olur. Bu səbəbə görə də "qayıdış" adı altında qruplaşdırılmamalıdır.

8. *a) She said that she was asthma, and keep going to visit the Martford Estate once a week to intone arias which were, like herself, remains of the Soviet time.*

b) *What a modern lady like yourself has to do with the drug dealer like me.*

c) *The lower pieces were pressed but soft upper parts could promise cosiness for all, including myself.*

d) *Leyla wasn't desperate, bullied girl. Which showed that something had incited her own pissed off ourbreak that day. Personal animosity had come from within herself.*

Self formaları və qayıdış anaforalarının yuxarıda qeyd edilən nümunələri arasındakı ən bariz görünən fərq odur ki, bütün bu formalar mənada böyük dəyişiklik olmadan şəxs əvəzlikləri ilə əvəzlənə bilirlər. Bundan başqa bu self formaları eyni cümlə daxilində öz antesedentlərini tapmırlar. Amma daha uzun və mürəkkəb olan 8 b və 8 d cümlələrində və ya şifahi kontekstdən kənarda işlənən 8 a və 8 c tipli nümunələrdə bunun əksi baş verir. Bu cür işlənən self formaları üçün çoxlu cümlələr misal göstərmək olar. Nümunələrin hər birində onlar ifadə etdiyi mənalarına və ya istifadə yerlərinə görə qeyri-adi xüsusiyyətlərini biruzə verirlər. Məhz bu

xüsusuiyyətlərinə görə fərqli adlarla adlandırılırlar: Səciyyəvi self formaları, çağrılmayan self formaları/qayıdışlar, gizli qayıdışlar, qeyri-standard self formaları, qəbuledilməyən qayıdışlar, loqoforik qayıdışlar, qeyri-anaforik qayıdışlar və təxmin edilə bilinməyən self formaları onlar üçün istifadə edilən terminlərin bir qismidir.

Öz izahlarımızla self formalarının işlənmə sahəsini daraltdıqdan sonra, onların fərqli işlənmə yerlərini qeyd edərək fikrimizi tamamlaya bilərik. Lakin bunu da vurğulamaq yerinə düşər ki, bu xüsusilik onların ingilis dilində qəbul edilən işlənmə qaydalarından kənara çıxdıqlarına görə baş vermir. Çünki alman dilində də eyni hal müşahidə olunur. Qısaca, bunun german dillərinin ortaq xüsusuiyyəti olduğunu deyə bilərik.

Ümumi izah verdikdən sonra aşağıda qayıdış əvəzliklərini fərqli işlənmə yerlərinə görə qruplaşdırırıq:

İxtiyari qayıdışlar. Alman dilindən fərqli olaraq, ingilis dilində bəzi hallarda qayıdış əvəzlikləri ixtiyaridir, yəni seçimi və istifadə edilməsi danışan insandan asılıdır:

9. a) *Ali noticed a scorpion near him/himself*

b) *Lala put the phone aside from her/herself.*

c) *Fatma covered the blanket around her/herself.*

d) *Ali pulled the rug over him/himself.*

Baxmayaraq ki, nümunələrdə göstərilmiş self formaları eyni cümlə daxilində öz antesedentlərini tapır, amma bu formaları istifadə etmək məcburi deyil. Yəni asanlıqla kiçik məna fərqi ilə müvafiq şəxs əvəzlikləri ilə əvəz oluna bilirlər. Belə cümlələrdə feillər başqa növ əvəzliklər və ya qayıdışlar ilə işlənən ismi birləşmələrin arqumenti deyil, lokal ya da birbaşa məna ifadə edən sözönülü birləşmələr şəklində olurlar. Onların istifadəsi zamanı müşahidə olunan dəyişkənliyin səbəbi budur. Bizim burada gördüyümüz şey iki qayda arasındakı ziddiyyətdir: a) self formalarının eyni cümlə daxilində birgə istinad ifadə etməsi qaydası və b) belə arqumentlərin qayıdış anaforalarının antesedentlərinin birgə istinadı olaraq işlənməsi qaydası. Həmçinin qeyd etməliyik ki, bir çox avropa dillərində (məsələn, alman) sadəcə qayıdış əvəzlikləri sözönülü ifadələrlə işlənə bilirlər.

Gözlənilməyən şəxs əvəzlikləri. İngilis dilinin incəliklərindən biri də aşağıda qeyd olunmuş xüsusiyyətdir:

10. *a) Fuad didn't take any money on him/himself.*

*b) He is keen on seeing children around him.*

*c) Fatma has a week of vacation before her.*

*d) Fatma left all her mishaps behind her.*

9-da verilmiş cümlələrdəki kimi əvəzliklər eyni cümlə daxilindəki antesedent ilə əlaqəlidir və buna görə də birgə istinad ifadə edirlər. 9-da verilmiş cümlələrdən fərqli olaraq, 10 a-da bu əvəzliklərlə işlənən sözönülü ifadələr əsasən bu antesedentlərin birgə arqumenti hesab edilə bilmir. Eyni zamanda semantik cəhətdən birgə istinad tək seçimdir. 10-da verilmiş cümlələrdə işlənən əvəzliklər başqa ismi ifadələr ilə əvəz edilə, həmçinin vurğulana da bilmirlər. Başqa sözlə Fatma öz problemlərini başqasının arxasında buraxa və Fuadın başqasının üstündə öz pulu ola bilmir.

Ayrılmayan qayıdış feiləri. **Q**ayıdış əvəzliklərinin digər ismi birləşmə ilə təzad təşkil etmədiyi hallar haqqında da qısa qeyd edilməlidir. Belə hallarda qayıdış əvəzlikləri müvafiq feilin yeganə mümkün tamamlığı olur. Bu zaman qayıdış əvəzliklərinin referenti olmur və məna da ifadə etmir. Belə işlənmə yerlərini ifadə etmək üçün istifadə olunan çoxlu terminlər vardır. Bunlardan biri də ayrılmayan qayıdış feilləridir. Çünki onların xüsusiyyətlərini ən yaxşı ifadə edən söz budur. Bu feillər self forması ilə birləşib müəyyən leksik məna ifadə edirlər. Alman (*sich beeilen, sich wundern, sich schämen, sich ereignen*, etc) və başqa avropa dillərində belə feillər geniş yayılmışdır. İngilis dilində isə onlar say baxımından (*to pride oneself, to absent oneself from, to avail oneself of something, to perjure oneself,* etc) çox azdır. Həmçinin ingilis dilində qayıdış əvəzlikləri alman dilindən fərqli olaraq daha çox semantik xüsusiyyətlərə malikdir. Ona görə də qrammatik funksiyada daha az işlənirlər. Bundan başqa, onlar daha yeni yaranmış və tarixi dəyişikliklərə çox məruz qalmamışdır.

İntensivlər. Self formalarının əsas növlərindən biri olan qayıdış anaforalarının işlənmə yerlərini və öz daxilində bölündüyü kateqoriyaları nəzərdən keçirdikdən

sonra, müəyyən kriteriyalara görə yuxarıda qeyd olunanlardan fərqlənən başqa bir növə diqqət yetirək. Qüvvətləndiricilər kimi də adlanan əvəzliyin bu növü emfatik təsiri artırmaq üçün istifadə olunur. Aşağıdakı nümunələrlə fikrimizi daha aydın ifadə edə bilərik:

11. *a) As fresh breezes never reach the way through the walls, dust covered everywhere. Even the painter herself had grey powder on her.*

*b) The documentation, meetings and political manipulation can take as much time as the inquiry itself.*

*c) The overhead of the heath itself glittered with the shoots on the grasses and the bushes and there was a feel of spring in the air.*

*d) She is tenderness itself.*

2-də verilmiş cümlələr kimi, 11-də verilmiş cümlələr də qayıdış əvəzlikləri ilə qüvvətləndiricilər arasında formal bir fərqin olmadığını göstərir. Hər iki kateqoriyaya məxsus əvəzliklərin eyni quruluşu var və hər iki kateqoriyadan olanlar eyni cümlə daxilində ismi birləşmə ilə uzlaşırlar. Buna görə də bir çox qrammatiklər onları eyni kateqoriyaya daxil edirlər. Ancaq onların qayıdışlıq və ya emfatiklik yaratma xüsusiyyətlərinə görə fərqli işlənmə yerləri vardır. Qayıdış anaforaları ilə qüvvətləndiricilərin fərqləndiyi cəhətlər onların bölgüsü və ifadə etdikləri mənaslarıdır. 11-də verilmiş bütün nümunələrdə qüvvətləndiricilər özlərindən sonra uzlaşdıqları ismi birləşmələr qəbul ediblər. Bu da onu göstərir ki, cümlənin qrammatik quruluşuna xələl gətirmədən onları cümlədən çıxarmaq mümkündür. Amma təbii ki, cümlənin mənasında cüzi dəyişiklik olacaqdır. Qüvvətləndiricilərin ismi ifadələr ilə istifadəsi üzrə başqa nüanslara da rast gəldik. Onlardan bəziləri aşağıda sadalanmışdır.

Əvvəla, bütün qüvvətləndiricilər həmişə cümlə vurğusuna malik olur. Bu cümlənin semantik təsiri ilə əlaqədardır. Qüvvətləndiricilər verilən ismi arqument kimi qəbul edərək identiklik ifadə edir: *Hillary Clinton herself = Hillary Clinton.* "Hillary Clinton herself" söz birləşməsi əslində elə "Hillari Clinton" deməkdir. Burada ifadə edilən fərq cüzidir. Lakin bu çoxlu alternativ funksiyalar yaradır. Həmin alternativ funksiyalar arqument olaraq ilkin yeri, yəni qüvvətləndirici tərkibin adlıq

hissəsini (Hillary Clinton) tutur, eyni zamanda əlavə əhəmiyyət də kəsb edirlər. Burada identiklik funksiyası alternativ funksiya ilə ziddiyyət təşkil edə bilər. Məsələn, *The assistant of Hillary Clinton.* Beləliklə, "Hillary Clinton herself" və "Hillary Clinton's assistant" ifadələri qarşı-qarşıya qoyulur.

Səciyyəvi olaraq qüvvətləndirici konstruksiyalar çoxlu alternativ referentlər doğurur. 2 a cümləsində verilən *the writer* sözünün alternativinə baxaq. Həmin cümlədə alternativ *the writer's assistants* və ya *assistants of writers* ifadəsidir. Əslində bütün nümunələrdə qüvvətləndiricilər vasitəsilə vurğulanan alternativlər kontekst daxilində verilib və asanlıqla müəyyən edilə bilirlər.

11 a cümləsində *the painter* rəssam fəaliyyəti nəticəsində yaranan toz ilə qarşı-qarşıya qoyulub. 11 b cümləsində *an inquiry* ismi kağız işləri, iclaslar və siyasi manipulyasiyalar ilə qarşı-qarşıya qoyulub. 11 c cümləsində isə *the overhead of the heath* üzərində cücərən otlara təzad olaraq verilib. Qüvvətləndiricilər vasitəsilə cümlədə yaranan dəyişiklik bəzən xüsusi bir təsir yaradır. Biz A-nı B ilə nisbətdə müəyyən edəndə (məsələn, Leyla əvəzinə Ali's wife və ya Ali əvəzinə Leyla's husband), biz B-yə daha çox əhəmiyyət verir, onu mərkəzləşdiririk. Ona görə də qüvvətləndiricilər vasitəsilə vurğulanan alternativlər əsas diqqət mərkəzinə gətirilir. Eyni hal 2 a və 2 b cümlələrində də müşahidə olunur. Əslində həmin cümlələrdə alternativlər daha çox vurğulanır.

Zərflik kimi işlənən qayıdış əvəzlikləri. İndiyə kimi nəzərdən keçirilən fikirlər adnominal istifadəyə uyğun gəlirdi, yəni qüvvətləndiricilərin işlənmə yerləri mənalarını müəyyən etməyə imkan verirdi. Qüvvətləndiricilərin təhlilləri göstərir ki, zərflik olaraq işlənən intensivlər digərlərinin əksinə olaraq sintaktik və semantik cəhətdən fərqlənirlər. Aşağıdakı nümunələrdən də göründüyü kimi qüvvətləndirici əvəzliklər həmişə uzlaşdıqları ismi ifadələrlə yanaşı işlənmirlər, həmçinin feili ifadələrin də bir hissəsi ola bilir. Bu zaman onlar feili ifadənin ya sağında, ya da solunda gəlir.

12. *a) How about her bag, can she carry that? Yes, she said, she always carried herself.*

*b) "As I am solitary," Doctor Aziz said, "I must come myself in place of my*

*family members".*

c) *And if one started to laugh after it oneself, as much as women – and let them see the reason one laughed.*

d) *"Actually, I work in a theological school," .... "Excellent", "I am curious about religion myself":said Shehla.*

Yuxarıda verilən bütün nümunələrdə intensivlər uzlaşdıqları ismi ifadələrlə yanaşı işlənməmişdir, amma onları müəyyən aralıqlarla izləyirlər. Bu cümlələrdə intensivlər xəbəri izləyir və feili birləşmənin sonunda işlənirlər. Self formalarının bu cür işlənmə yerini xarakterizə etmək üçün zərflik sözünü işlətmək çox uyğun görünür. Əgər sintaktik kriteriyaya əlavə olaraq, semantik kriteriyanı da nəzərə alsaq, onda digər fərq cümlə sırasında görünəcəkdir. 12 a və b cümlələrində intensivlər üçün tələb olunan parafraz 12 c və d cümlələrindən tamamilə fərqlidir. İlk iki cümlədə qüvvətləndiricilərin işlənməsi "cümlənin icraçısı" kimdir sualını doğurur, həmçinin onlar hərəkətə kömək edir və ya qoşulurlar. Burada intensivlərin zərflik olaraq işlənməsi göstərir ki, hərəkətdə maraqlı olan şəxs həmçinin hərəkətə ən çox cəlb edilmiş insandır. 12 a cümləsini ifadə etmək üçün uyğun parafraz *tək* və ya *köməksiz* ola bilər. 12 c və d nümunələrində isə *həmçinin* və ya *da*[2] hissəcikləri əvəzlik üçün uyğun parafraz, eyni zamanda tərcümə olacaqdır.

Müvafiq olaraq, intensivlərin eksklüziv və inklüziv zərflik olaraq işlənməsi arasındakı fərqlər üzrə bəzi araşıdrmalar apardıq. Həmin araşdırmalara əsasən, aşağıda verilən cümlələr sadəcə bu fərqləri ortaya çıxarmır, həmçinin zərflik olaraq işlənən intensivlərin hər iki işlənmə yerinə görə fərqli xüsusiyyətlərini üzə çıxarırlar.

Hadisə predikatı ilə əlaqəli olan eksklüziv işlənmə yeri və hal predikatı ilə əlaqəli inklüsiv işlənmə yeri arasında kəskin fərqlər vardır. Aşağıdakı 13 b və 14 b cümlələrində bu fərqlər açıq-aydın görünür.

13. a) *Sevil always mends her washing machine herself.*

*b) To his amazement she had replied the phone herself. (eksklüziv)*

14. *a) If she's engaged in violating the laws herself, she can scarely request that others do contrary.*

*b) She wasn't in an awful mold herself and she had difficult moments*

*carrying him up the stairs. (inklüziv)*

Digər bir fərq isə eksklüsiv zərflik olaraq işlənən intensivlər inkarın təsir dairəsində ola bilirlər, ancaq inklüsiv olaraq işləndikdə inkarlıqdan kənar, daha geniş işlənmə sahəsinə malik olurlar.

15. *a) Sevil certainly didn't mend it herself. (eksklüziv)*

*b) Nobody can accuse her of not purchasing the potrait. I don't love it myself either. (inklüziv)*

Təbii ki, onların fərqli iki istifadə yeri bir mənanın müxtəlif kontekstual amillərlə qarşılıqlı əlaqəyə girməyinin nəticəsidir. Yəni burada iki fərqli məna ortaya çıxmır.

İntensivlər və qayıdış anaforaları**.** Bura qədər bölgü və semantik meyarlara, eləcə də qarşılıqlı linqvstik mülahizələrə əsaslanmışıq. Bunlar sayəsində intensivlər və qayıdış anaforaları arasındakı fərqləri göstərmişik. Onlar eyni kateqoriya altında, yəni qayıdış əvəzlikləri adı altında birləşir, ancaq sonra qayıdışlar və emfatik əvəzliklərə bölünürlər. Belə bir bölgünün zəruri və ya faydalı olduğunu iddia etmək düzgün olmazdı. Çünki ingilis dilində bu iki növ arasında formal fərqlər cüzidir, həmçinin hər iki məna bir-birindən əlaqəsizdir. Əslində ingilis dilində həm intensiv, həm də qayıdış anaforası olaraq işlənən bir əvəzlik yoxdur. Amma başqa dillərdə buna rast gəlmək mümkündür.

Self intensivi qayıdış feillərinin nominal tərəfini bildirən söz birləşmələrində işlənir (*self-contemplation–özünü düşünmə, self-disgust – özünə nifrət, self-help – özünə kömək, self–control-özünüidarəetmə və s.).* Biz belə düzəlmə qaydasına mürəkkəb feillərdə də rast gələ bilərik. Qayıdış anaforaları çox vaxt intensivlərdən yaranır. İngilis dilində şəxs əvəzliklərinin təsirlik forması və yiyəlik əvəzlikləri self intensivi ilə birləşir, formaca qayıdış əvəzliyinə oxşar, ancaq funksiya baxımından fərqli və yeni bir kateqoriya yaradır. Bu kateqoriya ingilis dilində əslində qədim zamanlarda mövcud olsa da, sonradan yoxa çıxmışdır.

Qayıdışların və intensivlərin fərqli kateqoriya olaraq bir-birindən ayrıldığı dillərdə bəzi hallarda onlar qayıdışlığın icraçısını vurğulamaq üçün birləşə bilirlər. Alman dilindən verilmiş nümunə ilə fikrimizi belə sübut edə bilərik:

16. *a) Ali hat sich angezeigt –Ali reported himself to the police.*

Belə ikili ifadə ingilis dilində mümkün deyil. İngilis dilində cümlədə sadəcə bir self forması işlənir və güclü vurğu ilə deyilir:

17. *a) Vali reported himself to the police.*

*b) I didn't murder the girl, she murdered herself.*

*c) This gold polishes itself.*

*d) The argument replies itself.*

Sərbəst self formaları. Self formalarının qayıdış anaforalarından ayrılan ikinci əsas qrupu isə "Sərbəst self formaları" adlanır. Sərbəst self formaları birlikdə işləndikləri ismi ifadələr ilə eyni referentə sahib olmur, amma onların danışan şəxs tərəfindən istifadə olunması isə səhv deyil. Aşağıdakı cümlə buna nümunə ola bilər:

*Some of the students and myself wrote an official letter to the rector of the university.*

Amma növbəti cümlədə **myself** əvəzliyinin cümlədə ismi ifadə olmadan tək başına işlənməsi düzgün deyil. Yəni *Myself wrote an official letter to the rector of the university* cümləsi səhvdir. Mübtəda və vasitəsiz tamamlıq kimi işlənə bilməyən sərbəst self formaları sözünülü ifadələr ilə də istifadə oluna bilir. Məsələn,

*This is a group for people like yourself.*

Self formalarının bölgüsünü və məna fərqlərini artıq izah etmişik. Burada ingilis dilinin qrammatikasında self formalarının qayıdış anaforaları və intensivlər arasında tutduqları yeri izah edib, bu kateqoriyalar ilə malik olduqları ümumi xüsusiyyətləri göstərəcəyik.

Yuxarıda da qeyd etdiyimiz kimi ingilis dilində qüvvətləndirici əvəzliklər (intensivlər) adlanan bir qisim əvəzliklər də vardır ki, qayıdış əvəzlikləri ilə formaca eyni olsalar da, işlənmə yerləri fərqlidir. Qüvvətləndirici əvəzliklər cümlənin təsir gücünü artırmaq üçün istifadə olunur. Əgər qayıdış əvəzliyini cümlədən çıxsaq, onda cümlənin mənası dəyişir, amma intensivlərdən hər hansı birini çıxsaq, cümlənin fikri dəyişilmir. Aşağıdakı cümləyə nəzər yetirək:

*She was planning to request her sister to go, but in the end she went* ***herself.***

Növbəti iki nümunədə isə heç bir intensiv istifadə olunmamışdır. Gəlin

cümlələrin mənalarına nəzər yetirək:

*Did someone paint the walls?*

*No, I did.*

Bu cümlədə intensiv əvəzlik olan **myself** işlənmədiyi üçün cümlənin təsir gücü azalmış, lakin məna dəyişməmişdir.

*She blames for the crash.*

Yuxarıdakı bu cümlədə isə qayıdış əvəzliyi **myself** işlənmədiyi üçün söhbətin kimdən getdiyi bilinmir.

Müəyyən situasiyalar da vardır ki, orada qayıdış əvəzlikləri ***by*** sözönü ilə işlənir. Bu zaman o artıq öz qayıdışlıq mənasını itirir və tək, yalnız mənasını verir:

*She loves to go on vacation by herself.*

Əvvəla, sərbəst qayıdışlar kontekst daxilində meydana çıxır və ziddiyyət, emfatika ifadə edirlər. Bu onların intensivlər ilə paylaşdıqları ümumi xüsusiyyətdir və funkisya olaraq qarşılıqlı əlaqəyə girdikləri ismi ifadələrə alternativlər yaradırlar. Sərbəst self formalarının işləndiyi kontekstdə bu alternativlərə ehtiyac qalmır. Əlavə olaraq, sərbəst self formaları intensivlərin bölgüsündəki boşluğu doldururlar. İntensivlər şəxs əvəzlikləri ilə sərbəst şəkildə mübtəda mövqeyində birləşirlər:

18. *a) She herself wanted to get up and walk in the room.*

*b) Ali thinks that he himself was guilty for the kid's death.*

Burada təəccüblü cəhət odur ki, bu cür birləşmələr mübtəda funksiyasından başqa funksiya daşıya bilmir. Belə obyekt əvəzlik birləşmələri və adnominal intensivlər (*him himself* və *her herself)* ingilis dilində qəbul və ya istifadə edilmirlər. Qeyd edək ki, bu ziddiyyət bəzi fonoloji məhdudiyyətlərin təsiri ola bilməz, çünki **us ourselves** kimi birləşmələr də istifadə edilmir. Belə müşahidələrə əsasən C.L.Baker, E.Köniq və P.Siymund tərəfindən iddia edilir ki, sərbəst qayıdışlar şəxs əvəzlikləri ilə intensivlərin birləşməsindən yaranır, yəni şəxs əvəlikləri intensivlərə birləşir [6, 62, 102]. Əslində sərbəst qayıdışlar alman dili kimi dillərdə "əvəzlik + intensiv" kimi birləşmələr sayəsində tərcümə edilir. Bu da güclü arqument yaradır ki, sərbəst self formaları şəxs əvəzlikləri ilə birləşmiş və ya şəxs əvəzliyi ixtisar edilmiş intensivlər kimi nəzərdən keçirilsin:

19. *a) Jamila wasn't entirely certain if he aimed Khalida or herself.*

*b) She was such a woman whose principle of devotion were very sharp; first herself, then her family and her friends.*

19-cu nümunədə verilmiş cümlələrdə self formaları şəxs əvəzlikləri və intensivlərin birləşməsi kimi təhlil edilə bilməz. İntensivlər ilə paylaşdıqları müəyyən oxşar xüsusiyyətlərə əlavə olaraq, onlar həmçinin qayıdış anaforaları ilə də bəzi oxşar xüsusiyyətlərə malikdir. Buna görə də onların sərbəst qayıdışlar olaraq təhlil edilməsi başa düşüləndir. Lakin bu müvafiq xüsusiyyətlərin mübtəda funksiyasında, həmçinin arqument olaraq meydana çıxması istisnadır.

20. *a) Herself isn't in her room at the moment. (Iris English).*

*b) He chuckled, even to himself the sound was volumnious and irritable.*

Qayıdış anaforaları və sərbəst self formaları arasında başqa bir fərq də vardır. Baxmayaraq ki, axırıncı nümunədə o həmişə arqument rolunda meydana çıxır və buna görə də onu cümlədən silmək olmaz. Lakin arqument rolunda çıxış edən qayıdış anaforalarında olduğu kimi əsasən vasitəli və ya vasitəsiz tamamlıq mövqeyində deyil, sözönülərin tamamlayıcı və ya bağlayıcısı funksiyasında çıxış edir.

E.Köniq tərəfindən edilən tədqiqatlara əsasən demək olar ki, sərbəst self formaları çox nadir hallarda tamamlıq mövqeyində işlənir [64]. Halbuki başqa german dillərində buna tez-tez rast gəlmək mümkündür. Məsələn, alman dilində **şəxs əvəzliyi+selbst** birləşməsinin işlənməsi üçün heç bir məhdudiyyət yoxdur.

Fikrimizi əsaslandırmaq üçün sintaktik asılılığı tədqiq edən Anaforik əlaqələr nəzəriyyəsini nəzərədən keçirək. O, generativ qrammatikada əsas nəzəriyyələrdən biridir:

a) Anafora (=herself) öz kateqoriyasında asılıdır

b) Əvəzlik (=her) öz kateqoriyasında sərbəstdir

Onu qeyd edək ki, anafora termini artıq fərqli mənada işlənir. Generativ qrammatikada anafora qayıdış və qarşılıq əvəzliklərini bildirir. Qayıdış əvəzliklərini fərqləndirmək üçün qayıdış anaforası (reflexive anaphora) terminindən istifadə olunur.

Qayıdış əvəzlikləri cümlənin mübtədası və tamamlığı eyni olduğu zaman işlənir:

*You can help **yourselves** to drinks – düz*

*You can help **you** to drinks – səhv*

*He blames **himself** for the accident – düz*

*He blames **him** for the accident – səhv*

Qayıdış əvəzliklərinin istifadə yerləri. İngilis dilində qayıdış əvəzliklərinin təhlili indiyə kimi əsasən cümlə səviyyəsində həyata keçirilib. ***Himself*** və ***herself*** kimi qayıdış əvəzliklərinin standart təhlili iki əsas xüsusiyyətinə görə fərqlənir.

*1) Elvin thinks Emin's brother trusts himself.*

Həmin bu cümlədə ***himself*** Elvinə deyil, onun qardaşına aiddir. Bu iki xüsusiyyət bu fakta əsaslanır ki, cümlə səviyyəsində təhlilin əsas məqsədi cümlə tərkibinin əsas detallarını nəzərdən qaçırmadan onu mümkün olduğu qədər tez və təsirli şəkildə həyata keçirməkdir.

*2) Emin trusts himself.*

Burada ilkin olaraq xüsusi isim **Emin** referent kimi müəyyən edilir. Xəbərin izləməli olduğu ilk əsasdır. Referent olan Emin gözlənilən xəbərin ilk arqumentinə uyğun gəlir. Sonra təsirli feil **trust** götürülür və ilk arqument olan Eminin xəbəri olaraq ifadə olunur.

Növbəti mərhələdə isə təhlil ***himself*** qayıdış əvəzliyinə gəlib çatır və onu xəbərin ikinci arqumenti olaraq müəyyən edir. Çünki o anaforadır və referensial asılılıq vardır. "Emin trusts himself" cümləsi göstərir ki, referensial asılılıq xəbərin ikinci arqumenti olan ***himself*** əvəzliyi ilə göstərilib. O asılılığı ortaya çıxarmaq üçün cümlə səviyyəsində təhlilin adi bir üsulu var: onu ardıcıl formada ayırmaq və bu mümkün qədər tez və səmərəli şəkildə edilməlidir. Əvvəl gələn söz üçün diskurs axtarmaq əvəzinə təhlil feilin arqumenti olan Eminə yönəlir və buna görə də dərhal qayıdış əvəzliyinin şərhini tələb edir.

İngilis anaforalarının lokallıq xüsusiyyətini başa düşməyin əsas yolu cümlə səviyyəsində referensial asılılıqların başa düşülməsinə yönləndirən vasitəsizlik stimuludur. Çünki cümlə səviyyəsində təhlil qayıdış əvəzliklərinin şərhinə birbaşa

imkan vermir, bunun üçün də o lokal təyinedici, yəni praqmatika və kontekstdən asılı olmayaraq anaforaların birgə arqumentini seçir. Ona aşağıdakı cümlədə ***himself*** polis rəisinin özü kimi şərh edilməlidir, baxmayaraq ki, kiminsə özünü çağırması ağla sığmayan bir situasiyadır.

*3) Vali went to police station.* ***The police chief*** *had summoned* ***himself****.*

Anaforaların birgəlik xüsusiyyəti cümlə səviyyəsinin yaranması prosesi ilə üst-üstə düşmür. Aşağıda verilmiş cümlədə qayıdış əvəzliyinin təsadüfən istifadə edildiyi yer *Emin's brother* söz birləşməsinə uyğun gələn feilin arqumentində yeganə fərqli göstəricidir. Bu cümlədəki referensial asılılığı başa düşmək üçün bir yol var. Eminin özü deyil, qardaşı təyinedici kimi seçilməlidir.

4) ***Emin's brother*** *trusts* ***himself****.*

Eyni nəticə aşağıdakı cümlədə də tələb edilir. Cümlə səviyyəsində yaranan lokallıq öz təsirini göstərməyə kömək edir.

5) ***A friend of Emin*** *trusts* ***himself.***

Əslində burada referent olaraq ***Emin*** öz anaforasının təyin edicisi olaraq ***friend*** sözündən daha məqbuldur. Əks halda qayıdış əvəzliyinin istifadə edildiyi yerdə feilin birinci arqumentinə xidmət edən natamam semantik məna yaranır.

*6)* ***A friend of Emin*** *trusts.*

Sonradan istifadə olunan ***himself*** və onu müəyyən edən feilin ikinci arqumentinə görə referensial asılılığı dərhal başa düşmək üçün imkan yaranıb. Ona görə onu feilin birinci arqumenti ilə əlaqələndirə bilərik. Bu da arzuolunan nəticə yaradır.

İnsanlar bunu öz ana dillərində instiktiv edirlər. Aşağıda göstərilən situasiya və kontekstdə hətta 3 yaşlı uşaq belə ***herself*** əvəzliyinin təyinedicisi kimi ayını müəyyən edə bilər.

*This is Mama Bear; this is Goldilocks.*

*Is Mama bear touching herself?*

Beləliklə, bu bölmədə biz ənənəvi görüş olan "ingilis dilində qayıdış əvəzlikləri əsasən birgə arqument antesedentlərini qəbul edir" fikrinin sadə izahını vermiş olduq [66].

## 2.3. Müxtəlif kommunikativ situasiyalar

Kommunikativ situasiyaların öyrənilməsi hal-hazırda praqmatikada ən vacib tədqiqat sahələrindən biridir. Çünki praqmatika söhbət zamanı kontekstdən asılı olaraq ortaya çıxan mənanı araşdırır. Nəzərə alsaq ki, insanların qarşılıqlı əlaqəsi və ünsiyyəti zamanı onların məqsədləri, dünyagörüşləri, maraqları, inancları və s. bu prosesə təsir edir, onda bu sahənin praqmatikanın əsas bölmələrindən biri olması heç təəccüblü deyil.

Mövzunun əsas hissəsinə başlamazdan əvvəl müvəffəqiyyətli ünsiyyət anlayışını müəyyənləşdirmək lazımdır. Müvəffəqiyyətli bir kommunikativ situasiya o zaman yarananr ki, nitq iştirakçıları kommunikativ məqsəd və gözləntilərini həyata keçirməyə imkan verən sosial dialoq qaydalarına əməl etsinlər.

Kommunikativ situasiya insanların müəyyən zaman, yer və fəaliyyət çərçivəsində daxil olduqları ünsiyyət şəraitidir. Təsirli və aydın ünsiyyət üçün əvvəlcə situasiya düzgün qiymətləndirilməlidir. Situasiyanı düzgün qiymətləndirmək üçün onu təşkil edən komponentlərə nəzər salaq. Kommunikativ situasiyanın beş əsas komponenti vardır: fikri göndərən, fikir, vasitə, fikri qəbul edən, kontekst. Kontekst deyəndə ünsiyyət prosesinə daxil olan insanların fikirlərini ifadə etdiyi situasiya nəzərdə tutulur.

Ünsiyyətin situasiyanı müəyyən edən müxtəlif formaları vardır: 1) insanlararası kommunikasiya əsasən iki insan arasında baş verir, 2) qruplararası ünsiyyət müəyyən qruplar arasında olur, 3) təşkilatdaxili ünsiyyət təşkilatlar tərəfindən istifadə olunur, 4) kütlə ilə ünsiyyət böyük insan kütlələrinə çatdırılan fikirlər şəklində olur, 5) mədəniyyətlərarası ünsiyyət müxtəlif mədəniyyətlərdən olan insanlar arasında baş verir, 6) gender ünsiyyəti eyni cinsdən olan insanlar arasında olur. Bunlara ikisi daha əlavə olunmuşdur: 1) səhiyyə ünsiyyəti və 2) kompüter vasitəsilə ünsiyyət. Yuxarıda qeyd edilmiş kommunikativ situasiyalar arasında kəskin sədd yoxdur, asanlıqla biri digərinə çevrilə və ya bir neçəsi eyni vaxtda istifadə edilə bilər.

Kontekstin də müxtəlif növləri vardır: tarixi, psxoloji, mədəni, sosial, fiziki.

Bütün diskurslar müəyyən situasiya daxilində baş verir və diskursun hər bir modeli iştirakçılar, onların məqsəd və informasiya bazası əsasında meydana çıxır. Bunu da qeyd etməliyik ki, indiyə qədər kontekst nəzəri araşdırmaların əsas mövzusu olmadan müxtəlif strukturların tərkibində nəzərdən keçirilmişdir. Amma tədqiqatlarda mətn və diskurs araşdırmaları həmişə əsas mövzu olaraq qəbul edilmiş və kontekst ilə birlikdə tədqiq edilmişdir.

Son dövr araşdırmalar zamanı artıq kontekstin anatomiyası da əsas tədqiqat mövzusuna çevrilmişdir. Kontekst, onun yaranması və mahiyyəti sosial və koqnitiv psixologiya, dilçilik və sosial-linqvstika və başqa nəzəri sahələr üzrə təhlil edilmişdir. Kontekst nəzəriyyəsinin əhəmiyyəti ondan ibarətdir ki, o danışıq və mətn üçün sistematik olaraq müvafiq olan elementləri əks etdirir. Hər bir söhbətdə arxafon olaraq şərh edilən şey kontekstin özüdür. Bizim bu haqda tezisimiz belədir: *Diskursa təsir edən sosial situasiya deyil, iştirakçıların belə bir situasiyanı təyin etmə tərzidir*. Biz burada konteksti obyektiv şərait olaraq deyil, qarşılıqlı əlaqədə formalaşan və yenilənən subyektiv quruluş olaraq təsvir edirik.

Konsept olaraq kontekst bir çox sahələrdə, amma fərqli məna və yanaşmalar ilə qarşımıza çıxır. Kontekstualizm praqmatikadan kənar kontekstsiz, abstrakt, quruluşçu, formalist bir nəzəriyyədir. Lakin yenə də göstərir ki, hadisə situasiya və ya mühitlə əlaqəli şəkildə öyrənilməlidir. Kontekst üçün sadalanan gözəçarpan xüsusiyyətlərdən biri də odur ki, o verilən situasiyalara, dünyanın obyektiv faktlarına əks olaraq davamedən subyektiv fikrin məhsuludur. Burada “kontekst modeli” adlı bir termin ortaya çıxır və bu termin xüsusi mental model kimi müəyyən edilə bilər. Kontekst haqqında əvvəlki bölmələrdə məlumat verdiyimiz üçün, sadəcə mövzu ilə əlaqələndirəcəyik.

Kontekst modelləri haqqındakı ilkin ehtimal odur ki, onlar olduqca “eqosentrikdir”. Onlar təcrübə kateqoriyaları və “Mən” anlayışının məhsuludur. Buna görə də kontekst modelləri müxtəlif danışıq tərzlərinin yaranmasının təməlini formalaşdırır. Kontekst modellərini əks etdirən bu xüsusiyyət onları “nitq prosesinin dinamik iştirakçı tərəfləri” olaraq təyin edir.

Dilçilikdə indiyə qədər kontekst üzərində ən çox cəmləşən nəzəriyyə Sistemli

Funksiyonal Dilçilik nəzəriyyəsidir [34, 13]. Burada bizim kontekst nəzəriyyəsinin əsas subyektiv, mental xarakteristikası haqqında verdiyimiz məlumatlar SFD-nın əsas tərəfdarları tərəfindən ortaya atılan kontekst konsepsiyasına kəskin şəkildə ziddir. Çünki bizim izah etdiyimiz kontekst anlayışı praqmatika nöqteyi-nəzərindən tədqiq edilir. Bu nə deməkdir? Yəni kontekst modellərinin mental xüsusiyyətlərinə praqmatikada əsas rol oynayan Ağıl Nəzəriyyəsinin (Theory of Mind) elementlərini də daxil edirik. Bəs Ağıl Nəzəriyyəsi nədir?

Ağıl Nəzəriyyəsi otizm səbəbi ilə yaranan qüsurları araşdıran ilkin nəzəriyyələrdən biridir. Həmçinin linqvstik praqmatikanın əsas aspektlərindən olan nəticəçıxarma ilə nəzərdə tutulan mənanı tapmaq üzrə araşdırma aparan sahədir. Həmin nəzəriyyəyə əsasən demək olar ki, insanlar söylənən fikirlərdəki qeyd edilməyən nöqtələri, yəni boşluqları nəticəçıxarma ilə doldururlar. Çünki həmsöhbətlər yalnız öz söhbət kontekstinin müvafiq xüsusiyyətlərini formalaşdırmır, həmçinin başqalarında da o xüsusiyyətləri təxmin də edə bilirlər.

Bu nəzəriyyə kontekst modellərinin diskursu idarə etdiyini iddia edir. Bu idarəetmə səbəb-nəticə və ya qərarlılıq arasında əlaqə kimi yaranır. T.Deyk bunu belə izah edir: "***B****-nin zəruri şərti olduqda* ***A B****-ni idarə edir*" [20, s. 12]. Bu fikir də onu göstərir ki, diskurs həmsöhbətlərin paylaşdıqları ümumi məlumat olmadan meydana çıxa bilməz. Koqnitiv olaraq diskursun yaranması və başadüşülməsi prosesində bilik zəruri komponentdir. Bu artıq qəbul edilmişdir ki, kontekst strukturunun növündən asılı olaraq onların idarəetmə gücü zəifləyə bilər. Bu hal əsasən ehtimal edilən situasiyalarda müşahidə olunur və tələffüzdə, söz ehtiyatında, sintaksisdə, hətta mövzu və xüsusi kontekst daxilində baş verir. Amma bu hadisə əsasən formal diskursa aid edilir. Bu zaman fərqli variantlar arasında seçim etmək olur. Nəticədə variantların olması və onlar arasında seçim kontekst elementlərinin başadüşülməsini asanlaşdırır. Eyni zamanda çoxlu sosial və mədəni elementlər də kontekstə daxil ola bilir.

Qeyd edək ki, Avropa, Amerika, Avstraliya və Yeni Zelandiyada cinsiyyət, irq və yaş kimi sosial faktorlar və onların ünsiyyətlə əlaqəsi üzrə çoxlu araşdırmalar aparılır. Onların gəldikləri nəticələr bizim burada qeyd etdiyimiz fikirlər ilə üst-üstə

düşür və onları sübut edir. Eyni zamanda dəfələrlə müşahidə etmişik ki, insanlar kontekts modeli formalaşdırarkən əsas diqqəti subyektiv şərh üzərinə cəmləməlidir. Bununla yanaşı cinsiyyət və ya yaş kimi amillərin təsir etdiyi kontekts modelləri danışanın və ya dinləyənin həmin situasiyada söylədiyi fikirlərdən asılı olaraq dəyişir. Məsələn, öz artıq çəkisi haqqında həssas olan və rejim saxlayan kök bir dostumuzla danışarkən, yediyimiz yeməklərdən bəhs etməkdən çəkinirik. Buradan da görünür ki, danışanın hər dəfə yeni mental model yaratmağı deyil, təcrübədə əvvəlcədən öyrənilmiş kateqoriyalardan istifadəsi daha yaxşı nəticə verir. Eyni zamanda hafizə də müəyyən dərəcədə prosesə müdaxilə edir. Lakin vərdiş çox zaman hafizəni üstələyir və onu prosesə daxil etmir. Məsələn, Bəli, Xeyr deyilən bir mühitə alışmış bir gənc özünün kontekst modellərini yaradarkən sosial münasibətin bu elementlərini də daxil etməyə meyilli olur. Amma onu da qeyd edək ki, hafizədə saxlanan, xatıralanabilən modellərdən istifadə qarışıq məsələdir və hələ tam ətraflı araşdırılmamışdır. Lakin nevroz və şəxsiyyət pozğunluqlarını tədqiq edən koqnitiv psixologiya kontekst modellərinin mental modellər kimi hafizədə saxlanıldığını və lazım olduqda yenidən xatırlandığını təsdiqləyir.

Kliniki praqmatika və psixoterapiyanın ortaq mövzusu olan nitq pozğunluqları haqqında araşdırma da bizə bu məsələni işıqlandırmaq üçün müəyyən qədər əsas verir. Çünki uşaq istismarı və şiddət zamanı ortaya çıxan ağrı, zorakılıq və stresslə yaranan belə sabit mental modellər qeyri-ixtiyari xatırlanan və sonrakı kommunikativ situasiyalarda tətbiq edə bilən kommunikativ kontekstin elementlərini də özündə ehtiva edir. Bu da şiddət görmüş insanların şiddətə meyilli olmasını və aqresiv danışmasını açıqlayır.

Kliniki praqmatika kontekstin diskursun əsasını təşkil etdiyini iddia edir. Əgər kontekstin diskursun əsasını təşkil etdiyini qəbul etsək, deməli diskursun da kontekstə təsir etdiyi düşünülə bilər. Amma bu fikrə tənqidi yanaşanlar iddia edir ki, bu qarşılıqlı təsir praqmatik deyil, daha çox semantikdir. Amma biz iddia edirik ki, bu təsir dinləyici tərəfindən yaradılan referentlər ilə davamlı şəkildə meydana çıxır. Bu qarşılıqlı münasibət şərti mənalar ifadə edən linqvstik işarələrin əksinə olaraq tamamilə praqmatik əlaqədir. Məsələn, hər hansı bir xəstəliyin simptomları xəstəlik

ilə əlaqədə mövcud olur və simptomlar xəstəliyi göstərir. Əgər xəstəlik ruhi patologiya ilə əlaqəlidirsə, bu xəstəlik həmin insanın kontekst modelinin bir hissəsini formalaşdıra və eyni zamanda onun diskursunda ifadə oluna bilər. Məhz bu səbəbə görə ruhi xəstələrin nitqi normal insanlardan fərqlənə bilir.

Burada bir məsələ qaranlıq qalır: "Kontekstual məhdudiyyətlər" fikri "mövzular kontekstin deyil, mətn və diskursun əhatə dairəsinə daxildir" iddiası ilə uyğun gəlmir. Bunu əsaslandırmaq üçün hər kəs kontekstin məhdudlaşdırdığı, hətta idarəetdiyi mövzu seçimi ilə əlaqədar nümunələr tapa bilər. Müsəlman cəmiyyətlərdə və ya uşaqların əhatəsində danışılmayan mövzuları nümunə kimi göstərə bilərik. İstənilən halda bu gələcək tədqiqatlar üçün olan mövzudur.

Müəyyən bir yerdə insanlararası ünsiyyətin etnoqrafiyasını araşdırarkən ilk vəzifə olaraq ən azı müvəqqəti də olsa, söhbət üçün insanlar tapmaq, onların sosial status və mədəniyyətinin vacib aspektləri haqqında müəyyən bir anlayış əldə etməyə çalışmaq və bu faktorların onlarla ünsiyyətə necə təsiri etməsini müşahidə etmək lazımdır.

Digər etnik qrupların etnoqrafik təsvirlərinə nəzəri olaraq bilinən kateqoriyalar və qaydalar çərçivəsində deyil, yerli insanların kommunikativ situasiyaları başa düşdükləri və formalaşdırdığı tərzdə yanaşmaq çox vacibdir. Məhz bu səbəbə görə öz mühitlərində araşdırma aparan etnoqrafların işində obyektivliyin və nisbiliyin inkişafı vacib və eyni zamanda da çətin olur. Məhz buna görə, fərqli mədəniyyətlərdə ünsiyyət nümunələrinin təsvir və təhlilində sadəcə ilkin addımlar atılmışdır. Bunlara təkrarlanan hadisələrin müəyyən edilməsi, onların əsas komponentlərinin tanınması, cəmiyyətin digər aspektləri və baş verən hadisə arasındakı əlaqənin aşkar edilməsi daxildir. Müsəlman və xristian cəmiyyətlərdə yas mərasiminə olan yanaşma və rituallar arasındakı fərqləri nümunə göstərə bilərik. Bu zaman bu sual meydana çıxır: söhbət mühiti ilə tanış olmayan kimsə müəyyən bir vəziyyətdə düzgün ünsiyyət qurmağı bacararmı?

Müşahidə olunan davranış daha geniş qaydaların təzahürü olaraq meydana çıxır və etnoqrafiyanın əsas məqsədi də bir cəmiyyətdə və ya qrupda məzmunca uyğun davranış qaydalarının aşkarlanması və açıqlanmasıdır. Başqa sözlə, fərdin

icmanın funksional üzvü olduğunu dərk etməsi üçün nələri bilməli olduğunu nəzərə almaqdır.

Kommunikativ hadisələrin müəyyən edilməsi. Cəmiyyətlərdəki ünsiyyət qaydaları diskursun bir hissəsi olaraq deyil, hadisələrin müxtəlif növləri kimi kateqoriyalaşdırıla bilər. Çünki hər biri arasında müəyyən qədər fərqli davranış normaları var. Tanış mühitdə ortaya çıxan hərəkətlərin növləri və onların xüsusiyyətləri fərqlidir. Kommunikativ hadisə hərəkət hüdudlarının tanınmasını tələb edir. Məsələn, telefon söhbəti telefonun zəngi ilə "başlanğıc" və dəstəyin yerə qoyulması ilə "bitiş" kimi məhdudlaşan kommunikativ bir hadisədir. Hadisələrin hüdudları ritual ifadələrlə də göstərilə bilər, məsələn, zarafat sonda qəhqəhə ilə bitir. "Biri var idi, biri yox idi" cümləsi başlanğıcı və "Onlar həmişəlik xoşbəxt yaşadılar" hekayənin sonunu bildirir. "Gəlin dua edək" başlanğıc və "Amin" isə duanı bitirir.

Bundan əlavə, hər hansı bir kommunikativ hadisədən sonra üz ifadəsində, səs tonunda, bədən hərəkətlərində dəyişikliklər və ya bir müddət səssizlik ola bilər. Hadisələrin dəyişməsinin ən etibarlı göstəricisi, ehtimal ki, bir danışıq tərzindən ardıcıl şəkildə digərinə tədricən keçiddir. Hüdudlar iştirakçıların, mövzunun və ya ünsiyyətin ümumi məqsədinin dəyişməsi ilə müəyyən edilir.

Söhbət zamanı verbal və qeyri-verbal göstəricilər ilə hüdudlar dəyişə bilər. Ardıcıl hadisələrdə isə bu fərqlənir. Məhkəmədə hadisə iştirakçıların ayağa qalxması ilə başlayır və hakim otağa daxil olub, yerində oturanda bitir. Eyni şəkildə şahidlərin və ya şübhəlinin birbaşa və çarpaz sorğusu ardıcıl, lakin ayrı hadisələr kimi təsbit edilə bilər. Çünki iştirakçılar fərqli rollardadır, suallarda və cavablarda dəyişiklik var, yəni qarşılıqlı ünsiyyət üçün fərqli qaydalar var.

Bu hadisələr iştirakçıların dəyişməsi ya da şifahi səslənən fikirlər ilə bitə bilər. Məsələn, mən filankəsi kürsüyə çağırıram, siz otura bilərsiniz və ya şahid yaxınlaşsın. Əgər məhkəmədə yekun qərardan əvvəl ara verilərsə, bu zaman qarşılıqlı ünsiyyət fasiləli nitq hadisəsi hesab edilir və həmin söhbət başqa bir gün qaldığı yerdən davam etdirilə də bilər.

Nitq mühitində rəsmi ritual tipli hadisələr qeyri-rəsmilərdən daha dəqiq

müəyyən edilmiş sərhədlərə malikdir, çünki həm verbal, həm də qeyri-verbal məzmunlu rutinlər həyata keçirilir. Onlar ritm, ton və intonasiya dəyişikliklərini izləyən və ya onlardan əvvəl baş verən hadisələr əsasında formalaşırlar. İnsanlar arasında qarşılıqlı əlaqələr demək olar ki, hər zaman salamlaşma, sağollaşma kimi və s. rutinlərdən ibarətdir və bu rutinlər uzun və qeyri-rəsmi kommunikativ hadisələrin sərhədləri müəyyən etməyə kömək edir, çünki onlardan əvvəl və ya sonra gəlirlər.

Kommunikativ normaların aşkar edilməsi əsasən onların pozulması zamanı açıq-aydın üzə çıxdığına görə, bu normaların pozulması müvafiq çərçivə daxilində hüdudları dəyişə bilir. Məsələn, bəzi insanlar teatr tamaşasının sonunda başqalarının vaxtından əvvəl alqışlamasından narahat olurlar. Burada bu alqışlama hadisəsinin sonu ifanın və ya bütün musiqinin sonu mənasını vermir və bu ikisi arasındakı fərqi göstərir. Bu hadisə baş verən zaman digərləri alqışlamaq əvəzinə öz aralarında söhbət də edə bilərlər, çünki onlar üçün hadisənin sonu, yəni alqışlama hərəkətinin vaxtı hələ başlamayıb.

Kommunikativ normalara nümunə olaraq yəhudi və müsəlmanları göstərə bilərik. Yəhudilər sinaqoqa daxil olduqdan sonra da söhbətə davam edirlər, çünki onlar bunu normal qəbul edirlər. Halbuki, müsəlmanlar üçün bu qeyri-etik davranış hesab edilir, çünki müqəddəslik hüdudları pozulur.

Fikrimizi daha da sadələşdirmək üçün aparılan bir araşdırmanı nümunə olaraq göstərə bilərik. Qeyri-rəsmi situasiyalarda mikroanalizasiya aparmaq üçün fərqli bir dildə müxtəlif kommunikativ situasiyalar lentə alınıb. Daha sonra iştirakçılardan xahiş olunub ki, filmi izləsinlər və hərəkət dəyişəndə göstərsinlər. Tədqiqatçılar kontekstin iştirakçı baxımından necə dəyişdiyini müəyyənləşdirmək üçün hadisənin xarakteristikasını və nələr ola biləcəyi ilə əlaqədar gözləntilərini əvvəlcədən ifadə ediblər. Bu tədqiqatın uğurlu alınması üçün asanlıqla müəyyənləşdiriləbilən kommunikativ hadisələr, yəni başlanğıc və sonluqlara malik qısa, müstəqil ardıcıllıqla baş verən hadisələr seçilmişdir. Müəyyən tezliklə təkrarlanan hadisələri seçməkdə məqsəd onların daha asan müəyyən edilməsidir: salamlaşmalar, sağollaşmalar, ibadətlər, başsağlıqları, zarafatlar, təhqirlər, komplimentlər,

restoranda yemək sifarişi və s. Mürəkkəb və nisbətən az müşahidə edilən hadisələr ilə müqayisədə sadə və müntəzəm kommunikativ hadisələr asanlıqla təhlil edilir. Təhlilin nəticəsinə əsasən fərqli dildə də olsa, iştirakçıların əksəriyyəti bitən və başlayan hərəkətləri, dili bilmədən düzgün təyin edə biliblər. Bu da yuxarıda qeyd etdiyimiz fikirləri sübut edən daha bir faktdır.

Ünsiyyət komponentləri. Kommunikativ bir hadisənin analizi onun komponentlərinin təsviri ilə başlayır. Komponentlər aşağıdakılardır:

1. Hadisənin növü və ya janrı (məsələn, zarafat, hekayə, mühazirə, salamlaşma, söhbət);
2. Mövzu;
3. Məqsəd və ya funksiya (hadisədəki həm ümumi, həm də fərdi iştirakçıların qarşılıqlı ünsiyyət məqsədləri əsas götürülür);
4. Quruluş, o cümlədən məkan, günün vaxtı, ilin mövsümü və vəziyyətin fiziki aspektləri (məsələn, otağın ölçüsü, mebelin yerləşməsi və s.);
5. Hadisənin əsas vəziyyəti (məsələn, ciddi, sarkastik,zarafatyana);
6. İştirakçılar, o cümlədən onların yaşı, cinsiyyəti, etnik mənsubiyyəti, sosial vəziyyəti və ya digər müvafiq kateqoriyalar, eyni zamanda onların bir-birlərinə olan münasibətləri;
7. Mesaj forması (dil və onun ötürülmə vasitəsi);
8. Mesajın məzmunu və ya istinadları (nə haqqında danışılır);
9. Hərəkət ardıcıllığı və ya kommunikativ/nitq aktlarının sıralanması, o cümlədən, növbələşmə və üst-üstə düşən hadisələr;
10. Qarşılıqlı ünsiyyət qaydaları;
11. Söhbət normaları, o cümlədən, ümumi bilik, müvafiq mədəni səviyyə və ya ümumi fikir oxşarlıqları.

Bunların hamısını bir-bir nəzərdən keçirək.

Mühit (janr, mövzu, məqsəd/funksiya, quruluş). İlk dörd komponent mühiti və ya hadisənin kontekstini təşkil edir. Janrın müəyyənləşdirilməsi və ya ünsiyyət kateqoriyası tədqiq edilən nitq mühitindəki qavrayışı həyata keçirən prosedurları nəzərdə tutur. Ünsiyyətdə əsas prinsip kimi onun əhəmiyyətini belə açıqlaya bilərik:

janr sistemli, əlaqəli, oxşar formal xüsusiyyətlər və strukturların bir-biri ilə birləşməsidir və janr diskursun yaranması və dərk edilməsi üçün konseptləşdirilmiş bir çərçivə kimi fəaliyyət göstərir. Məsələn, salamlama janrı eyni zamanda həmrəyliyi möhkəmləndirmək və status fərqini göstərmək üçün istifadə oluna bilər. Eyni zamanda bəzi alimlər göstərir ki, salamlaşma yeni məlumatların axtarışı və ictimai davranışa senzura kimi də istifadə oluna bilər.

Mövzu həmçinin həmin mədəniyyətə xas nəticəçıxarma da tələb edir, çünki bəzi mövzular tez-tez açıq şəkildə ifadə edilmir. Məqsədin müəyyən edilməsinin özü də çox mərhələli proseslər tələb edir.

Quruluş birbaşa müşahidə oluna bilən mühitin yeganə komponentidir. Lakin tədqiqatçılar bu komponenti quruluşun bir aspekti olaraq qəbul etmirlər, çünki bəzi mədəniyyətlərində bu vacib faktor deyil. Yaponiyada stulların nisbətən yüksəkdə yerləşdirilməsi və ya başqa mədəniyyətlərdə öndə, arxada və ya kənarda oturma hadisəsinin mənası fərqli ola bilər. Amerikada ibtidai siniflərdə sinif otağında stollar dairəvi yerləşdirilir. Azərbaycanda isə əsasən düz sıralar şəklində yerləşdirilir. Çünki bizdə bu müvafiq mənada rəsmilik və ciddiyyət göstərir.

Günün vaxtı, həftənin günü və ya ilin mövsümü tez-tez dil formalarının seçiminə təsir göstərir. Yəni zaman janrı müəyyən edə bilər. Məsələn, Navajo şəhərində qış ayları istisna olmaqla, heyvanların qışlaması haqqında danışmaq olmaz. Çünki onlar haqqında ənənəvi hekayələr sadəcə ilin müəyyən vaxtlarında danışılır. Pravoslav yəhudilər şənbə günü dünyəvi mövzuları danışmaqdan imtina edirlər. Azərbaycanda Aşura günü əyləncəli söhbətlər edilməz və insanlar əsasən matəm havasına bürünürlər. Əksinə, yeni il, novruz bayramlarında isə həmin kontekstlərə uyğun mövzularda söhbətlər edilir. Aprelin 1-i isə əsasən zarafat və sarkastik söhbət konteksti yaranır.

Məkan və zaman salamlamanın mənasına təsir edə bilər. Abbey mədəniyyətində hər kəsi eyni yerdə salamlamaq düzgün qəbul edilmir. Birini küçədə gördüyün zaman, həmin insana onun evinə getdiyini bildirirsən, evə çatdığı zaman isə onu salamlayırsan. Bu sənin ona qarşı olan diqqət və qayğını göstərir. Bəzi yerlərdə isə səhər salamlaşma çox vacibdir, çünki səhər günün başlanğıcıdır və

inanırlar ki, səhər salamlaşdığın insan bütün gününün necə keçəcəyini müəyyənləşdirir. Belə bir inanc Azərbaycanda da mövcuddur. Ona görə də insanlar bəzən şüurlu şəkildə bəziləri ilə üz-üzə gəlməməyə çalışır, inanırlar ki, həmin insanlar pis şans gətirirlər.

Təhlil apararkən hadisə ilə əlaqədar aşağıda qeyd olunan suallara cavab vermək lazımdır:

- Bu necə bir kommunikativ hadisədir?
- Bu nə haqqındadır?
- Bu niyə baş verir?
- Harada və nə vaxt baş verir?
- Hadisənin quruluşu necədir?

Bir quruluşun əhəmiyyətini anlamaq üçün müvafiq ola biləcək əlavə suallar isə bunlardır:

- Fərdlər müxtəlif məqsədlər üçün toplaşdığı qruplarda (məsələn, növbədə, masa arxasında, döşəmədə, otaqın ortasında, ətrafda) özlərini məkan olaraq necə yerləşdirirlər?
- Qrupda hansı coğrafi konsepsiyalar, anlayışlar və inanclar mövcuddur?
- Cəhətlərin (şimal, cənub, şərq, qərb) əhəmiyyəti nədir?
- Müxtəlif istiqamət və ya məkanların əhəmiyyətli olması (cənnətin yuxarıda olması inancı, insanlar dəfn edilərkən üzlərinin qibləyə qoyulması, yeməkdə ev sahibinin başda oturması) nə ilə əlaqəlidir?
- Hansı inanclar və ya dəyərlər gün və ya mövsüm anlayışları ilə əlaqələndirilir və onlarla əlaqəli xüsusi davranış qaydaları vardır? (məsələn, Azərbaycanda may ayında toy edilmir, bəzi yerlərdə ilan sancmaması üçün müəyyən mahnılar yay vaxtı oxunmur, günəş batandan sonra dırnaq tutulmur)

Zaman və məkan anlayışları bir çox mədəniyyətlərdə böyük əhəmiyyətə malikdir və böyük ölçüdə mədəniyyətlərarası qarşıdurma və ya yanlış anlaşılmaya səbəb ola bilər, çünki çox vaxt şüursuz şəkildə düşünülmədən icra edilir. Ancaq onu da qeyd etməliyik ki, etnoqraflar müxtəlif mədəniyyətlərdə qorunub saxlanan vaxt və məkanla bağlı bir çox anlayış və münasibətlərin növbəti nəsillər tərəfindən də

qorunub saxlanacağını ehtimal etmirlər.

Dil. D.Himesin sözlərinə görə "*Dil icra edilən hərəkətdə tonu və tərzi təmin etmək üçün istifadə olunur*" [48, s. 280]. Biz bu mövzuya fərqli yanaşa bilərik: məsələn, zəhlətökənliyə qarşı ciddiyyət, sarkazma qarşı səmimiyyət, düşmənçiliyə qarşı mehribanlıq, pisliyə qarşı yaxşılıq, çalışqanlığa qarşı səthilik və s. ilə qarşılıq verdikdə, alışılmış normalar pozulur.

Dil müxtəlif janrlara da aid olur (məsələn, zarafatlar məzhəkəli, başsağlığı kədərlidir), lakin bu zəruri bir əlaqə deyil. Hətta bəzi hallarda zarafatlar sarkazm ilə və ya başsağlığı isə hədələyici şəkildə icra edilə bilər.

Dil əsasən dil istifadəsinin xüsusi bir funksiyasıdır, iştirakçılar arasında rollara uyğun olaraq mesaj forması və söhbət məzmunu ilə əlaqələndirilə bilər. Bu komponentin kommunikativ hadisələrin təsvirində və təhlilində əhəmiyyəti ondadır ki, dil ünsiyyət hadisəsinin digər komponentlərinə nəzərən müstəqil dəyişə bilir. Komponentlər arasında kəskin bir ziddiyyət olduqda, dil ümumiyyətlə digər elementləri əvəz edir. Məsələn, sarkazm ilə iltifat edildikdə, sarkazm mesajın forma və məzmununu əvəzləyir və iştirakçılar arasında fərqli bir əlaqəni ifadə edir. Kompliment səmimi olduqda bu hal baş vermir.

Dil seçimi qeyri-verbal işarələr, paralinqvstik xüsusiyyətlər və ya elementlerin birləşməsi ilə ifadə edilə bilər. Məsələn, Azərbaycanda yasda rəsmi sükunət hadisəsinin dili olaraq gülməmə və şən mövzulardan danışmama qəbul edilir. Çində yemək qonaqlığında mehribanlıq və qonaqpərvərliyin dərəcəsi nitqdə istifadə edilən nidaların sayı, həmçinin artan və enən intonasiya ilə ifadə edilir.

Ünsiyyətin digər komponentləri kimi dildə ifadə olunan fikrin şərhi də hər kəsin öz mədəniyyətinə xasdır və yerli anlayışa görə müəyyən edilməlidir. Bunun fikrin mənası ilə bağlı əhəmiyyətini nəzərə alsaq, dilə istinad təhlilin mühüm bir aspektidir. Almaniyada insanlar ingilis dilində danışarkən "thank you (sağ ol)" cümləsini həm, təsdiq, həm də inkarda işlədirlər. Tək başında istifadə etdikdə, inkar, zəhmət olmasa (please) sözü ilə birlikdə işlətdikdə, təsdiq mənasını verir.

- Would you like some tea?
- Thank you (Xeyr - No).

- Thank you, please (Bəli – Yes).

İştirakçılar**.** İştirakçılar haqqında məlumatlara cavab vermək üçün əsas suallar aşağıdakılardır:

- Hadisədə kimlər iştirak edirlər?
- Onlar necə təşkil olunurlar?

Bu kateqoriya yalnız danışanlardan deyil, həm də dinləyicilərdən və kənardan eşidənlərdən ibarətdir. Bundan əlavə yazıçı, oxucu və ya tərcüməçi də bura aid edilə bilər. İştirakçıların xarakteristikasına təkcə müşahidə edilə bilən xüsusiyyətlər deyil, ailə və digər sosial qruplarda sahib olduğu rol ilə əlaqəli məlumatlar, həyatındakı fərqləndirici xüsusiyyətlər, cinsiyyət və sosial statusuna görə qrup daxilində tutduğu mövqe daxildir. Hadisədə iştirakçıların necə təşkil olunduğunu təhlil etmək üçün onların bir-birinə münasibətdə hansı rolları ifa etdiyini, kommunikasiyanın qurulmasında və həyata keçirilməsində necə fəal iştirak etdiklərini başa düşmək vacibdir.

Hadisə iştirakçılarını təhlil etmək üçün aşağıdakı suallara müvafiq cavablar tapmağa çalışmalıyıq:

- Ailədə kimlər var? Kimlər bir evdə yaşayır?
- Ailədə səlahiyyətlər necə müəyyən edilir və bölünür?
- Hər bir ailə üzvünün hüquq və vəzifələri nələrdir?
- Daha böyük sosial qruplarda ailənin funksiyaları və vəzifələri hansılardır?
- Həyatda mərhələlər, dövrlər və ya keçidlərin müəyyənləşdirilməsi üçün meyarlar hansılardır?
- Həyatın müxtəlif mərhələlərində fərdlərə qarşı münasibətlər, gözləntilər və davranışlar necədir? Hansı həyat mərhələsi daha çox qiymətləndirilir? Hansı həyat mərhələsi daha çətindir?
- Kim kimin üzərində səlahiyyətə malikdir? Bir insan başqa birinə öz iradəsini nə dərəcədə təlqin edə bilər? Hansı yollarla?
- İctimai nəzarət vasitələri və müxtəlif sosial kateqoriyalar quruluşa və münasibətə görə bir-birindən fərqlənir?
- Qrupda hansı rollar var və onlar necə müəyyən edilir?
- Xüsusi rolların müsbət və ya mənfi xüsusiyyətləri varmı?

Etnoqrafik təsvir və analiz prosesində iştirakçıları dil və mədəniyyət görə əlaqələndirən suallar belədir:

- Dil həyatla necə əlaqəlidir?
- Dilin istifadəsi rolların izahında və ya sosial qiymətləndirilməsində əhəmiyyətlidirmi? Müxtəlif münasibətdə olan insanlar arasında hansı xitab formalarından istifadə olunur?
- Hörmət necə göstərilir? Təhqirlər necə ifadə edilir?
- Kim kiminlə narazılıq yaşaya bilər? Hansı şəraitdə?
- Yaxşı natiqlik xüsusiyyətləri yaş, cinsiyyət və digər sosial amillər ilə necə əlaqəlidir?
- Nitq bacarığı, savad və ya yazma qabiliyyəti cəmiyyətdə status qazanmağa necə təsir edir?
- Hansı rollar, münasibətlər və şəxsi xüsusiyyətlər danışma tərzi ilə əlaqəlidir?
- Kim kiminlə ünsiyyətə girə bilər? Nə vaxt? Harada? Nə haqqında?
- Sosial nəzarətdə dilin rolu nədən ibarətdir? Çoxdilli kontekstlərdə bir dilin digərinə qarşı istifadə edilməsinin əhəmiyyəti nədir?

Ünsiyyət prosesində hətta iştirakçıların paltarları da onların kommunikativ davranışlarının izahı üçün əhəmiyyətli ola və, beləliklə, izah tələb edə bilər. Məsələn, ərəb mədəniyyətində əgər qadınlar örtük geyinibsə, kişilər qadınlarla söhbət edərkən, yaxın dayana bilərlər.

Kommunikativ hadisələrdə kimlərin iştirak edə bilməsi düşüncəsi mədəniyyətlərə görə dəyişir və bəzi mədəniyyətlərdə bu sadəcə insanlarla məhdudlaşmır. Bəzi insanlar, xüsusilə də avropalılar heyvanlar ilə ünsiyyət saxlamağın mümkün olduğunu düşünürlər. Digər tərəfdən Azərbaycan mədəniyyətində isə yad kişinin yaxınlaşıb evil, gənc qadınla ünsiyyətə girməyi düzgün sayılmır. Çoxlu başqa nümunələr də gətirmək mümkündür.

Mesaj forması**.** Kommunikativ davranışlar üzrə müxtəlif sosial, mədəni və situasiyadan asılı məhdudiyyətlər həm verbal, həm də qeyri-verbal kodlar şəklində, mesajın məzmununda, kommunikativ hadisələrin hərəkət ardıcılığında vokal və

qeyri-vokal kanallar tərəfindən ötürülür. Bu kodların müxtəlif növləri olsa da, mesaj formasının bir hissəsi sayılır. Mesajın ötürülmə kanalı üz-üzə ünsiyyət, telefon və ya sonra dinləniləcək bir səs lenti ola bilər. Yazılı ünsiyyətdə ötürülmə kanalı yazılı bir kağız və ya elektronik qurğu olduqda bir-birindən fərqlənir. E-poçt ilə adətən vokal rabitənin bir çox xüsusiyyətlərini əks etdirmək olur, çünki bu zaman planlaşdırma və ya sonradan redaktə halları mümkündür. Mesajlaşma tətbiqlərində isə redaktə mümkün deyil, amma emosiyaları göstərmək üçün qeyri-verbal vizual simvollar, yəni smayliklər də var. Bu simvollar vasitəsi ilə şifahi nitqdə intonasiya ilə çatdıra biləcəyimiz emosiyaları da fikirlərimizə əlavə edərək başadüşülməni asanlaşdıra bilərik. Məsələn, : -) xoşbəxt, : -( kədərli və s. Hal-hazırda yazılı ünsiyyət mesajlaşma proqramlarının inkişafı ilə daha da geniş yayılmağa başlamışdır.

Verbal kodların təhlili sadəcə sözlü və yazılı dil ilə məhdudlaşır, amma verbal ünsiyyətin digər formaları da olduqca geniş yayılmışdır. İnstrumental səslərə (məsələn, fit və baraban vuruşları) əsaslanan kommunikativ sistemlər dünyanın bir çox yerində istifadə edilir. Məsələn, gəmilər arasında və ya başqa sahələrdə əlaqə yaratmaq məqsədi ilə elektron ötürücülər üçün çoxlu kodlar işlənib hazırlanır. Hətta fit və ya baraban kodları qısa mətnlərin dəfələrlə təkrarlandığı bir siqnal sistemi kimi istifadə edilə və ya daha geniş mətnlərin ötürüldüyü bir ünsiyyət tərzi də ola bilər.

Verbal/qeyri-vokal ünsiyyətin ən səciyyəvi nümunəsi olaraq işarə dilini göstərə bilərik. Həmin dildən eşitmə qüsuru olan insanların olduğu yerlərdə istifadə olunur. İşarə dili hər hansı bir səsləndirmə edilmədən də, şifahi ünsiyyətin bütün digər xüsusiyyətlərini özündə ehtiva edir. İşarə dili istifadə edildiyi zamanı, əl hərəkəti ilə yanaşı, bir sıra vizual davranışlar şifahi nitqin əvəzləyicisi kimi fəaliyyət göstərir. Bunlara üz ifadələri, mimikalar daxildir. İşarə dilinin qeyri-verbal xüsusiyyətlərinə gözlərini qırpmaq və ya baxışlarını yayındırmaq da daxildir.

Əlavə olaraq sükutun özünün belə mənaları var. Təəssüf ki, dilçilikdə sükutun söhbətin başlaması və bitməsini göstərmə funksiyasından başqa digər funksiyaları hələki nəzərə alınmır. Ənənəvi yanaşmada o yalnız mənfi mənada, yəni deyiləcək sözün olmaması kimi təsvir edilir. Ancaq biz burada göstərməyə çalışacağıq ki, ünsiyyətin adekvat təhlil və izahı tələb edir ki, biz sükut kimi hadisələrin rolunu və

mənasını düzgün başa düşək.

Sükutu təhlil edərkən bir çox şeyi nəzərə almalıyıq. Çünki sükut məna daşıya bilir, amma aydın məzmunlu şəkildə deyil. Bəzən də sükut səssiz kommunikativ akt kimi məna ifadə etmək üçün şifahi nitqdən asılı olur. Buna söhbət zamanı ortaya çıxan pauza və tərəddüdlər də daxildir. Bu cür sükut düşünülmüş və ya düşünülməmiş şəkildə icra edilə bilir və çoxlu məna çalarlarına malik olur. Buna baxmayaraq onun mənası simvolikdir. Nəzərdə tutulan məzmunu çatdırmaq üçün istifadə olunan səssiz kommunikativ aktlara jestlər də daxil ola bilər, amma unutmamalıyıq ki, hər süküutun bir mənası yoxdur.

Bir kommunikativ hadisəni təhlil etmək üçün D.Himes mədəni mühit nəzərə alaraq SPEAKING adlı bir metod irəli sürmüşdür. SPEAKING diskursda hər bir linqvstik elementin baş hərflərdindən yaranan bir akronimdir [48, s. 104]. Bu model təkcə sözlərin forma və məzmununu deyil, həm də ona təsir edən mədəni elementləri də nəzərə alır. Aşağıda D.Himesin kommunikativ nitqi təhlil etmək üçün nümunə kimi təklif etdiyi modeli ümumiləşdirilmiş bir şəkildə göstərəcəyik. Daha sonra hər bir komponentin ətraflı izahı veriləcəkdir.

- **S**ituation (situasiya)
- **P**articipants (iştirakçılar)
- **E**nds (sonluqlar)
- **A**cts (aktlar)
- **K**ey (dil)
- **I**nstrumentality (vasitəçilik)
- **N**orms (normalar)
- **G**enre (janr)

Situasiya**.** Situasiya komponentlərin birincisi olaraq məkan və quruluşu müəyyən edir. Bu hadisənin kontekstidir və əsasən söhbətin vaxt və məkanını nəzərə alır. Bizə bu komponenti təhlil etməyə kömək edə biləcək bəzi suallar var. Onlar aşağıdakılardır:

- Kommunikativ hadisə nə haqqındadır?
- Niyə baş verir?

- Harada və nə vaxt ortaya çıxır?
- Onun quruluşu necədir?
- İştirakçılar necə təşkil olunur?

İştirakçılar**.** Bu komponent qarşılıqlı əlaqəyə girən insanların yaşını, cinsiyyətini, etnik mənsubiyyətini və ya digər müvafiq kateqoriyalarını, həmçinin aralarındakı münasibətləri təsvir edir. Burada hadisədə iştirak edən insanlar, eləcə də onların necə təşkil olunduğu təsvir edilir. Bu komponentin təsvirində danışanlardan əlavə dinləyicilər və hadisədə iştirak edən digər şəxslər də vacib rol oynayır. Avtobusu və ya metronu düşünək. İki nəfər söhbət edir, amma ətrafda əlavə insanlar da var və bu da söhbətin mənasına öz təsirini göstərir. Bu zaman fikrin örtülü çatdırılması müşahidə oluna bilər.

Sonluq**.** Bu komponent, ümumiyyətlə, hadisələrin məqsəd və ya funksiyasını eləcə də, fərdi iştirakçıların məqsədlərini göstərir.

Aktlar**.** Bu bir hadisə çərçivəsində kommunikativ aktların sıralanması haqqında məlumatları ehtiva edir.

Dil**.** Dil icra edilən hərəkətdə səs tonu, danışıq tərzi və ya qaydalarını təhlil etmək üçün istifadə edilir. Dilin təhlili həmçinin istifadə olunan dil variantlarını, paralinqvtistik xüsusiyyətləri və ya qeyri –şifahi ünsiyyət formalarını da əhatə edə bilər.

Vasitəçilik. Bu hissə mesaj forması və məzmununa istinad edir. Mesaj formasında kanal və kodu müşahidə etmək vacibdir. M.Saville-Troike görə, aşağıdakı cədvəl bunu etmək üçün faydalı ola bilər [98, s. 116]:

**Şəkil**

**Mesajın kanalı və kodu**

CHANNEL

| CODE | | *Vocal* | *Nonvocal* |
|---|---|---|---|
| | *Verbal* | Spoken language | Written language<br>(Deaf) Sign language<br>Whistle/drum language<br>Morse code |
| | *Nonverbal* | Paralinguistic and prosodic features<br>Laughter | Silence<br>Kinesics<br>Proxemics<br>Eye behavior<br>Pictures and cartoons |

Cədvəldən göründüyü kimi mesaj forması və məzmunu birbaşa əlaqəlidir. Mesajın məzmunu kommunikativ hadisələrin nə ilə bağlı olduğuna və ötürülən mənaya görə dəyişir. Qarşılıqlı söhbətin müvəffəqiyyətli bir ünsiyyət kimi həyata keçməsi üçün məzmun vacibdir.

Normalar. Bu komponent qarşılıqlı əlaqə zamanı söhbət qaydaları və normalarına nəzarət edir, çünki təhlil zamanı hansı nitq qaydalarından istifadə olunduğunu izah etmək vacibdir. Söhbət edərkən növbələşmə və söhbət növbəsini alma tərzi və qaydaları bura daxildir. Bunlar hər yerdə rastlaşdığımız qarşılıqlı əlaqələrdir. Bunlara əməl olunmaması arzuolunmaz nəticələr doğura bilər. Özünüzdən vəzifəcə böyük birinin nitqini dayanmadan kəsdiyinizi düşünün. Və ya birinin söhbət əsnasında fasiləsiz danışdığını və söhbət növbəsini digərlərinə vermədiyi bir vəziyyəti təsəvvür edin.

Janr**.** Nəhayət, janr ünsiyyətin kateqoriyası ilə əlaqəlidir. Söhbətin tərzini müəyyən edir: ciddi, formal və ya zarafatyana söhbətlər və s.

Eyni zamanda real ünsiyyət şəraitində həmsöhbətlər müəyyən fikirlər ifadə edərkən bunları dəstəkləmək üçün fərqli hərəkətlər icra edirlər. Bu icra etdikləri hərəkətlər ifadə etdikləri cümlələrin fərqli mənada başa düşülməsinə səbəb ola bilər. Bu edilən hərəkətlərə kommunikativ akt və ya nitq aktı deyilir. Kommunikativ akt danışanın məlumatı dinləyənə göstərmək və ya çatdırmaq məqsədi ilə etdiyi bir hərəkətdir. Bir çox nitq aktı şifahi danışıq vasitəsilə həyata keçirilir. Bu C.Sirl kimi bəzi alimlərin nitq aktlarını insan ünsiyyətinin təməl vahidləri olaraq qəbul etməsinə səbəb olub [99]. Ancaq C.Sirlin nitq aktları kimi qiymətləndirdiyi bəzi hərəkətlərin, məsələn, xəbərdarlıq, etiraf, təhdid, imtina, yalvarma və s. əslində nitq ilə əlaqəli olmadığını görürük. Çünki danışmadan da xəbərdarlıq etmək və ya razılıq vermək olar. Buna nəzərə alaraq, biz nitq aktı termini əvəzinə kommunikativ akt işlətməyin daha düzgün olduğunu fikirləşirik. Çünki bu aktlar əksər şifahi hərəkətlərin yerinə yetirilmə qaydalarına nəzarət etməklə yanaşı, bir qayda olaraq kommunikativ aktın baş verə biləcəyi kontekstləri də tənzimləyir.

Kommunikativ akt nəzəriyyəsi sözlərin təkcə məlumat təqdim etmək üçün deyil, həm də hərəkətləri həyata keçirmək üçün necə istifadə olunduğunu öyrənən

praqmatikanın əsas sahələrindən biridir. Nitq aktı nəzəriyyəsi dil fəlsəfəsində yalnız dilin geniş mənalı istifadəsini nümayiş etmək üçün deyil, həm də bəzi fundamental məsələlərə toxunmaq üçün vacibdir. Məsələn, danışanın ifadə etdiyi məna ilə ənənəvi məna arasındakı fərq, ifadə edilən mənanın semantik və praqmatik cəhətləri arasındakı fərqlər və dil biliklərinin əhatə dairəsi.

Danışanın ifadə etdiyi cümlənin mənasının semantik mənadan fərqlənməsi mümkündür. Eyni zamanda danışanın ifadə etdiyi məna semantik mənanı özündə ehtiva edə, lakin müəyyən qədər kənara da çıxa bilər. Məsələn, dolayı nitq aktları, metafora və ya kinayə istifadə etdikdə bu hadisə yaşanır. Qısacası, danışanın ifadə etdiyi məna ilə cümlə mənası arasındakı fərq nitq aktlarının bütün nəzəriyyələri üçün ortaq mövzudur. Buradaki əsas sual bu fərqin kontekstdən kənar mənalar (semantika) ilə kontekstdən asılı mənalar (praqmatika) arasındakı fərqlə eyni olub-olmamasıdır.

### 2.4. Qayıdış əvəzliklərinin praqmatik təhlili

İngilis dilinin qrammatikasında anafora başqa bir söz və ya ifadəyə yenidən istinad etmək üçün bir əvəzliyin və ya digər dil vahidinin istifadə edilməsinə deyilir. Anaforanın istinad etdiyi linqvistik ünsür və ya elementlərə "*antesedent*" deyilir. Anaforanın müxtəlif növləri var və çox geniş mövzudur, ona görə biz burada sadəcə refleksiv anaforaları təhlil edəcəyik.

Anafora və onların nəzəri xarakteristikasına əsasən, refleksivlərin aşağıdakı xüsusiyyətləri ifadə etdiyi geniş şəkildə qəbul edilmişdir:

a) Qayıdış əvəzliyi minimum səviyyədə birgə indeksləşdirilmiş, təyinedici ismi ifadə ilə idarə oluna bilər.

b) Refleksivlər digər əvəzliklərlə bərabər bölgüdədir.

c) Refleksivlərin diskursa ilə əlaqələnməsinə icazə verilmir.

d) Refleksivlər ayrı antesedentlər qəbul edə bilmirlər.

Amma bəzən refleksivlər fərqli xüsusiyyətlər nümayiş etdirir. Biz bunları problemli refleksivlər adlandıracağıq. Problemli refleksivlərin xüsusiyyətləri aşağıdakı kimi ümumiləşdirilə bilər:

a. Bəzi refleksivlər öz antesedentləri ilə idarə olunmaya bilər.

b. Bəzi refleksivlər digər əvəzliklər ilə sərbəst variasiyadadır.

c. Bəzi refleksivlər diskurs ilə əlaqəli ola bilər.

d. Bəzi refleksivlər ayrı antesedentlərə imkan verir.

Anaforanın neo-Qrays praqmatik izahı**.** Anaforanın praqmatik nəzəriyyəsi danışanın və dinləyənin refleksiv və digər əvəzlikləri anaforik olaraq istifadə və şərh etmək üçün nələr etməli olduqlarını araşdırır və insanların sahib olduğu dil bilikləri və verdikləri praktik məlumatların əlaqəsini müəyyən edir. Dil istifadəçiləri olaraq əslində nə deyildiyi və nəyin nəzərdə tutulduğu arasındakı fərqi ayırd etmək qabiliyyətimiz var. Əgər bir kişi qadına "Kafeye gedək?" sualı verirsə və qadın da "Çox işim var, gedə bilmərəm" deyirsə, o zaman kişi burada deyilən fikirdən nəyin nəzərdə tutulduğu başa düşə bilər. Bizim belə bir cavabdan başa düşdüyümüz odur ki, qadın onunla kafeyə getmək istəmir. Bu şəkildə çatdırılan məlumata söhbət eyhamı deyilir. Söhbət eyhamı nəzəriyyəsində P.Qrays göstərir ki, söhbət mübadiləsi zamanı danışanın da, dinləyənin də bilməli olduqları bir əsas prinsip var. O bu prinsipi "Əməkdaşlıq prinsipi" adlandırır və 4 alt prinsipə bölür [3]. Əməkdaşlıq prinsipi və onun aşağıdakı 4 qaydasına əsasən söhbət mübadiləsi zamanı danışan kifayət qədər məlumat verməlidir ki, danışan və dinləyən arasındakı ünsiyyət prosesi səmimi, səmərəli, müvafiq və qarşılıqlı şəkildə həyata keçsin.

Əməkdaşlıq prinsipi maksimaları:

a) Keyfiyyət –doğru olun;

b) Kəmiyyət – nə tələb olunandan çox, nə də az danışmayın;

c) Relevantlıq – mövzuya uyğun olun, mövzudan yayınmayın;

d) Tərz - qısa və anlaşıqlı olun [28, s. 43].

P.Qrays iddia edir ki, həm danışan, həm də dinləyici bu prinsip və onun tərkib hissələrinə əməl edərsə, söhbət müvəffəqiyyətli alınacaq, əks halda bu qaydaların pozulması söhbət eyhamına səbəb olacaqdır [29]. Belə olanda, demək istənilən şey ilə ifadə edilən fikir üst-üstə düşmür. Onda qaydalar onların izah edilməsinə imkan vermir, çünki onlar bu zaman onun nə üçün baş verdiyini izah etməyə çalışırlar.

Qrays prinsipindən istifadə edərək müxtəlif dillərdə anaforanın istifadəsi və

izahını verməyə çalışmış bir neçə dilçilər vardır. Onlardan biri olan S.Levinson anaforanın işlənmə yeri və izahını düzgün vermək üçün yeniləşdirilmiş Qrays eyhamlar prosedurunu yaratdı. O, orijinal Qrays qaydalarının sayını üçə azaladaraq anaforanın şərhi üçün bir neçə neo-Qrays danışan və dinləyən strategiyaları təklif etdi. S.Levinsonun sayını üçə azaltdığı prinsiplər Q–keyfiyyət (Quality), İ–məlumatlılıq (Informativeness), M–tərz (Manner) idi [71, s. 400]. Q prinsipi danışanın informasiya cəhətdən bacardığı qədər güclü bir fikir söyləməyi tələb edir. Çünki dinləyici danışanın əməkdaşlıq etdiyini düşünməlidir. Bu prinsip semantik cəhətdən zəif bir əvəzliyin əvəzinə, refleksivin işləndiyi cümlələri daha aydın izah edir. Beləliklə, semantik cəhətdən güclü bir refleksivin işlənməli olduğu zaman semantik cəhətdən zəif bir əvəzliyin istifadə edilməsi Q prinsipinin fərqli istinadlar etməsinə səbəb olacaqdır. Digər tərəfdən, İ prinsipi göstərir ki, minimum səylə maksimum informasiya dəyəri olan forma istifadə etmək mümkün olsaydı, hər kəs bundan istifadə edərdi.

S.Levinsonun minimallaşdırma anlayışı semantik minimizasiyaya aiddir [70]. Buna prinsipə görə, əsas fikirlərə üstünlük vermək lazımdır. Fərz edək ki, əvəzlik ümumi fikrin ifadə edilməmiş tərəfidir, bu zaman semantik cəhətdən daha güclü bir qayıdış əvəzliyi işlənə bilməyəndə daha ümumi məna ifadə edən bir digər əvəzliyin istifadə edilməsi ümumi fikir ifadə bildirəcəkdir. İ prinsipinin həyata keçə bilməməsi M prinsipinin ortaya çıxmasına şərait yaradacaqdır. Burada xatırlamaq lazımdır ki, Q prinsipindən fərqli olaraq M prinsipi semantik informativlik ifadə edə bilmədiyi üçün cüt ifadələrdən istifadə edərək birgə istinad yaradır. Birgə istinad göstərmək məqsədi ilə əvəzliyin işlədilə biləcəyi yerlərdə daha uzun və vurğulu bir ismi ifadənin istifadəsi dinləyicidə vurğulanmamış hissə ilə əlaqəldar bütöv fikrin nəzərdə tutulmadığı düşüncəsi yaradacaqdır. İndi isə S.Levinson tərəfindən irəli sürülən neo-Qrays praqmatik eyhamlar nəzəriyyəsinin anaforanın izahı üçün istifadəyə uyğunluq dərəcəsini yoxlayıb, həmçinin ingilis dilində danışanların anaforik elementləri dərketmə tərzlərinin S.Levinsonun iddia etdiyi kimi anaforanların izahını dəstəkləyib dəstəkləmədiyini göstərəcəyik [69].

a) *A photo of myself would be beautiful on that wall.*

*b) The photo of herself on the cover of the Nakhchivan News upset Sevil.*

*c) She told him he should marry a woman like herself.*

*d) She opened the drawers. In the top right-hand one was an envelope addressed to himself.*

Yuxarıda verilmiş nümunələr aydın göstərir ki, refleksivlərin istifadəsi həmişə sintaktik məhdudiyyətlərlə izah oluna bilməz. Bir sıra tədqiqatlar loqoforikliyin, vurğunun və ziddiyyətliliyin təsiri ilə qeyri-sintaktik əlaqələnməni araşdıraraq belə bir nəticəyə gəliblər ki, qayıdış əvəzliyi və onun antesedentinin seçilməsi diskurs səviyyəsində müəyyən edilməlidir. Yəni məsələyə verilən kontekst daxilində baxılmalıdır. Bəzi situasiyalarda sadəcə praqmatikanın köməyi ilə bunu müəyyən etmək olur.

*a) Abdulla was pretty anxious at the Nakhchivan hospital. He thought that the surgeon had injected himself with a used needle. There should be an investigation soon.*

*b) Sevil was... She thought that the surgeon had injected himself with a used syringe.*

*c) Sevda was... She thought that the surgeon had injected herself with a used syringe.*

*d) Huseyn was... He thought that the surgeon had injected herself with a used syringe.*

Yuxarıda verilən cümlələrdə adı çəkilən insanlar bağlama nəzəriyyəsinə əsasən refleksiv üçün mümkün olan bir antesedent deyillər, həmin cümlələrdə ikinci şəxs olan cərrah sintaktik antesedent ola bilər. Buna görə, buradan belə bir nəticəyə gəlirik ki, bağlama prinsipi müəyyən zamanlarda tətbiq oluna bilər, lakin cümlə mənasının yekun şərhi zamanı mütləq rol oynamır. Bunun üçün sintaktik-diskurs yanaşma adlandıracağımız bir metod təklif edirik. Bu metod təhlil zamanı sintaktik və diskurs prinsiplərinin müvəqqəti olaraq birlikdə tətbiqini nəzərdə tutur.

Anaforanın sintaktik, semantik və praqmatik amillərdən ibarət olduğu artıq qeyd etmişik. Buna əsasən deyə bilərik ki, dillər sintaksis, semantika və praqmatikanın qarşılıqlı təsir göstərmə dərəcələrinə görə bir-biri ilə fərqlənirlər.

Məsələn, çin, yapon və koreya kimi dillərdə praqmatika əsas rol oynayır. Digər tərəfdən, ingilis və alman dilləri kimi bəzi dillərdə praqmatik məlumatların yerini qrammatik qaydalar tutur. Anaforanın təhlilinə gəldikdə isə, hətta sintetik dillərdə belə praqmatikanın rolu inkar edilə bilməz və bu əksər dilçilərin qəbul etdiyi bir reallıqdır. Məhz bu səbəbə görə ingilis dili kimi sintetik dillərdə belə anaforanın ifadə etdiyi məna fərqlərini göstərmək üçün neo-Qrays praqmatik nəzəriyyəsindən daha yaxşı bir vasitə tapmaq mümkün deyil. Biz praqmatik yanaşma üçün tamamilə problemli olan refleksivlərin istifadə olunduğu hadisələrə baxmalıyıq. Aşağıdakı nümunələri nəzərdən keçirək:

Q prinsipi bizi qısa, bərabər leksikləşdirilmiş əlaqələrdən fərqli, daha ziddiyyətli bir izaha yönəldir.

*1. a) Jalil said to Maryam that there was a picture of himself/him in the cafe.*

*b) Jalil heard from Bilal that pictures of himself/him would be on sale.*

*c) The picture of herself/her on the front page of the newspaper confirmed the claims Mary had been making over the years.*

*d) Those pictures of himself/him taught Hasan an important lesson.*

S.Levinsonun nəzəriyyəsinin davamlılığı aşağıdakı ehtimallara əsaslanır. Əvvəla, İ prinsipinə görə birgə istinad verilən zaman qayıdış əvəzliyinin yerinə digər bir əvəzlik istifadə edilməlidir. İkinci olaraq isə, müəyyən bir kontekstdə iki müxtəlif ismi birləşmə ortaya çıxdıqda, onlar Q və M prinsiplərinə əsasən tamamlayıcı şəkildə yerləşdirilməlidirlər [71]. Neo-Qrays qaydalarının şərtlərindən fərqli olaraq, 1-də verilmiş cümlələrdə şəxs əvəzliyi və refleksivlər sərbəst şəkildə dəyişə bilirlər. Yəni qayıdış istifadə edilə bilən yerdə şəxs əvəzliyinin istifadə olunması qeyri-əsas fikri vurğulamağı nəzərdə tutmur. Burada praqmatik analiz və sintaktik şərh arasındakı mühüm fərqə diqqət yetirməliyik. Yəni sonuncu cümlədə qayıdışla yerini dəyişə bilən şəxs əvəzliyinin işlənməsi göstərildiyi halda, ondan əvvəlki cümlədə belə tamamlayıcının istifadə edilə bilməməsi vurğulanır. Q və M nəticələrinə görə istinad nöqtəsini dəyişmək eyham yaradır. Ona görə də, belə hallarda edilən eyhamın başa düşülməməsinin səbəbləri olduğunu göstərə bilsək, refleksivlər həmin formada meydana çıxdıqda, artıq problem yaratmayacaq. Burada problem bəzi cümlələrdə

şəxs əvəzlikləri və refleksivlər arasındakı ziddiyyətin açıq-aşkar yoxa çıxmasına nəyin səbəb olduğunu tapmaqdır. Yuxarıda göstərilən cümlələrin ümumi cəhəti odur ki, biz refleksiv əvəzliyinin sintaktik cəhətdən işlənə bilmədiyi yerdə, qeyri-refleksiv əvəzliyinin işlənməyini gözləyirik.

P.Qraysa görə söhbət eyhamlarının başlıca xüsusiyyətləri bunlardır: a) qeyri-sərbəstlik, b) bölünməzlik, c) təxminedilmə, d) qeyri-şərtlilik və e) təsir gücünü artırma [29, s. 175]. Refleksivlər və şəxs əvəzlikləri arasında linqvstik cəhətdən bu cür əlaqəni nəzərə alaraq, S.Kuno iddia edir ki, həm refleksiv, həm də digər bir əvəzlik eyni fərdə aid olur [68]. Beləliklə, 1 a cümləsi ilə 1 b cümləsi eyni deyil. Onun sözlərinə görə refleksivlərin eyni kontekstdə şəxs əvəzlikləri ilə əvəz oluna bildiyi yerlərdə, həm refleksiv, həm də şəxs əvəzliyi istifadə edərək ifadə edilən bəzi incə məna fərqlərini tapa bilərik. Bu zaman bir refleksivin istifadəsi danışanın antesedentinin əvvəlki nöqteyi-nəzərini əsas götürməyi tələb edə bilər, lakin qeyri-refleksiv əvəzlik normal, obyektiv fikri ifadə edir.

Hətta generativ qrammatiklər belə anafora bölgüsünün semantik xüsusiyyətlər ilə əlaqəli ola biləcəyini etiraf edirlər. Lakin onların əsas fərziyyəsi odur ki, bu semantik qaydalar digər vasitələrə deyil, cümlənin struktur xüsusiyyətlərinə tabe olurlar.

*2. a) Hasan hid the book behind himself.*

*b) Hasan hid the book behind him.*

*3. a) Hasan pulled the blanket over himself.*

*b) Hasan pulled the blanket over him.*

Məsələn, 2 a cümləsində Həsən kitabı götürür və arxasına qoyur, buna görə kitab ona birbaşa toxunur. 2 b cümləsi isə Həsən ilə kitab arasında heç bir fiziki əlaqənin olmadığını nəzərdə tutur. Yəqin ki, Həsən kitabı götürüb kresloya qoyur və kreslonun qarşısında dayanır.

Eynilə, 3 a cümləsində də Həsən yorğanı başına çəkir və üstünü onunla örtür, bəlkə də onun altında gizlənmək istəyir. Digər tərəfdən 3 b cümləsində Həsənin bütün bədəni ilə hərəkət etdiyini, yəni bütün bədənini örtdüyünü nəzərdə tutmur. Refleksiv əvəzliklərinin istifadə edilməsi ilə yaranan incə məna fərqlilikləri 4-cü nümunədə də

özünü göstərir.

*4. a) Hasan said to Maryam that there was a picture of himself on the café wall.*

*b) Hasan said to Maryam that there was a picture of him on the café wall.*

*5. a) Hasan said to Maryam that there was a picture of herself on the café wall.*

*b) Hasan said to Maryam that there was a picture of her on the café wall.*

4 a cümləsi Həsənin nöqteyi-nəzərindən ifadə edilən bir vəziyyəti təsvir edir. Lakin 4 b və 5 b cümlələrində şəxs əvəzliklərindən istifadə edilməsi cümlənin normal, obyektiv baxımdan ifadə olunduğunu göstərir. 5 a qəbuledilməzdir, çünki cümlənin Məryəm baxımından ifadə edildiyi bir vəziyyəti təsəvvür etmək çətindir. Səbəb isə onun qeyd edilən hadisənin bir hissəsi olmamasıdır. Eyni əsaslandırma diskursla əlaqəli refleksivlərə də tətbiq oluna bilər.

Beləliklə, yuxarıda qeyd olunan cümlələr fikrimizi sübut edir. Bundan belə bir nəticəyə gəlirik ki, refleksiv və şəxs əvəzlikləri bəzən sərbəst şəkildə bir-birlərini əvəzləyə bilirlər, lakin onların semantik/praqmatik işlənmə yerləri tamamilə fərqlidir. Cümlədə antesedentin nöqteyi-nəzəri danışan tərəfindən qəbul edilirsə, refleksiv seçilir, əks halda şəxs əvəzliyi istifadə olunur. Nəticədə, sintaktik olaraq başqa əvəzliyin istifadə edilə bilmədiyi yerlərdə bir refleksivin işlənməsi fərdi istinad bildirmir. Bu izahların 5 b və 6 b cümlələrindəki nümunələr kimi dərinləşdirilməsi mümkün deyil, o zaman vəziyyət daha da mürəkkəbləşir.

*6. a) Hasan's fulsomeness embarrassed the ambassador as much as himself/him.*

*b )Hasan's friend criticized the ambassador as much as himself/him.*

*7. a) Pictures of himself/him don't bother Hasan.*

*b) Pictures of himself/him don't portray Hasan well.*

Yuxarıdakı a cümlələrində birgə arqumentin tələbi olmadan refleksivin istifadə olunması məqbuldur, çünki cümlələr Həsənin nöqteyi-nəzərindən ifadə edilir. Ona görə də biz eyni strukturu olan b cümlələrini istisna edə bilmərik. Məsələ burasındadır ki, 6 a və 7 a cümlələrini tələfüz edərkən Həsənin nöqteyi-nəzərini qəbul ediriksə, 6 b və 7 b cümlələrini də Həsənin nöqteyi–nəzərindən təsvir edə bilməliyik. Bu zaman refleksiv və qeyri-refleksiv əvəzlik arasındakı ziddiyyətin

neytrallaşdırılmalı olduğu fikri meydana çıxa bilər, amma bu yanlış ehtimaldır və bizim işimiz a və b cümlələri arasındakı fərqlərə səbəb olan amilləri izah etməkdir. Cavab cümlələrin psixoloji feillərlə əlaqəsindədir.

Dilçilikdə psixoloji feillər hadisəsi linqvistik cəhətdən təsdiqlənmişdir. Psixoloji feil konstruksiyalarının ümumi cəhəti odur ki, onların narahatlıq və depressiya ifadə edən "psixoloji feil" adlı xüsusi bir növü var və bu feillərin hamısı fərdin birbaşa daxili hisslərini əks etdirir. Həmin fərd, yəni müvafiq hissləri hiss edən insan cümlədəki refleksiv ilə əlaqəli olmaq üçün ən optimal ünsürdür. Buna görə də buradan təxmin edə bilərik ki, kontekstdə hissləri ifadə olunan fərd refleksiv əvəzliyinin ən optimal antesedenti ola bilər. İndi biz refleksiv əvəzliyi istifadə edildikdə 6 b və 7 b cümlələrinin nə üçün uyğun gəlmədiyini izah edə bilərik. Onlar psixoloji feil deyil, ona görə də cümlələrdə işlənən refleksiv əvəzliklər Həsən ilə əlaqəli ola bilmir.

Yuxarıda verilən nümunələrdən sonra refleksiv və şəxs əvəzliklər arasındakı ziddiyyətin aradan qaldırılmasına səbəb olan semantik/praqmatik amilləri izah edə bilərik.

A cümlələrində danışan tərəfindən ehtimal olunan nöqteyi-nəzər və b cümlələrində isə daxili hissləri göstərilən şəxs ifadə olunur. Belə semantik-praqmatik tərkiblər loqoforizm anlayışının əsasını təşkil edir.

Bu cümlələrdə əvəzlik əvəzinə refleksivin seçilməsi adi, qeyri-loqoforik izahlarla ziddiyyət təşkil edə bilər. Psixoloji feillərin izahı üçün ədəbiyyatlarda müxtəlif həll yolları irəli sürülmüşdür, ancaq onların təhlilləri zamanı bəzi problemlər ortaya çıxır. Başqa sözlə desək, bu cür refleksivlərin antesedentləri diskursun iştirakçıları olmalıdır.

Bəs loqoforizm və ya loqoforiklik nədir? Loqoforizm əlaqələndirmə funksiyası yerinə yetirir. Cümlədə referentin sözlərini, düşüncə və hisslərini bildirilən bir şəxs olduqda morfoloji cəhətdən fərqli anaforik formaların tətbiq edilməsi hadisəsidir.

Loqoforizm konsepsiyasına xüsusi anaforik əvəzliklərin loqoforik əvəzliklər adlandığı Afrika dillərində rast gəlmək mümkündür və həmin əvəzliklər həmişə cümlədə söz, fikir və hissləri ifadə edilən fərdə aid olurlar. Loqoforik olaraq istifadə

edilə bilən refleksivlərlə yanaşı, bəzi dillərdə morfoloji cəhətdən fərqli loqoforik əvəzliklər də vardır. Loqoforizmin təhlili refleksivlər və onların müəyyən bir fikir ifadə etmək üçün istifadə edilməsinin araşdırılmasına yönəlmişdir. Loqoforik refleksivlər və ya əvəzliklər anlayışı təhlilimiz zamanı istifadə edəcəyimiz nəzəriyyələrdən biridir.

İndi isə biz semantik/praqmatik tərkiblərin söhbət eyhamları ilə əlaqələrini izah etsək, daha yaxşı olar. İndi iki seçimimiz var. Birincisi, S.Levinsonun fikirlərinə uyğun olaraq, refleksivlərin iki məna elementini, yəni birgə istinad və loqoforizmi kodlaşdırdığını söyləyə bilərik [69]. O zaman danışan loqoforizm və birgə istinadı və ya hər ikisini aradan qaldırmaq üçün mütləq əvəzlik istifadə etməlidir. Loqoforik əvəzliklər semantik cəhətdən qayıdışlardan daha güclüdür. Qayıdışlar və digər əvəzliklər arasındakı ziddiyyətdən əldə edəcəyimiz eyham birgə istinad və ya loqoforizm, ən son halda isə hər ikisini bildirəcək. Dərhal iki sual yaranır: Niyə loqoforizmdəki kontrast heç vaxt ortaya çıxmır? İngilis dili bu xüsusiyyətə malik tək dildir? Bunlara cavab verə bilmək üçün aşağıdakı cümləni nəzərdən keçirək:

8. *Ali loves himself/him.*

T.Reynhart və E.Riland iddia edirlər ki, refleksiv mövcud olan dillərdə loqoforik kontrast minimal dərəcədə belə yaranmır [93, s. 700], [94, s. 400]. Nəticədə 8-ci cümlədə olduğu kimi digər əvəzliklər yerli birgə arqument olaraq istifadə olunmur. Bu fakta istinad etsək, bağlama nəzəriyyəsinin B prinsipini qrammatikaya geri qaytarmalıyıq, bu da əlbəttə, arzuolunmaz bir hərəkət olardı. Digər bir fikir isə Y.Huanq tərəfindən irəli sürülür. O, deyir ki, biz A.Farmer və R.Harnişin "Fərqli istinad fərziyyələri" nəzəriyyəsindən (Disjoint Reference Presumption) B prinsipinin təsirini çıxara bilərik [44, s. 325]. Fərqli istinad fərziyyələri nəzəriyyəsinə görə, xəbərin birgə arqumenti istinadda ayrı-ayrılıqda şərh edilməyə meyillidir. FİF B prinsipini qrammatikaya gətirmə potensialına malikdir, yalnız burada bir nüans da var. FİF-ə əsasən, ayrı-ayrı cümlə qruplarındakı arqumentlərin fərziyyəsi ümumi qrammatik xüsusiyyət deyil, tendensiya da ola bilər.

Bu fikri dəstəkləyən S.Kim vurğulayır ki, praqmatikanın anaforanın şərh edilməsinə olan töhfəsi burada özünü göstərir [60]. S.Kim həm ingilis, həm də koreya

dillərində refleksivlərin iki məna elementini, yəni birgə istinad və loqoforizmi ifadə etdiyini qəbul edir [61, s. 920]. Amma burada biz S.Kimin fikrinə zidd olaraq, ingilis dilində refleksivlərin loqoforizmi sözün əsas mənasının tərkib hissəsi kimi kodlaşdırmadığını iddia edirik. Əksinə loqoforizm ifadə olunan fikirlərdən biridir və qayıdış əvəzliklərindən birini digər əvəzliklərin yerinə işlədərək də həmin mənanı əldə edə bilərik. Çünki FİF, ümumiyyətlə, refleksivlərdən məhrum olan dillərin anaforik nümunələrini şərh etmək üçün istifadə olunur. Amma ingilis dili kimi dillərdə, FİF və B prinsipinin təsiri Q prinsipini birgə arqument olaraq istifadə etməklə də əldə edilə bilir, buna görə də, hər ikisi də lazımsızdır. Onda ingilis dilində FİF-in istifadə olunmasının yeganə səbəbi 8-ci cümlədə olduğu kimi minimal ölçüdə loqoforik kontrastın olmadığını göstərməkdir. Buna görə, FIF-ə yer vermədən bu fenomeni göstərə biləcək bir izahı nəzərdən keçirməliyik. Alternativ olaraq, ingilis dilində refleksivlərin iki məna elementini, yəni birgə istinad və loqoforizmi kodlaşdırmadığını təsəvvür edək və iddia edək ki, refleksivlərin sadəcə bir məna elementi var, o da birgə istinaddır. Bu zaman İ və M prinsipləri arasındakı sistemli əlaqədən istifadə edərək B prinsipinin təsirini şərh edək. Q eyhamı ilə əldə edəcəyimiz nəticə birgə istinadsız məna olacaqdır. Refleksivlər və digər əvəzliklər arasındakı kontrastın neytrallaşdırılması M prinsipinə aid edilə bilər. M prinsipinə görə, qısa formalar işlənə bilməyəndə uzun formalardan istifadə etmək lazımdır. Bunun səbəbi odur ki, qısa formada işlənə biləcək əvəzliyin əvəzinə uzun formada olan refleksivlər işlənəndə birgə istinada ehtiyac qalmadığı ehtimal olunacaqdır. Danışan şəxs refleksivdən istifadə edərək loqoforizm və ya başqa bir fikri çatdırmaq istədiyini göstərəcəkdir.

Qeyd edək ki, bu analiz ilk variantdan daha məqbuldur, çünki bu fenomeni idarə etmək üçün əlavə mexanizmə ehtiyac duyulmur və bu yolla anaforanın tam izahını verə bilərik. Əslində çoxdan bilinən bir fakt var ki, refleksivlər kontrastlı vurğu vasitəsi kimi istifadə edilə bilərlər. Onda ziddiyyətli vurğu anlayışı M prinsipi ilə ola bilər. Burada A.Zribi-Hertz, C.L.Baker, J.Kaster, S.Kim və R.Reynhart kimi dilçilərin fikirlərinə müraciət edə bilərik [6, 57, 59, 92]. Ancaq bunun anaforalar ilə birgə istinadı olmayan qayıdış əvəzliklərini bir-birindən fərqləndirməliyik.

Yuxarıda qeyd edilən dilçilər tərəfindən güman edilir ki, sadə ümumiləşdirmələr anaforanın mahiyyətini müəyyən edir, buna görə də antesedent və anafora formaları arasındakı əlaqəni sırf struktur baxımından nəzərə almaq lazımdır. Bu nöqteyi-nəzərdən yanaşsaq, onda belə bir nəticə ortaya çıxır ki, cümlədə qayıdış əvəzliyi ismi ifadə ilə əlaqələndirilə bilər, amma digər əvəzliklər ilə bu mümkün deyil.

Bildiyimiz kimi qayıdış əvəzliklərini praqmatik yöndən təhlil edərkən, əsas məqsəd cümlədə həmin əvəzliklərin antesedentini tapmaqdır.

*1. Vali likes **himself.***

*2. Vali said Huseyn likes **himself.***

*3. Susan told her she should hire a new employee like **herself.***

*4. Sevda suggested that the manager pay both the child and **herself** for their time.*

1-ci cümlədə **himself** qayıdış əvəzliyi üçün tək antesedent cümlənin mübtədasıdır. Cümlədə başqa ismi ifadələr verilmədiyi üçün onu təyin etmək asandır. Amma 2-ci cümlədə ifadə olunan qayıdış əvəzliyinin antesedenti üçün iki versiya mümkündür. Burada qayıdış əvəzliyinin Vəlini yoxsa Hüseyni ifadə etdiyi aydın başa düşülmür. Belə situasiyalarda əsasən qayıdış əvəzliyinin özünə ən yaxın ifadə olunan ismi ifadəyə aid olduğunu düşünsək, **himself** qayıdış əvəzliyinin Hüseynin antesedenti olduğunu fərz edə bilərik. 3-cü cümlədə vəziyyət daha qarışıqdır. Burada iki şəxs əvəzliyi və bir qayıdış əvəzliyi verilmişdir. Cümlədə verilən **she** əvəzliyinin istinad nöqtəsi hər iki şəxs, yəni həm danışan Süsən, həm də dinləyən tərəf ola bilər. **She** əvəzliyindən asılı olaraq, **herself** əvəzliyinin də istinad nöqtəsi dəyişir. 4-cü cümlədə də eyni şəkildə iki tərəf var və **herself** əvəzliyinin antesedentinin hansı olduğu cümlədən başa düşülmür. Həmçinin antesedent dəyişdikcə də, cümlənin ifadə etdiyi məna da dəyişir. Yuxarıda verilmiş cümlələri daha yaxından nəzərdən keçirərək fikrimizi daha aydın ifadə edə bilərik.

Əslində qayıdış əvəzlikləri birgə istinad bildirən antesedentləri ilə indeksləşdirilməlidirlər. Yəni Q prinsipinə görə şəxs əvəzliyi işlənməli olan yerdə qayıdış əvəzliyi işlədilərsə, uyğun ikili istinad ifadə edəcəkdir. Aşağıda verilən

cümlələrmiz buna nümunə ola bilər.

a) *Vali said Huseyn likes **himself.***

b) *Vali said Huseyn likes **him**.*

Burada a cümləsindəki **himself** əvəzinə b cümləsindəki **him** əvəzliyi istifadə olunsa, istinad nöqtəsi sadəcə Vəli olacaqdır. Növbəti cümlədə isə bunun tam əksini müşahidə edə bilərik.

a) *Susan told **her** she should hire a new employee like herself.*

b) *Susan told **herself** she should hire a new employee like herself.*

Yuxarıdakı a cümləsində **her** şəxs əvəzliyi, b cümləsində isə **herself** qayıdış əvəzliyi işlənmişdir. Burada şəxs əvəzliyinin yerinə qayıdış əvəzliyi işlətdikdə, cümlədəki bütün əvəzliklər tək bir istinad nöqtəsi bildirir. Bu da Süsənin özüdür. Çünki İ prinsipinə əsasən şəxs əvəzliyi işlənməli olan yerdə sintaktik cəhətdən qayıdış əvəzliyinin istifadə edilməsi tək antesedent olmasına səbəb olacaqdır. M prinsipinə görə isə bir əvəzlik və ya açıq ifadə olunan ismi ifadənin əvəzinə bir refleksivin istifadə edilməsi qeyri-müəyyənlik və ya ziddiyyətli vurğu ifadə edəcəkdir. Buna nümunə olaraq aşağıdakı cümlələri göstərə bilərik:

a) *Sevda suggested that the reporter pay both the victim and **herself** for their time.*

b) *Sevda suggested that the manager pay both the child and **her** for their time.*

Bu cümlələrdə isə **her** şəxs əvəzliyinin işlədilməsi qeyri-müəyyənliyi aradan qaldırır. İngilis dilində refleksivlər yalnız yerli bağlamağa əlaqəsinə malik olurlar. Ona görə ingilis dilində danışanlar antesedent seçimində daha çox praqmatik amillərə əsaslanırlar. İnsanların praqmatik biliyi refleksivlərin şərhində vacib rol oynayır və cümlədə qayıdış əvəzliklərini antesedent ilə əlaqələndirən zaman onun istifadə yeri antesendent seçiminə təsir edir.

Sıfır dəyişilmə. Təhlillər zamanı rast gəldiyimiz digər nəzərə çarpan hadisə isə qayıdış əvəzliyi qəbul etməyən feillərdir. Bir qism feillər vardır ki, onlardan sonra qayıdış əvəzliyi işlənmir, çünki kontekstdən asılı olaraq o mənanı verir. Həmin feillər bunlardır:

a) Heç vaxt işlənməyənlər: *to feel, to meet, to concentrate və to relax.*

*He can't relax.*

b) Adətən, işlənməyənlər: *to wash, to shave, to dress*.

*After I got up, I washed.*

Əgər mənadan qayıdışlıq başa düşülürsə, o zaman qayıdış əvəzliyi işlətməyə ehtiyac yoxdur.

*He gave the present* ***to him*** *– səhv*

*He gave the present* ***to himself*** *– düz*

Sonuncu nümunədə qayıdış əvəzliyinin işlənməyi zəruridir, əks halda söhbətin kimdən getdiyi başa düşülmür.

Aşağıdakı cümlədə isə buna ehtiyac yoxdur, çünki cümlənin mənasından söhbətin kimdən getdiyi bilinir.

*I took my mother* ***with me*** *– düz*

*I took my mother* ***with myself*** *– səhv*

Biz aşağıdakı 9 a və c cümlələrində ixtiyarı qayıdışların işləndiyi qaydaya da rast gəlirik, amma bu qayda yuxarıda qeyd olunduğundan fərqlidir. Bu cümlələrdə ifadə olunan hərəkətlər özünə yönəlmiş hərəkətlərdir, yəni hərəkət daim öz üzərində ifa olunur.

9. a) *Vali washed and shaved.*

   *b) Aisha dressed with great care.*

   *c) The barber always shaves himself before he shaves his customers.*

Sıfır refleksivlər və ismi ifadələr arasındakı əlaqə. Biz implisit işlənən refleksivlər ilə açıq işlənən əvəzliklərin bir-biri ilə necə qarşılıqlı əlaqəyə girdikləri mövzusuna hələ toxunmamışıq. Burada anaforaların praqmatik nəzəriyyəsini implisit və açıq işlənən digər əvəzliklərin qarşılıqlı təsirini öyrənmək üçün daha da genişləndirəcəyik. Daha sonra implisit işlənən refleksivlərin bölgüsünü və onların ismi ifadələr ilə qarşılıqlı əlaqəsini öyrənəcəyik.

*10. a) Ali expects to win.*

*b) Ali expects himself to win.*

*11. a) Ali told Maryam that washing themselves would be fun.*

*b) Ali told Maryam that their washing themselves would be fun.*

Belə qəbul edək ki, sintaksis birgə arqument kontekstində refleksiv və onun antesedenti arasındakı referensiallığı birbaşa kodlaşdırmağa imkan verir, o zaman biz əlaqləndirmə prinsipini A prinsipinə dəyişirik. Başqa sözlə, anaforaların izahını vermək üçün bizə lazım olan şey birgə-arqument baxımından təsdiqlənmiş A prinsipidir.

*12. a) Maryam whispered secret things to Parvin about themselves.*

*b) Both Hasan and Ali are famous scholars, and they have done a lot of interesting research together in the past. This semester, Hasan asked Ali to come to his university and to lecture with him about themselves in his class.*

c) *Hasan told Maryam that washing themselves would be fun.*

Mövcud analizlər yuxarıdakı cümlələrdə göstərilən yanlış istifadə edilən refleksivləri əhatə etmək üçün aşağıdakı kimi genişləndirilə bilər: cümlələrdə verilən konstruksiyalarda refleksivlərin istifadəsinə sintaktik olaraq icazə verilmir, çünki onlar antesedentlərin birgə arqumentləri olmurlar. Buna görə əvəzliklər birgə istinad bildirən İ prinsipinə tabe olurlar, lakin bu zaman vurğusuz bir əvəzlik istifadə edilmədikdə, onun əvəzinə vurğulu refleksiv istifadə olunur. Onda M eyhami yaranır, yəni yalnız birgə istinad deyil, həm də loqoforizm yaradır. Aşağıdakı cümlələrdən də göründüyü kimi əlaqələndirici diskurs istifadə olunduqda, yenə eyni məntiqi nəticə ortaya çıxır.

*13.a) He sat down at the desk and opened the drawers. In the top right-hand one was an envelope addressed to himself.*

*b) Hasan was furious. The picture of himself in the museum had been mutilated.*

*c) She was not immediately able to say anything, and even when her spirits were recovered, she debated for a short.It would be the most proper answer to give. The real state of things between Willoughby and her sister was so little known to herself, that in endeavouring to explain it, she might be as liable to say too much as too little. (Sense and Sensibility, Chapter 27, Jane Austin)*

Nəzərə alsaq ki, refleksivin antesedenti müəyyən bir situasiyada fikirləri ifadə olunan fərddir, əvəzliyin gözlənildiyi yerdə refleksivin istifadəsi loqoforikliyə zidd

olur. Aşağıdakı cümlələrdə verilən antesedent-refleksiv əlaqələri də eyni qayda ilə nəzərdən keçirilə bilər.

*14.a. Maryam showed Ali a nice picture of themselves.*

*b. Hasan collaborated with Ali on a biography about themselves.*

*c. Hasan shared a startling secret with Maryam about themselves.*

*d. The picture of themselves reminded Hasan of Maryam.*

Yenə də vurğulu refleksivin istifa etdiyi fikir vurğusuz əvəzlik ilə çatdırıla bilməyəcək bir məna verir və bu zaman ortaya çıxan məna loqoforik və ya kontrastlı vurğu, yaxud hər ikisi ola bilər. 10 b cümləsində sıfır anafora bir refleksiv tərəfindən əvəzlənir, halbuki, 12 b cümləsində sıfır forma əvəzinə əvəzlik istifadə olunub. Hazırkı təhlil baxımından sıfır formaların sərbəst variasiyaları və açıq əvəzediciləri müəyyən problemlər yaradırlar. Əsas problem də odur ki, qeyd edilən formanın istifadəsi fərqli bir istinada eyham vurmur. Ancaq görürük ki, sıfır formalar və açıq istifadə olunun ismi ifadələr eyni şəxsə aid olsa da, onlar arasında semantik və praqmatik ziddiyyətlər yaranır. Nümunə olaraq 10-cu cümlədəki Əli və 11-ci cümlədəki Məryəmi göstərə bilərik. Yəni sıfır formalardan fərqli olaraq, açıq ismi birləşmələr kontrastı vurğulamaq üçün istifadə olunurlar. Buna görə də, 10 b cümləsində Əli başqasının deyil, özünün qazanmağını gözləyir. Oxşar şəkildə, 11 b cümləsi də bildirir ki, Əli Məryəmə dedi ki, Əli və Məryəmin özləri tərəfindən yuyundurulması əyləncəli ola bilər, burada başqası tərəfindən və ya birlikdə yuyundurulma nəzərdə tutulmur.

Neo-Qrays praqmatikası çərçivəsində açıq bir ismi ifadənin istifadəsi ilə əlaqəli ziddiyyətli vurğu anlayışı M prinsipindən kənardır. Açıq ismi ifadənin istifadəsi implisit işlənən refleksivlərin çatdıra bilməyəcəyi ziddiyyətli bir məna verir. Xatırladaq ki, əvvəki bölmələrdə demişdik ki, eksplisit formalar açıq məna ifadə edir. M prinsipi tərəfindən eyham olunan açıq fikrin loqoforizm olduğu iddia edilir. Amma implisit işlənən ismi ifadələr ilə eksplisit işlənən formaların əlaqəsi üzrə aparılan araşdırmalar göstərir ki, burada loqoforizm olaraq qəbul edilən şey əslində semantik və praqmatik məna arasındakı ziddiyyətin vurğulanması ola bilər.

Bu günə qədər edilən müşahidələrə əsasən deyə bilərik ki, implisit əvəzliyin

işlənə bildiyi yerdə eksplisit formaların istifadə edilməsi bir növ gözlənilməzliyi ifadə edir. Bu gözlənilməzlik loqoforizm və ya ziddiyyətli vurğu ola bilər. 10 a və 11 b cümlələrindəki implisit formaların istifadə edilməsi indiyə kimi bir çox dilçinin diqqətini cəlb etmiş və bu N.Xomskinin generativ qrammatikasında fərqli bir prominal kateqoriya olaraq qəbul edilmişdir [10]. Digər tərəfdən N.Hornstein kimi bəzi qrammatiklər nul kateqoriyasının da prominal olduğunu iddia edirlər [43]. Nul kateqoriyasının xüsusiyyətləri ilə bağlı arqument bu işin əhatə dairəsindən kənarda qalır. Bu yazıda bizim məqsədimiz anafora seçiminin məntiqi izahını verməkdir. İngilis dilində fərqli işlənən bütün refleksivlərin istifadəsini təhlil etmək mümkün deyil.

Bu yazıda neo-Qrays prinsiplərindən istifadə edərək anaforaların işlənmə yerlərinə görə verdikləri mənanı izah etməyə çalışdıq. Xüsusilə, biz N.Xomiskinin əlaqələndirmə nəzəriyyəsi ilə bəzi sintaktik və praqmatik məsələləri təhlil etdik [11] və bununla belə nəticəyə gəldik ki, refleksivlər, yiyəlik əvəzlikləri və implisit işlənən formalar ümumiləşdirilmiş söhbət eyhamları ilə izah edilə bilərlər. Bu məqalədə təqdim olunan anaforanın təfsir mexanizmi aşağıdakı kimi yekunlaşdırıla bilər. Birincisi, əlaqələndirmə nəzəriyyəsinin yenidən işlənmiş A prinsipini qrammatik bir qayda olaraq qəbul edirik, yəni refleksivlər birgə arqument antesedentləri ilə birlikdə indeksləşdirilməlidirlər. A prinsipinə əsasən refleksiv istifadə oluna biləcək yerlərdə digər əvəzliklərdən birinin istifadəsi birgə istinad ifadə etməyəcəkdir. Sintaksisə əsasən, refleksiv istifadə edə bilməyəcəyimiz yerlərdə semantik cəhətdən digər əvəzliklərdən birini istifadə etdikdə birgə istinad bildirəcəkdir. Digər əvəzliklərin yerinə refleksivlərin və ya implisit bir forma yerinə ismi birləşmələrin istifadəsi eyham yaradacaq, bu zaman da loqoforizm və ya təzadlı vurğu ortaya çıxacaqdır.

# NƏTİCƏ

1870-ci illərin əvvəllərində Massaçusets ştatının Kembric şəhərində qeyri-rəsmi fəlsəfi müzakirələrin məkanı olan Metafizik Klubunun praqmatika elminin doğulduğu yer olduğunu desək, yanılmarıq. Klubun müxtəlif sahələr üzrə sonradan məşhurlaşan və adı hal-hazırda hamıya məlum olan bir çox üzvü var idi, məsələn, məntiqçi və riyaziyyatçı alim Ç.Pirs və tibb dərəcəsi almış psixoloq U.Ceyms. Çünki onlar ilkin praqmatistlər hesab olunurlar. Ç.Pirs Metafizik Klubunda 1977 və 1978-ci illərdə indi praqmatizmin əsası hesab olunan iki məqalə yazdı: "The Fixation of Belief" və "How To Make Our Ideas Clear". Daha sonra U.Ceyms ilk fəlsəfi yazısı olan "Remarks on Spencer's Definition of Mind as Correspondence" məqaləsini təqdim etdi [79]. Bununla praqmatika elminin əsası qoyulmuş oldu. Amma o zaman praqmatika fəlsəfənin bir sahəsi idi. Keçdiyi uzun inkişaf yolunun nəticəsində o hal-hazırda həm dil fəlsəfəsinin, həm də dilçiliyin bir sahəsinə çevrilmişdir.

Dilçilərin praqmatikaya marağının artmasının səbəbi diqqətin abstrakt bir sistem olan dildən kənarlaşıb, dil istifadəçilərinə yönəlməsidir. Artıq onlar dil və ondan istifadə edənlərin praqmatikanın əsasını təşkil etdiyini düşünürlər. Əvvəllər dilçilər cümlələri kontekstdən asılı olmayaraq təhlil edirdisə, indi cümlələrin mənasını anlamaqda konteksti əsas hesab edirlər. Praqmatika kontekstin mənaya təsir etdiyini, kontekst dəyişdikdə mənanın da dəyişə biləcəyini izah edir.

Bu yazdığımız tədqiqat işində fəlsəfi praqmatikadan linsqvstik praqmatikaya doğru inkişaf edən bu sahəni ətraflı şəkildə tədqiq edib, aralarındakı fərqi üzə çıxarmış, əvəzlikləri, xüsusuilə də qayıdış əvəzliklərini və onların işlənmə yerlərini praqmatik yöndən təhlil etmiş, kontekst səbəbi ilə ortaya çıxan məna fərqlərini araşdırmış və müəyyən nəticələr əldə etmişik. Bütün bunları edərkən kommunikativ situasiyaların tərkib hissəsi olan kontekst və kontekst modelləri nəzəriyyəsinin köməyindən də istifadə edilib. İndi isə gəldiyimiz nəticələri aşağıdakı kimi ümumiləşdirmək olar:

1. İlkin olaraq hər bir şeyə faydalılıq əmsalından yanaşan praqmatizm fəlsəfi cərəyanının məna və həqiqət axtarışına yönəlməsi və P. Qraysın mənanı təbii və qeyri-

təbii olaraq iki yerə ayırması onu neopraqmatizm (linqvstik praqmatika) adlanan yeni bir istiqamətə yönəltdi. Bizə görə, fəlsəfi praqmatizmin linqvstik praqmatikaya ən böyük töhfəsi sözlərin yarandıqları andan bəri onlara xas olan mənanı deyil, əksinə təkrar istifadə edilməklə yeni qazanılan mənaları ifadə etdiyini üzə çıxarmasıdır.

2. Semantika və praqmatika arasındakı ən böyük fərq semantikanın bir dildə cümlələrin, məntiqi formaların həqiqət şərtlərini necə müəyyənləşdirdiyini araşdırması, praqmatikanın isə dinləyicilərin həqiqəti şərti mənada başa düşmək üçün həyata keçirdikləri nəticəçıxarmanı öyrənməsidir. Semantikada ikili əlaqə mövcuddur: linqvstik forma və onun mənası, praqmatikada isə üçlü əlaqə linqvstik forma, məna və kontekst.

3. Əvəzliyin istifadəsində olan kontekst onların diskurs funksiyalarını yaradır və əvəzliklər kontekst asılılığına ən çox məruz qalan dil vahidlərdir. Anaforik, deyiktik və loqoforik əvəzliklər cümlələrdə fərqli funksiyaları ilə antesedentlərlərin müəyyənləşdirilməsində rol oynadıqları üçün praqmatik təhlilin əsas tərkib hissəsi hesab edilməlidirlər.

4. Kommunikativ situasiya ünsiyyətin baş verdiyi hər hansı bir vəziyyət deməkdir. Hər kommunikativ situasiyanın beş əsas komponenti var:

- Göndərən– Mesajın yaradıcısı.
- Mesaj– Mövzu və onun məqsəd.
- Vasitə– Mesajın çatdırılma yolu .
- Qəbul edən– mesajın göndərildiyi şəxs və ya şəxslər.
- Kontekst– Mesajın göndərilmə yeri və vaxtı.

Kommunikativ hadisə və ya situasiya, daha dəqiq desək, kontekst insanların iştirak etdiyi digər hadisələrdən fərqli deyil. Bu vəziyyətdə danışanlar özlərini nitq iştirakçıları kimi təmsil edirlər və onların cəlb olunduğu hərəkət isə diskurs tərəfindən təyin edilir. Kommunikativ situasiyaların subyektiv təsviri epizodik yaddaşda Kontekst Modeli kimi göstərilə bilər. Bu cür modellər istifadəçilər tərəfindən kommunikativ situasiyanın izahı və təqdimatında istifadə olunan sadə dəyişkən kateqoriyalı bir sxemdən ibarətdir. Bu sxemi məkan, iştirakçılar (onların fərqli

şəxsiyyətləri və rolları) davam edən hərəkət, məqsəd və mövcud biliklərdən ibarətdir. Kontekst modelləri dinamikdir və mətnin və ya söhbətin əvvəlki hissələrinə, vəziyyətdəki dəyişikliklərə, məsələn, bilik, məqsəd və şəxsiyyət dəyişiklikləri və iştirakçılar arasındakı münasibətlərə uyğunlaşır. Kontekst modeli davamlı olaraq yaranır və dəyişən situasiyaya uyğunlaşdırılır. Kontekst modeli nitq aktlarının, janrların, ümumi mövzuların, semantik strategiyaların, habelə, sintaktik, leksik, fonetik və ya başqa cür seniotik ifadələrin seçilməsinə nəzarət edir. Yəni kontekst nəzəriyyəsi dil istifadəsi və onun sosial mühitlə əlaqəsi kimi müəyyən edilmiş praqmatikanın ümumi əsasını təqdim edir.

5. Qayıdış əvəzlikləri xəbərin semantik və ya sintaktik arqumentini göstərmək üçün istifadə edilən self formalarıdır, həmçinin eyni xəbərin digər arqumenti, səciyyəvi olaraq mübtəda ilə birgə referentdir. Bu birgə arqument qayıdış əvəzliyinin antesedentidir. Qayıdış əvəzlikləri fərqli işlənmə yerlərinə görə ixtiyari qayıdışlar, gözlənilməyən şəxs əvəzlikləri, ayrılmayan qayıdış feilləri, intensivlər, zərflik kimi işlənən qayıdış əvəzlikləri, sərbəst self formaları şəklində qruplaşdırmaq mümkündür.

6. a) Anaforanın növlərindən olan refleksivlər və şəxs əvəzlikləri cüzi səviyyədə bir-birlərini əvəzləyə bilirlər, amma bu zaman ümumi fikir bildirir və söhbət eyhamına səbəb olurlar.

b) Əgər antesedentin nöqteyi-nəzəri danışan tərəfindən qəbul edilirsə, refleksiv, əks halda şəxs əvəzliyi istifadə olunur. Çünki sintaktik olaraq başqa əvəzliyin istifadə edilə bilmədiyi yerlərdə bir refleksivin işlənməsi fərdi istinad bildirmir.

c) Psixoloji feil konstruksiyalarının işləndiyi cümlələrdə də icraçı, yəni psixoloji vəziyyəti təsvir edilən insan cümlədəki refleksiv ilə əlaqəli olmaq üçün ən optimal ünsürdür. Buna görə də buradan təxmin edə bilərik ki, kontekstdə hissləri ifadə olunan fərd refleksiv əvəzliyinin ən optimal antesedenti ola bilər.

d) Qayıdış əvəzlikləri iki məna elementini, yəni birgə istinad və loqoforizmi kodlaşdırır, ancaq loqoforizmi sözün əsas mənasının tərkib hissəsi kimi kodlaşdırmır.

e) Refleksivlər, digər əvəzliklər və implisit işlənən formalar ümumiləşdirilmiş söhbət eyhamları ilə izah oluna bilər.

Beləliklə, tədqiqat işimiz üzrə müdafiəyə çıxarılan müddəaların yuxarıda geniş şəkildə izahını verdik, praktik nümunələr gətirdik. Sonda əldə etdiyimiz nəticələrin araşdırma üçün ortaya qoyulan problemin müddəalarını müxtəlif yönlərdən həm izah etdiyini, həm də doğruladığını hesab edirik.

## İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Abbat, B. A pragmatic account of the definiteness effect in existential sentences// – Cambridge: Journal of Pragmatics – 2007. 19, – p. 39–55.
2. Abbat, B. Presuppositions and Common Ground// - Cambridge: Encyclopedia of Language and Linguistics, Linguistics and Philosophy – 2006, Volume 23 – p. 120.
3. Arundale, R. B. Re-analyzing Grice's maxims and cooperative principle from a conversational perspective// Paper presented at the meeting of the International Communication Association. Montreal, Canada, – 1997, – p. 25.
4. Austin, J. L. Performative utterances in J.O. / John L. Austin, Urmson and G.J. Warnock – London: Philosophical Papers, – 1979. – p. 20.
5. Back, K. Linguistic communication and speech acts/ K.Back and R.M Harnish– Cambridge: M.I.T. Press, – 1979. – p. 327.
6. Baker, C. L. Contrast, Discourse Prominence, and Intensification, with Special Reference to Locally Free Reflexives in British English Language/ C. L. Baker – London: Oxford University Press, – 1995. – p. 101.
7. Benveniste, E. Problems in General linguistics/E. Benveniste. - Miami: University of Miami Press, – 1971. – p. 267.
8. Blutner, R. Conversational implicature and lexical pragmatics// Proceedings of the AAAI Spring Symposium on Conversational Implicature, Standford, USA, – 1996, – p. 1-9.
9. Carnap, R. Meaning and Necessity: a Study in Semantics and Modal Logic/ R. Carnap – Chicago: University of Chicago Press, – 1956. – p. 231.
10. Chomsky, N. Knowledge of Language: Its Nature, Origin, and Use / N. Chomsky. – Convergence, Westport: [n.y.], – 1986. – p.81.
11. Chomsky, N. Lectures on Government and Binding / N. Chomsky – Cambridge, Massachusetts: The MIT Press, – 1981. – p. 345.
12. Craig, R. Communication as a Practical discipline// – Colorado: Sage

Publications, – 2011. ISBN 978-0-8039-3029-2, – p.122.

13.Craig, R. Minding My Metamodel, Mending Myers// - Colorado: Communication Theory, – 2001.11(2), – p. 240.

14.Davidson, D. Inquiries into Truth & Interpretation/ D.Davidson – Oxford: Clarendon Press, – 1984.

15.De Fina A. Discourse and Identity/ M.Bamberg, A.De Fina – Cambridge: Cambridge University Press, – 2006. – p. 131.

16.Dekart, R. Principles of Philosophy / R. Dekart. – London: Kluwer Academic Publishers, - 1982.

17.Denny, J. P. Locating the universals in lexical systems for spatial deixis/ J. P. Denny. – Farkas: Jacobsen and Todrys Press, – 1978. – p. 213.

18.Dewey, J. How We Think/ J, Dewey. – D.C. Heath, Lexington, Buffalo: Reprinted by Prometheus Books, – 1991.– p. 88.

19.Dijk, T. A. Introduction: discourse analysis in (mass) communication research. Discourse and communication: new approaches to the analysis of mass media discourse and communication/ T. A. Dijk. – Berlin: [n.y.], – 1985. – p. 12.

20. Dijk, T. A. Studies in the Pragmatics of Discourse/ T. A. Dijk. – The Hague: Mouton Publishers. – 1981. – p. 331.

21.Durkheim, E. Pragmatism and Sociology/ E. Durkheim, C. Whitehouse. – Cambridge: Cambridge University Press, – 1983.

22.Farmer, A. Communicative Reference with Pronouns// The 1985 International Pragmatics Conference. Italy, – 1987. – p. 23.

23.Fillmore, C. J. Lectures on deixis / C. J. Fillmore. – Stanford: CSLI Publications, – 1997. – p. 146.

24.Fillmore, C. J. Toward a Theory of Deixis // - Hawaii: University of Hawaii Working Papers in Linguistics, – 1971. 3/4 – p. 230.

25.Fish, S. Consequences// – Chicago: University of Chicago Press, - 1985. Vol. 11, No. 3– p. 433–458.

26.Gazdar, G. Pragmatics: implicature, presupposition and logical form / G. Gazdar. – New York: Academic Press, – 1979. – p. 342.
27.Grice, H. P. Studies in the way of words/ H. P. Grice. – Cambridge: Harvard University Press, – 1990. – p. 406.
28.Grice, H. P. Logic and Conversation/ H. P. Grice. - Berkeley: California University Press, – 1975. – p. 58.
29.Grice, H. P. Presupposition and Conversational Implicature/ H. P. Grice. – Cambridge: [n.y.], – 1981. – p. 183.
30.Grice, H. P. Utterer's meaning and intentions. // – Durham: Duke University Press, Philosophical Review, - 1969. 78, – p. 177.
31.Habermas, J. On the Pragmatics of Communication/ J. Habermas. – Massachusetts: The MIT Press,– 1992. – p. 454.
32.Habermas, J. On the Pragmatics of Social Interaction/ J. Habermas. – Massachusetts: The MIT Press, – 1976. – p.192.
33.Habermas, J. The Theory of Communicative Action/ J. Habermas. – Boston: Beacon Press, – 1981. – p. 464.
34.Halliday, M. An Introduction to Functional Grammar / M. Halliday. - London: [n.y.] – 2004.– p. 707.
35.Halliday, M. Linguistic Studies of Text and Discourse at Google Books/ M. Halliday, ed. Jonathan Webster – London: Continuum International Publishing, – 2002.– p. 301.
36.Halliday, M. On language and linguistics/ M. Halliday – London: Continuum International Publishing, – 2003.– p. 490.
37.Haugh, M. Intercultural Pragmatics//The international encyclopedia of intercultural communication. London, England, – 2017. – p. 1–14.
38.Hawkins, J.A. On (in)definite articles: implicatures and (un)grammaticality prediction// – Cambridge: Cambridge University Press, Journal of Linguistics,–1991,Volume 27, Issue 2, – p. 405 – 442.

39.Heim, I.R. Interrogative Semantics and Karttunen's Semantics for know// Proceedings of the Israeli Association for Theoretical Linguistics. Jerusalem, Isreal, – 1994.

40.Hofmann, T. R. Realms of Meaning/ T. R. Hofmann. – London: Longman,– 1993. – p. 337.

41.Horkheimer, M. Critique of Instrumental Reason/ M. Horkheimer. – New York: Seabury Press, – 1974.– p. 235.

42.Horn, L. R. Presupposition, theme and variations// – Chicago: Chicago Linguistic Society, Papers from the Parasession on Pragmatics and Grammatical Theory, – 2001. – p. 168–192.

43. Hornstein, N. A Theory of Syntax/ N. Hornstein. – Cambridge: Cambridge University Press, – 2009. – p. 194.

44.Huang, Y. A neo-Gricean Pragmatic theory of Anaphora// - London: Oxford University Press, Journal of Linguistics, – 1991. 27, – p. 335.

45.Huang, Y. The Syntax and Pragmatics of Anaphora; a study with special reference to Chinese/ Y. Huang. – Cambridge: Cambridge University Press, – 1994. – p. 331.

46. Hunt, A. L. Dionysius of Halicarnassus On the Arrangement of Words/ A.L.Hunt. – California: California University Press, – 1910. – p. 107.

47.Hurford, J. Semantics/ J. Hurford. – Cambridge: Cambridge University Press. – 1992. – p. 287.

48.Hymes, D. On Communication Competence: J.B. Pride and J. Holmes Sociolinguistics/ D. Hymes. – Philadelphia: Harmondsworth: Penguin Books. – 1972. – p. 269–293.

49.James, W. Pragmatism: A New Name for Some Old Ways of Thinking/ W. James. – Cambridge: Harvard University Press, – 1975. – p.116.

50.James, W. The Meaning of Truth: A Sequel to "Pragmatism/ W. James. – Cambridge: Harvard University Press, – 1975. – p. 336.

51.Jespersen, O. Essentials of English Grammar/ O. Jespersen. - New York:

Academic Press, – 1975. – p. 387.
52.Kamp, H. A Theory of Truth and Semantic Representation.Formal Methods in the Study of Language/ H. Kamp. – Amsterdam: Mathematics Center, – 1981. – p. 277-322.
53.Kamp, H. From Discourse to Logic: Introduction to Model theoretic Semantics of Natural Language, Formal Logic and Discourse Representation Theory/ H. Kamp. – Dordrecht: Kluwer Academic Publishers, – 1994. – p. 717.
54.Kant, I. Anthropology from a Pragmatic Point of View/ I. Kant. – Cambridge: Cambridge University Press, – 1798. – p. 288.
55.Kaplan, D. On the Logic of Demonstratives/ D. Kaplan. – New York: Journal of Philosophical Logic, – 1978. VIII. – p. 98.
56. Karttunen, L. Presupposition and Linguistic Context// – London: Oxford University Press, Theoretical Linguistics, – 1974. 1 181–94, – p. 406–415.
57.Kaster, J. Long–Distance Anaphora / J. Kaster, E. Reuland – Cambridge: Cambridge University Press, – 1991. – p. 356.
58.Kecskes, I. Editorial: Lexical Merging, Conceptual Blending, and Cultural Crossing// - New York: Albany University Press, Intercultural Pragmatics, – 2004. Volume 1-1, – p. 26.
59.Kim, S. Anaphor binding and narrative point of view: English reflexive pronouns in sentence and discourse/ S. Kim, A. Zribi-Hertz – Seoul: Language 65, – 1989. – p. 727.
60.Kim, S. Division of Labor between Grammar and Pragmatics: The Distribution and Interpretation of Anaphora:/ Doctoral Dissertation./ – Connecticut, 1993. – p. 107.
61.Kim, S. Pragmatic Reduction of the Binding Conditions with respect to Anaphora Interpretations in English/ S. Kim. – Seoul: Seoul Women's University Press, Language Research – 2005. 41(4), – p. 909-930.
62.König, E. Intensifiers and Reflexives, Language Typology and Language Universals – An International Handbook/ E. König, M. Haspelmath, W.

Oesterreicher and W. Raible – Berlin: Mounton de Gruyter, – 2001. – p. 747.
63. König, E. Intensifiers and Reflexives: A Typological Perspective, Reflexives: Form and Function/ E. König, P. Siemund, Z. Frajzyngier, and T. Curl – Amsterdam: Benjamins, – 2000. – p. 174.
64. König, E. Locally Free self-forms, Logophoricity, and Intensification in English// – Hamburg: Hamburg University Press, English Language and Linguistics journal, – 2000. 4.2, – p. 204–214.
65. König, E. Strategies of Reflexivization and the Meaning of Predicates, Grammaticalization and its Background/ E. König, L. Vezzosi, W. Bisang, and B. Wiemer – Berlin: Mouton de Gruyter, – 2002. – p. 194.
66. König, E. The development of Complex Reflexives and Intensifiers in English// – Hamburg: Diachronica, – 2000. XVII.1– p. 84–101.
67. Kuna S. Pronominalization, Reflexivizatian, and Direct Discourse// – Cambridge: Linguistic Inquiry, – 1972. 3, – p. 320–332.
68. Kuno, S. Grammar and Discourse Principles: Functional Syntax and GB Theory/ S. Kuno, and K. Takami – Chicago: The University of Chicago Press. – 1993. – p. 232.
69. Levinson, S. Pragmatics and the Grammar of Anaphora: a partial pragmatic reduction of binding and control phenomena// – Cambridge: Cambridge University Press, Journal of Linguistics, – 1987. 23, – p. 434–450.
70. Levinson, S. Pragmatics/ S. Levinson. – Cambridge: Cambridge University Press, – 1983. – p. 121.
71. Levinson, S. Presumptive Meanings/ S. Levinson. – Cambridge: MIT Press, – 2000. – p. 504.
72. Lewis, C.I. The Pragmatic Element in Knowledge// - California: University of California Publications in Philosophy, – 1970. 6: 205–27, – p. 240–257.
73. Mead, G. H. Mind, Self and Society/ G.H.Mead. – Chicago: University of Chicago Press, – 1934.– p. 536.
74. Merin, A. Information, Relevance and Social Decisionmaking: Applications to

Non-Truth-Conditional Semantics// – Tübingen: Working papers of the SFB 340, – 1997. Report No. 100, – p.46-73.

75.Mey, J. Concise Encyclopedia of Pragmatics/ J. Mey. – London: Elsevier, – 1998. – p. 700.

76.Mey, J. Pragmatics. An Introduction/ J. Mey. – London: Blackwell, 1993. – p. 190.

77.Mill, J. S. A system of Logic, Ratiocinative, and Inductive/ J. S.Mill. – New York: Harper Brothers Publisher, – 1882. – p. 558.

78. Montague, R. Pragmatics// – Florence: La Nuova Italia Editrice, Contemporary Philosophy. A Survey, – 1974. – p. 102–122.

79.Moore, E.C. American Pragmatism: Peirce, James and Dewey// – New York: Ethics, – 1962. Volume 72, N 2, – p. 17-55.

80.Morris, C. W. Foundations of the theory of signs / O. Carnap, W. C. Morris – Chicago: Chicago University Press, International encyclopedia of unified science, – 1938. – p. 66-80.

81.Morris, C.W. Signs, Language, and Behavior / C.W. Morris. – New Jersey: Prentice-Hall, – 1942. – p. 537.

82.Newman P. A Hausa-English Dictionary/ P. Newman. – New Haven: Yale University Press, – 2007. – p. 272.

83.Nunberg, G. Going Nucular: Language, Politics, and Culture in Controversial Times/ G. Nunberg. – New York: [n.y.], - 2004.– p. 352.

84.Parikh, P. Language and equilibrium/ P. Parikh – Cambridge: MIT Press, – 2010.

85.Partee, H. B. Noun phrase interpretation and type-shifting principles. In Studies in Discourse Representation Theory and the Theory of Generalized Quantifiers/ H. B. Partee. – Massachusetts: Massachusetts University Press, – 2004. – p. 230.

86.Peirce, C.S. Harvard Lectures on Pragmatism// - Indiana: The Peirce Edition Project, Indiana University Press, – 1903/1998. Vol.2, – p. 10–16.

87. Peirce, C.S. What Is Pragmatism?// – Indiana: The Peirce Edition Project Indiana University Press, – 1905/1998. Vol.2, – p. 345–350.
88. Putnam, H. Pragmatism as a Way of Life: The Lasting Legacy of William James and John Dewey/ H. Putnam. – Cambridge: Harvard University Press, – 2017. – p.150.
89. Putnam, H. Pragmatism: An Open Question/ H.Putnam. – Oxford: Blackwell, – 1995.– p. 496.
90. Quintilian. Institutio Oratoria / translated by H.E.Butler – London: William Heinemann, – 1817. – p. 369.
91. Reinhart, T. Anaphora and Semantic Interpretation / T. Reinhart. – Chicago: The University of Chicago Press, – 1983. – p. 223.
92. Reinhart, T. Anaphors and logophors: An argument Pronouns/ T. Reinhart, E. Reuland – Massachusetts: MIT Press, – 1995. – p. 322.
93. Reinhart, T. Reflexivity// – Massachusetts: MIT press, Linguistic Inquiry, – 1993. 24. – p. 720–730.
94. Reuland, E. Anaphora and language design/ E. Reuland. – Massachusetts: MIT Press, – 1988. – p. 415.
95. Reuland. E. Long-distance theory. Natural Language and Linguistic Theory/ L. Jan, – Amsterdam: [n.y.] – 1992. – p. 303.
96. Rooy, A. J. A multifactorial analysis of contact-induced change in speech reporting in written White South African English (WSAfE)// – Cambridge: Cambridge University Press, English Language and Linguistics, - 2020. 24(1), – p. 179–209.
97. Rorty, R. The Linguistic Turn: Recent Essays in Philosophical Method/ R. Rorty. - Chicago:The University of Chicago Press, – 1967.– p. 416.
98. Saville-Troike, M. Introducing Second Language Acquisition / M. Saville-Troike. – Cambridge: Cambridge University Press, – 2012. – p. 233.
99. Searl, J.R. Speech Acts/ J.R. Searl. - Cambridge: Cambridge University Press, –

1969. – p. 72.

100. Searle, J.R. Foundations of Illocutionary Logic// – Cambridge: Linguistics and Philosophy, – 2011. Vol. 12, No. 6, – p. 745-748.

101. Searle, J.R. Indirect speech acts/ J.R. Searl. - New York: Academic Press, – 1999. – p. 317.

102. Siemund, P. Intensifiers: A Comparison of English and German/ P. Siemund. – London: Routledge, – 2000. – p. 283.

103. Simmel, G. The Philosophy of Money/ G.Simmel. – Leipzig: Duncker & Humblot, – 1900.

104. Stirling, J. H. Sir William Hamilton: being the philosophy of perception. An analysis/J. H.Stirling. – California: University of California Libraries, – 1865. – p.140.

105. Strawson, P. F. Intention and convention in speech acts//- New York: Cornell University Press,The Philosophical Review, – 1971. – p. 149.

106. Wittgenstein, L. Philosophische Untersuchungen (Philosophical Investigations) / L. Wittgenstein. – London: Basil Blackwell, – 1953.– p.250.

107. Yule, G. Pragmatics / G. Yule. – London: Oxford University Press, – 2008. –p. 138.

108. Zipf, G.K. Selected Studies of the Principle of Relative Frequency in Language / G.K Zipf. – Cambridgre: Harvard University Press, – 1932.

109. Zupnik, Y.J. A pragmatic analysis of the use of person deixis in political discourse// – Amsterdam: Elsevier, Journal of Pragmatics, – 1994. 21(4), – p. 383-400.

## İxtisarlar və şərti işarələr

FIF - Fərqli istinad fərziyyələri